

AYLIQ ƏDƏBİYYAT DƏRGİSİ
FEVRAL – MART 2023

# Ulduz

№02-03 (644)

WWW.AZYB.AZ
WWW.AYB.AZ

**NEMƏT MƏTİN:** ÖZÜYLƏ SÖHBƏTİ VƏ HEKAYƏLƏRİ
**QULU AĞSƏS:** SAVAŞ – QARDAŞIN BAŞQA ADIDI...
**RÜSTƏM KAMALIN** "YAZI MASASI"
**YOHANNES YENSEN:** ƏDƏBİYYAT ÜZRƏ NOBEL MÜKAFATI LAUREATI
**BÖYÜKDƏN UŞAĞA**
**DƏRGİDƏ KİTAB**

*"Ağac torpaqda kök atıb böyüdüyü kimi, xatirələr də ötən günlərin yaddaşında kök atıb yaşayır".*

*Yohannes YENSEN*

# Bu sayımızda



İlhamə NASİR
BİR KƏLMƏ SÖZ 22


Nemət MƏTİN
ÖZÜYLƏ SÖHBƏTİ VƏ HEKAYƏLƏRİ 3


Məti OSMANOĞLU
USTAD DƏRSLƏRİ 28


Qulu AĞSƏS
SAVAŞ – QARDAŞIN BAŞQA ADIDI... 11


Sevinc QƏRİB
SƏN EY İLAHİ ADAM... 38


Qəmər SÖZAY
SƏNDƏN UZAQLAR 13


Mübariz CƏFƏRLİ
OYANMA 42


Taleh MANSUR
ALİM DÜŞÜNCƏSİ, ŞAİR ÜRƏYİ 16


Seyran SƏXAVƏT
TRİBUNA 45

**Əyyub TÜRKAY**
BÖYÜKDƏN UŞAĞA
51



**Vaqif YUSİFLİ**
GƏNC ŞAİRLƏR, SÖZÜM SİZƏDİR
64





**Xuraman HÜSEYN**
“HƏLƏ NƏLƏR YAZMALIYAM, MƏN NƏLƏR...”
55



**Müxəmməd HAQVERDİ**
QƏRİB ÇAĞI, QÜRUB ÇAĞI...
69

**Cəmil CƏMİLBƏYLİ**
DEBÜT
60



**ƏDƏBİYYAT ÜZRƏ NOBEL MÜKAFATI LAUREATLARI**
YOHANNES YENSEN
71





**GÜLTURAN**
RƏNGLƏRDƏ GİZLƏNƏN DİL
61



**Qabriel QARSİA MARKES**
DƏRGİDƏ KİTAB
76



**Təsisçilər:**
Azərbaycan Yazıçılar Birliyi və “Ulduz” jurnalının kollektivi
**Baş redaktor:** Qulu Ağsəs
**Redaksiya heyəti:** Təranə Vahid *(Baş redaktor müavini),* Hicran Hüseynova *(şöbə redaktoru),* Dayandur Sevgin *(şöbə redaktoru),* Taleh Mansur *(şöbə redaktoru),* Anar Amin, Allahşükür Ağa, Baloğlan Cəlil *(Başqırdıstan),* Cavid Zeynallı, Elxan Yurdoğlu, Elmar Vüqarlı, Elşən Əzim, Elxan Elatlı, Ələmdar Cabbarlı, Əyyub Qiyas, Furqan, Fuad Cəfərli, Gülnar Ümid, Günay Səma *(Voronej),* Həyat Şəmi, Hafiz Hacxalıl, Xəyal Rza, Xaqanı Qayıblı *(Estoniya),* Qılman İman, Nuranə Nur, Nargis, Nilufər Şıxlı *(Moskva),* Məshəti Musa, Orxan Cuvarlı, Rəsmiyyə Sabir, Səhər Əhməd, Seyfəddin Alaylı *(Türkiyə),* Saodat Muxammadova *(Özbəkistan),* Şəfa Vəli, Ulucay Akif.
**Bədii redaktor:** Ədalət Həsən
**Ünvanı:** AZ1000, Bakı, Xaqani küçəsi, 25
ulduz_dergisi@mail.ru; www.ayb.az
**Telefon:** (+99412)498-72-43
Çapa imzalanıb: 03.03.2023 “Ulduz” jurnalı redaksiyasında yığılıb, səhifələnib.
**“ASPOLİQRAF LTD” MMC-də** çap olunub.
Sifariş №3, Tiraj: 300. Qiyməti: 2 man.
**1967-ci ildən çıxır. Şəhadətnamə № 238**




**"AZƏRMƏTBUATYAYIMI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

**"Ulduz"** jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon "Mətbuatyayımı" şöbələrinə müraciət etməyiniz kifayətdir.

**"QAYA" MƏTBUAT YAYIMI**

**"Ulduz"** jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon "QAYA" mətbuat yayımı şöbələrinə müraciət etməyiniz kifayətdir.

**Jurnalın**
**satış qiyməti – 2.00 man.**
**abunə qiyməti – 1.00 man.**

**Bakı şəhərində abunə yazılmaq istəyənlər:**

**441-19-91**
**440-16-26**

**566 – 77 – 80**



**Nemət MƏTİN**

# özüylə söhbəti...

Həyatın keçdiyi dərslər.

Nə qədər yaşamağımızdan asılı olmayaraq həyat bizə ara-sıra dərs keçir. Bunu gah təbiət hadisələriylə, gah digər insanların köməyi ilə, gah da insanların yoxluğu ilə edir. Məsələn, əsgərlikdə "həmişə çıxış yolu var" dərsini komandirim əyani surətdə bizə göstərib. Buz əridib çay içdiyimiz zaman idi. Postda su olmadığından üzümüzü qırxmırdıq. Saç saqqala, saqqal bığa qarışmışdı. Bit-birə bir yandan, aclıq o biri yandan biz əsgərləri haldan salırdı. Üzü təraş etmək barədə heç düşünmürdük də. Komandir bir gün səhər səkkizdə posta gəldi. Üzümüzü tüklü görcək heç nə demədi. Mən düşünürdüm ki, əl-qolla izah edər. Amma elə olmadı. O, sadəcə, əlini yerə uzadıb otların üstündə yatan şeh damcılarına sığal çəkdi və həssas hərəkətlə üzünə sürtdü. Ardınca üzünü qırxdı. Bir kəlmə kəsmədən postu tərk etdi. Şokda idik. Ayılandan sonra hamımız bir nəfər kimi üzümüzü qırxdıq. Komandir üzü tüklü ola-ola bizi döysəydi, axırıncı günə qədər üzümü qırxmazdım.

Həyat dərsləri heç vaxt yaddan çıxmır. Yadıma gəlir, L.N.Tolstoyun "Etiraflar" kitabını oxuyurdum. İlk səhifələrin birində gimnaziya xatirələrini bölüşüb yazıçı. On bir yaşı olanda ilk dəfə "Allah yoxdur" deyən gimnaziya yoldaşından və dua edərkən qardaşının "sən hələ də bunları təkrar edirsən?" sualından sonra dindən uzaqlaşan tanışından yazıb. Bu hissəni oxuyandan sonra özümün dindən uzaqlaşmağımı xatırlamışdım. Bəlkə də, "Etiraflar" kitabını o zaman oxusaydım, daha tez dindən uzaqlaşmağıma səbəb olardı. Mən qatı dindar idim. İşin çətinliyinə baxmayaraq, namazı, orucu saxlamazdım. Namaz qılmağı öyrətdiyim bəzi tanışlar hələ də namaz qılır. Xüsusi günlərdə piyada saatlarla uzun məsafəni qət edib məscidə, ziyarətə getdiyimiz vaxtlar da olub. O vaxt təkcə "Qurani-Kərim" oxumuşdum. Təsiri inanılmaz idi. Beş il təsir gücünü itirmədi. Amma bir gün bir qadına aşiq oldum. O qədər içdən və saf sevgi idi ki, onun üçün namazdan sonra dua edirdim. Birlikdə xoşbəxt olmağımızdan daha çox, onun xoşbəxt olmasını istəyirdim. Sevgi qarşılıqsız olmalıdır. Heç bir təmənnaya baş əyməməlidir. Mənim də gözlərim tutulmuşdu. Ondan başqa heç nəyi görmürdüm. Ayrılanda namazdan sonra heç vaxt etmədiyim və edə bilməyəcəyim qədər içdən dua eləmişdim ki, ayrılmayaq. Ağlamaqdan başımı qoyduğum möhür yaş olmuşdu. Sonrası məlumdur. İnanan adam gerçəkləşəcəyini gözləyir deyə, məyusluğu nəzərə almır. Amma həmin gün dindən deyil, namazdan uzaqlaşdım. Dua etməyi kəsdim. Dinlərdən uzaqlaşmağım isə lazımi kitabları oxumağımla əlaqədardır. Sanki gözlərim açılmışdı.

Zaman məni sevgi adlı dinə gətirdi. Sevgisiz həyat boşdur. Yaşamaq mümkünsüzdür. Sevgi gözəllikləri görməyə kömək edir. Yarpaqları altında gizlənmiş çiyələyi, çiyninə qonan kəpənəyi, ağzını səmaya açıb

gülən uşağı görə bilirsən. Sənin üçün göy üzü bənövşəyi rəngə boyanır. Sevgidən nə qədər danışsan da, az olur. Tam olmur. Çünki sevginin öz dili var. O da yazılmır. Sevgi mənə bir şeyi öyrətdi. Hərəkətdə olmaq vacibdir. Bir şeyi ürəkdən istəyirsənsə, ona sarı yürü. Ona layiq olmaq üçün mükəmməl olmağa çalış.

Bir dəfə isə həyata baxış bucağımı uşaq dəyişib. İşdən yorğun-arğın gəlirdi. Metro təmirə bağlandığı üçün basabas olan avtobuslar daha da basabas idi. Üç avtobus buraxmışdım deyə, ağacı, daşı, yəni qarşıma çıxan, gözümə görünən hər şeyi söyürdüm. Əsəblərim gərilmişdi. Nəhayət, avtobusa mindim. Təqribən on dəqiqə yol qət edəndən sonra sürücü avtobusu dayandırmalı oldu. Çünki uzun avtobusun orta qapıları özbaşına açılıb-bağlanırdı. Mənim kimi hamı bir ağızdan deyinməyə başladı. Görünür, hamı işdə gərgin gün keçirmişdi. Bu dəm möcüzə baş verdi. Bir uşağın səsi gəldi:

– Ana, avtobus xəstələnib.

Avtobusu gülüş sədaları bürüdü. Hamının kefi kökəldi. Başqa avtobus gəldi və biz bir avtobusdan düşüb babaşqasına mindik...

Zaman tunelində azmaq olar, qocalmaq şərtdir, lakin vaxtını boşa xərcləmək özündən asılıdır.

## ...və hekayələri

# ŞAHİN VƏ QARA

Yanvar ayı küçədə yaşayan Şahin üçün əsl imtahan idi. Dayanacaqda avtobusların tüstü borusuna söykənib isinəndə  az da olsa, rahatlıq tapırdı. Gecələr isə yay fəslindəki kimi, parkda yata bilmir, zibillikdən yığdığı kağız və kartonlardan özünə ocaq qalayaraq birtəhər səhərin gəlməsini gözləyirdi.

Cırıq da olsa, iy versə də, dünən tapdığı qalın palto üçün sevinirdi. Heç olmasa, bu qış xəstələnməyəcək. Paltonun düymələri olmadığı üçün əlləri ilə onu özünə bürüyürdü. Kamaz altında qalmış əlcəkləri isə barmaqlarının donmasının qarşısını alırdı. Nikolaydan qalma ayaqqabısının bir tayı ağzını açıb nəfəs alırdı sanki. O biri tayına baxanda şükür etmək olardı. Başına bit düşməsin deyə, əlinə qayçı keçdikcə saçını qırxırdı. Ovuca yerləşən əl güzgüsünə yalnız saçını qırxanda baxırdı. Üzünün çirkinə, dişlərinin rənginə və ən əsası, gözlərinin dərinliyinə baxa bilməzdi. Ruhdan düşməyi sevməzdi. Hər dəfə insanlarla söhbət edəndə gülümsəyirdi. "Necəsən?" sualına "Yaxşıyam" cavabı verirdi. Dükanın yanında köhnə bir döşəyin üstündə yatırdı. Dükana girənlərdən pul əvəzinə nəsə almaqlarını istəyirdi. Onsuz da onu dükana buraxmırdılar. Üst-başından gələn üfunət, sidik qoxusu isə adamı beş metrdən vururdu. Çimmək haqqında heç düşünmürdü də.

Bir dəfə dükanın yanında ocaq qaladığı üçün bütün obyetlərdəki insanlar bayıra çıxıb onu acılamışdılar. Az qala apteki yandıracaqdı. Aptek dükana bitişik idi. Tüstüdən göz gözü görmürdü. Şahin işin içindən yaxşı sıyrılmışdı, onu döyməmişdilər.

Ona casus damğası vuranlar da var idi. Guya hansısa dövlət qurumuna xəbər ötürürdü. Lakin Şahinin çuğulluqla arası yox idi. Daha doğrusu, çuğulluğa saf qəlbində yer yox idi. İstədiyi adamı sayır, istədiyini də saymırdı. Bir adam xoşuna gəlməyəndə ondan uzaq gəzirdi.

Təqribən üç ay öncə gecə iki radələrində qarşısına it sürüsü çıxmışdı... Hürən itlər onu vahiməyə saldığından qaçmağa başlamışdı. Qarşısına daha bir it çıxmışdı. Əyriqulaq itin baxışlarından yorğunluq yağırdı. İt hürməyə başlayanda Şahin ayaq saxlamış, ürəklənərək yerdən daşı götürüb itlərə atmışdı. Balaca it isə daha da bərkdən hürməyə başlamışdı. İtlər hərəsi bir tərəfə dağılışandan sonra Şahin sevincək balaca iti qucağına götürüb sığallamış, o gündən özünə sadiq bir dost tapmışdı.

O hara gedirdisə, it də onunla gedirdi. Zibilliyi bir yerdə eşələyib lazımlı şeylər tapırdılar. Yediyi dönərin bir hissəsini itə

verir, it də öz növbəsində kəsilmiş quyruğunu fır-fır fırlatmağa çalışırdı. İtə ad qoymağı da unutmamışdı Şahin. "Qaragöz" qoymuşdu adını. Qısaca "Qara" çağırırdı.

Təxminən beş ay öncə Şahini bir iş adamı ağ günə çıxarmağa çalışmışdı. O əvvəlcə sevinmişdi. Ona verilən paltarları geyinmiş, saçını ömründə ilk dəfə bərbərdə qırxdırmışdı. Son bir ildə ilk dəfə idi çimib ətirlənmişdi. İlk iş günü cibinə əlli manat da qoymuşdular. Kiçik bir daxmada yer də vermişdilər. İlk baxışdan hər şey gözəl idi. Lakin Şahinin daxili aləmi evə yerləşmirdi. Tezliklə evdən qaçmışdı.

Günlərin bir günü Şahin ağlaya-ağlaya hündür göydələnin qapısını təpikləyirdi. Onu sakitləşdirib nə olduğunu aydınlaşdıranda məlum oldu ki, binada işləyən jurnalist başını tovlayaraq ondan müsahibə alıb. Bəs Şahin nədən narazı idi? Qəzeti yanındakına uzadıb qısaca "oxu" dedi. Bəstəboy, dolu oğlan müsahibəni oxuyub heç nə anlamadı. Üfunət iyi verən bomj nədən narazıdır, görəsən? Çox sağ ol de ki, səni qəzetdə çap ediblər. O, ürəyində düşünsə də, Şahinə demədi. Şahin oğlanın sual dolu baxışlarına cavabsız qalmadı:

– Görmürsən?! Adımı bomj yazıb. Mən ona tapşırmışdım. Mən bomja oxşayıram?! Hə?!

Təəccüblənən oğlan Şahini sakitləşdirib yola salmışdı.

Günlər aylara qarışıb keçirdi. Hər kəs öz tələsdiyi işinin dalınca qaçırdı. Şahin isə yavaş-yavaş addımlayır, dilənir və nəsə tapıb-eləyəndə sevinirdi. Kiçik xoşbəxtlik ona olduqca böyük gəlirdi. İt də dilini bir metr çölə çıxarıb onunla bir addımlayırdı. Hərdən ayaqlarına da dolaşırdı. Şahinin bir arzusu var idi: "Sabaha sağ çıxmaq". Vəssalam. Tez-tez taksofona diləndiyi pulu atıb anasına zəng edirdi. Qoca anası yeriyə bilmirdi. Qocalar evinə zəng vururdu. Hal-əhval tutub anasının nigaran ürəyinə su çiləyirdi. Anası hər dəfə ona qalın geyinməyi tapşırırdı. "Yeməyinə fikir ver, ay bala" deyirdi. Onun küçədə yaşadığını bilmirdi. Bilsəydi, bəlkə də, ürəyi partlayardı.

Şahinin incə səs tonu var idi. Uşaq kimi gülə-gülə danışırdı. Küçədə yaşasa da, pul qazana bilərdi – zibilliklərdən plastik və başqa qabları yığıb təhvil verməklə. Amma etmirdi. Sakitlik Qaradan sonra ən yaxın dostu idi.

Bu gün Şahini polislər apardı. Nə baş vermişdi, görəsən? Kimi öldürüb "məsum uşaq"? Kimin toyuğuna kiş deyib? Yaxınlaşıb salamlaşdım. Polislərdən danışmağa meyilli olanı dilləndi:

– İstirahətə aparırıq Şahini. Qoy bir az dincəlsin.

Heç nə anlamadım. Arxalarınca baxdım. Çox uzağa getmədilər. Həmin istiqamətə gedəndə hər şey aydın oldu. Evsiz-eşiksiz insanların sığınacağı var imiş. Ora dəfələrlə Şahini aparsalar da, bir həftədən çox qalmırdı. Nəyin çatmır, ağ oğraş?! Yemək var, içmək var, çimmək var və nəhayət, rahat yatmaq var.

Şahin heç vaxt intihar haqqında düşünməmişdi. Çünki hələ anası yaşayırdı. Ona tövsiyələr verən, can deyib, can eşidən qayğıkeş anası...

Bakının külək tutan küçələri Şahini uzaqdan tanıyırdı. Qoxusundanmı, yerişindənmi, yoxsa baxışındanmı? Bilmirəm. Şahin "evinə" qayıdanda Qara yenidən hürməyə başladı, quyruğunu buladı, Şahinin ayaqlarını iylədi. Görünür, Şahinlə Qaranı heç kim heç vaxt ayıra bilməyəcək.

## GÖZƏGÖRÜNMƏZLƏR

Göy üzünü nəm əskiylə silmişdilər sanki. Ulduzlar aydın görünürdü. Ay qəddini əyib aypara olmuşdu. Ulduzlara tamaşa edirdi. Bircə bulud belə yox idi. Bəlkə də, bütün göz yaşını töküb mışıl-mışıl yatırdılar. Arabir bir ulduz okeana baş vurURmuş kimi düşürdü. Arzu tutmağı unutmadığım üçün sevinirdim. Külli-kainatın sehrinə göz şahidi kəsilmişdim. Fikrimi dağıdan qəribə səs oldu. Səməd Vurğun adına parkda bir nəfər sərsəri sükanı tuturmuş kimi əlini qabağa verib

sürətlə şütüyən maşın səsi çıxarırdı. Park boyu o tərəf-bu tərəfə naqolay addımlarla yeriyirdi. Darıxdığım üçün işdən çıxıb parka gəlmişdim. Yalnız mənim kimi tənha adamlar parkda oturub göy üzünə tamaşa edə bilər. İşdən çıxanda telefondakı nömrə siyahısına baxmışdım. Heç kim mənə doğma gəlməmişdi. Ona görə günü tək keçirməyi düşünmüşdüm. Amma bu sərsəri bütün fikri-zikrimi məndən alıb diqqəti özünə yönəltdi. Ona yaxınlaşmağı düşünsəm də, yerimdən tərpənmədim. O yorulub yanımda əyləşdi. İşə bax bir. Bu boyda parkda yer tapmadı...

Təngnəfəs idi. Nəfəsi özünə qayıdanda başını 90 dərəcə çevirib mənə baxdı. Ətim ürpəşdi. Qorxdum. Durub qaçmaq istədim. Necəsə özümü toparladım. Sanki macəraya ipucu axtarırdım və tapmışdım. Dilim dodaqlarımın, dodaqlarım da mənim sözümə baxmadı deyə, sual verdim:

– Nə məsələdir?

– Maşınla qızımı məktəbdən gətirirəm.

– Qızın hanı?

– Yanımda əyləşib.

Qorxu canıma tam olaraq yayxanıb oturdu. Amma maraq qorxunu yenə bildi.

– Gecikmisən deyə, maşını bərk sürürsən?

– Aha...

– Qızının adı nədir?

– Gülzar.

– Adıyla böyüsün.

– Çox sağ ol.

– Qızını mənimlə tanış edə bilərsən?

– Danışmağı sevmir.

Gözə görünməyən qızın taleyi haqda düşündükcə sualdan sual çıxırdı. Hövlnak ayağa qalxıb “maşın”ı işə saldı. Arxasınca düşdüm. Keçmişdə “fəvvarələr meydanı” kimi tanınan ərazinin arxa küçələrindən birinə dönəndə ondan əl çəkmədim. Hamı uzaqdan ona baxırdı. Bəzisi gülür, bəzisi donub qalırdı. Nəhayət, binaya daxil oldu. Köhnə üçmərtəbə “xruşşovka”nın ikinci mərtəbəsində qalırmış. Qapını açarla açıb içəri keçdi. Qızıyla danışırmış kimi dedi:

– Ayaqqabılarını çirkləndirmisən.

Qapının arxasına qulağımı söykəyib qızıyla söhbətini dinləyirdim. Səs kəsiləndən sonra evə yollandım. Bütün gecəni ata və qızını düşündüm. Səhər ayılanda divanda yatıb qaldığıma görə özümü söydüm. Böyrəklərimə soyuq olmuşdu gecə. Adətən, gecə temperatur aşağı düşür.

İstirahət günüm idi. Dostum vəkilə zəng vurdum. Küçəni, binanın nömrəsini və qızın adını dedim. Dostum araşdıraraq cavab verəcəyini bildirdi. Eyvana çıxıb siqareti alışdırdım. Aşağıda uşaqlar cırcıramanın quyruğuna sap bağlayaraq uçururdular. Yazıq cırcıramanın axırda quyruğu qopub yerə düşdü. Niyə biz itin, filin ölümünə etiraz edirik, amma cırcıramanın, kəpənəyin, qarışqanın ölümünə biganə qalırıq? Məgər canlı kiçik olanda görməməzliyə vurmaq insanlığa sığar? Əsəbim uşaqların gülüşünə qarışıb yox oldu...

Saat ikidə dostum vəkil zəng vurdu. Baş barmağımı ekranda soldan sağa sürüşdürəndən sonra “alo” dedim. O, özünəməxsus səs tonuyla söhbətə başladı:

– Ataruh, qulaq as. O uşağın həyatı ilə nə üçün maraqlanırsan?

– Lazımdı. Səndən yaxşı olmasın, bir dostum istəyib. Yəqin, hekayə yazacaq. Hər halda, adları dəyişdirər.

Gülzar səkkizinci sinifdə oxuyanda valideynlərinin razılığıyla otuz yaşlı kişiyə ərə veriblər. Toy gecəsi qanaxmadan ölüb. Atası qızının ölümünü eşidəndən havalanıb. Gecə-gündüz küçələrdə sülənir.

Birtəhər özümü toparlayıb dedim:

– Oldu, çox sağ ol...

Baş barmağımı ekranda sağdan sola sürüşdürəndən sonra telefonu divanın üstünə atdım.

Öz-özümə pıçıldadım:

– Məgər canlı kiçik olanda görməməzliyə vurmaq insanlığa sığar?

# NAZİRƏ

Beş yaşına qədər həyatı monoton keçmişdi. Nazirənin atasının başına gələn bədbəxt hadisə hər şeyi dəyişdi. Hərbi silah-sursatı qoruyan hərbçi atası onları yaxşı dolandırırdı. Evləri hərbçilərə verilən köhnə daxma olsa da, qarınları tox idi. Bir gün gecə hərbi anbarın damından oğrular içəri soxularaq baha qiymətə satılacaq maşın hissələrini oğurlayır. Nazirənin atası anbara cavabdeh olduğu üçün məsuliyyət boynunda qalır. Məhkəmə qurulur. Hakimin qərarı ilə atasına yüksək məbləğ ödəmək cəza kimi kəsilir. Əks təqdirdə dörd il altı ay həbsxanada çürüməli olacaq. Nazirənin anası əl-ayağa düşür. Qızılları satır. Bir az qohumlardan pul toplayır. Lakin bəs etmir. Ata-anası illər öncə rəhmətə getdiyi üçün məcbur qalıb qayınatasına ağız açır. O isə ayağını yerə dirəyib oğlu üçün pul vermir. Daş sifət alıb son sözünü deyir: “Oğluma görə milçək də satmaram. Kişi türmədə yatar”.

Ata soyuq zindan divarlarına məhkum oldu. Nazirənin anasının saçları bir günün içində ağardı. Çətin həyat hələ qarşıda idi. Ana məcbur qalıb iki ağır işə düzəldi: qabyuyan və xadimə. Bir işdən çıxıb o birinə gedirdi deyə, Nazirə və qardaşı evdə ikilikdə qalırdı. Bütün günü dalaşırdılar. Yola getmirdilər. Ana yorğun-arğın evə qayıdanda nəvaziş, qayğı, diqqət istəyən uşaqlar, xüsusən də Nazirə müxtəlif bəhanələr eşidirdi: “Başım ağrıyır”. “Gedin yatın”. Nazirə tək qalmışdı. Həftə sonlarına nifrət edirdi. Həyətdə yaşıdları ilə oynayanda ataları evə qayıdan uşaqlar onların qarşısına qaçaraq qucaqlaşır, hədiyyələri alır və ürəkdən sevinirdilər. Nazirə yola baxırdı. Gəlməyən atasını gözləyirdi. Arabir qonaq gələn dayıqızı da ona acıq verirdi. Nazirə yanında olanda atasını qucaqlayıb azı əlli kərə “ata” deyirdi.

Nazirə atasının şəklini cibində gəzdirirdi. Arabir, xüsusilə gecələr şəklə xeyli baxdıqdan sonra dəfələrlə öpürdü. Tək ömür sürməkdən qorxurdu.

Onun üçün ayda bir bayram var idi. Atasının yanına aparıldığı gün. Ev yeməkləri və siqaret dolu çantanı anası güc-bəla ilə həbsxananın qapısına qədər daşıyırdı. Uzun-uzadı növbədə yer tutmaq lazım idi. Nazirə həyəcanla atasını görəcəyi anı gözləyirdi. Səhərdən günortaya qədər beş qapı keçirdilər. Hər qapıda onları və gətirdiklərini yoxlayırdılar. Yarpaq dolmasının içinə qədər baxış keçirilirdi. Nazik, uzun dəmiri içi dolu farş olan yarpağa batırıb çıxarırdılar. Nazirə, qardaşı və anası yorğun halda beş qapını keçəndən sonra kafe kimi bir yerə çatırdılar. Orada da gözləməli olurdular. Cəza çəkənləri gətirənə qədər. Atası gələndə Nazirə sevincindən onun üstünə qaçırdı. Atasını bərk-bərk qucaqlayıb qoxulayırdı. Sonra bir stol arxasına əyləşib söhbət edirdilər. Nazirə həmişə atasının qucağında otururdu. Başını sinəsinə söykəyirdi. O bilirdi ki, atası ona hər görüşdə pul verəcək və qız sevincindən nəinki həbsxanaya, hətta yerə-göyə də sığmayacaq. Amma atasında pul haradan? Ömür-gün yoldaşından gizlicə pulu alıb qızına uzadırdı. Evə qayıdanda Nazirə qardaşına acıq verib deyirdi:

“Gördün? Ata mənə pul verdi, sənə yox!”

Qardaşı yaşca ondan böyük olduğu üçün həssas məqamlarda dinmirdi. Belə kövrək qızın xətrinə kim dəyər?

Dözülməz günlər payızda başlayırdı. Payızın leysan yağışı uçuq damlarından içəri keçməsəydi, əl çəkməzdi. Evi su basmasın deyə, evdə nə dərin qab var idisə, hamısı döşəməyə düzülürdü. Hətta bir dəfə elə güclü yağış yağdı ki, tavanın bir hissəsi uçdu. Nazirənin yatdığı köhnə yataq mebelinin yanına düşdü. Xoşbəxtlikdən heç kim zədələnmədi.

Evin divarlar o qədər nazik idi ki, bir təpiyə aşırmaq olardı. Amma ən çətini qış ayları idi. Soyuq olmasın deyə, çatlamış pəncərə şüşələri qalın sellofanla örtülürdü. Yenə də dişqıran şaxtanın qarşısını almaq olmurdu. Ona görə qışda ya dayı, ya da xalagilə köçürdülər. Adamın Allahı var. O biri

qohumlara baxmış dayı və xala onlara yaxşı baxırdı.

Dörd il altı ay babasıgil Nazirədən, qardaşından, gəlinlərindən xəbər almadılar. Bir dəfə zəng edib hal-əhval tutmadılar. Belə daşürəkli insanların ucbatından Nazirə gün-gündən həyatdan soyuyurdu. Öz içinə çəkilirdi. İnsanlarla az-az danışırdı. Lakin ürəyində bir ümid vardı. Atası qayıdacaq. Onu əzizləyəcək, bağrına basacaq, onunla xeyli danışacaq, deyəcək, güləcək. Lakin belə olmadı. Ata qayıdandan sonra monoton, qayğılı həyat başladı. Ata iş-ev, ev-iş... Elə ana da həmçinin. Uşaqlar böyüdü. Təhsil aldı. Amma Nazirə öz balaca dünyasından çıxmadı. Təkcə kitablarla ünsiyyətdə olurdu, desək, yalan olmaz. Drayzerin "Kerri bacı" romanı ona doğma gəlirdi. Üç dəfə oxumuşdu.

Hər dəfə məktəbdəki hadisə Nazirənin yadına düşəndə qəribə olurdu. Müəllim "Yay tətilini babamgildə necə keçirdim" adlı inşa vermişdi evə. Heç nə yazmayan Nazirə dərsdə dişini damağına sıxıb oturmuşdu. Şagirdlər bir-bir uca səslə yazdıqlarını oxuyurdu. Xoşbəxtlikdən sıra ona çatanda zəng çalınmışdı.

Uşaqlıqdan otağına bağlı idi. Hələ altı yaşı olanda otağında özünün xəyal etdiyi Tanrı ilə danışırdı. Şikayətlənirdi. Nə etmişəm, nədir mənim günahım? Atası üçün dua edib ağlayırdı. Əsəb və fikirlərlə yol yoldaşı olmuşdu. Əsəbiləşəndə üzdə bildirmirdi. İçində ağladığı üçün böyüyəndə xəstəlik aşkar olundu. Xroniki qastrit.

Üçüncü kursda oxuyanda Nazirənin nənəsi yatağa düşdü. Ölüm ayağında oğlu yanına getdi. Nazirənin anası da ərinin xatirinə uşaqları götürüb ərinə qoşuldu. Nənə ölüm ayağında belə uşaqları soruşmadı. Nazirə gecələr ağlayırdı. Babasının üzünə baxmırdı. Neçə dəfə özünə söz vermişdi ki, babanı görən kimi hər şeyi üzünə deyəcək. Amma bacarmadı. Ağladı, hey ağladı.

Nənə ölən gün dayısıgilə apardılar Nazirəni. Ürəyində sevinirdi. O evdə qalmaq işgəncə olardı. Bir həftə ərzində nənə-babasının evində qalan valideynlərinin yanına qayıtmaq istəmədi. Mərhumə dəfn olunandan bir neçə ay sonra Nazirəni qara mərmərdən boylanan nənənin yanına aparmaq istəsələr də, özünü yerə çırpdı. Ağladı, zarıdı, yaxın getmədi. Uzaqdan iri, qara mərmərə və dörd tərəfi, üstü dəmirlərlə əhatələnmiş əraziyə soyuq-soyuq baxdı. Ürəyində simic və ürəksiz babasını söyürdü. Oğluna vermədiyi pullarla həm arvadına, həm də özünə qara mərmərdən başdaşı sifariş vermişdi. Üstəlik, qəbiristanda yer götürüb çardaq düzəltdirmişdi. Nəyə lazımdı belə dəbdəbəli başdaşı, əgər səni heç kim sevmirsə, yanına gəlib ziyarət etmirsə, şəklini öpmürsə? – deyə o düşünmüşdü...

Bir il keçməmiş babası da vəfat etdi. Nə qədər qəribə səslənsə də, Nazirə sevinirdi. Elə bil çiynindən qarışqa yükü götürülmüşdü. İllərin acığını çıxmışdı.

İndi rayona, ata yurduna gedirdi Nazirə. Hər dəfə həyətə düşəndə çevrilib dörd yaşlı uşaq olurdu. O qayğısız, heyva ətirli günlərə qayıdırdı. O həyətdə böyüməyən Nazirə qalmışdı. İyirmi iki yaşı olmasına baxmayaraq, atasından yelləncək asmağı istəmişdi. Sonra dondurma, gəlincik...

## SENTİMENTAL GÖZƏLLİK

*Həyat bizi çobanyastığı ləçəkləri kimi yolur.*
*(Pol Oster)*

Ən çox sevdiyi içki çay idi. Çayı necə bəhbəhlə içirdisə, ona baxan da çay istəyirdi. Heç bir içki çayı əvəz edə bilməz – belə düşünürdü. Hə, bir də "Leon" filmini sevirdi. Bir çay ola, bir də bu film. Vəssalam. Onu daha heç cür xoşbəxt etmək olmazdı. Çox oğlan onu sevdi. Amma o yalnız çayı və Matildanı. Hə, "Leon" filmindəki bəstəboy, əlində dibçək gəzdirən və Leonu sevən Matildanı deyirəm.

Bu gün də gec yatacaqdı. Sosial şəbəkələrdə baş qatıb əlinə keçən gözəl fikirləri paylaşacaqdı. Qulaqlıqda da Stinq oxuyurdu:

“If I told her that I loved you,
You'd maybe think there's something wrong.
I'm not a man of too many faces,
The mask I wear is one”[1].

“Leon” filminin musiqisi idi. Nə vaxt kimisə sevəcəkdisə, Matilda qədər ürəkdən sevəcəkdi. Dəlicəsinə. Amma ümid edirdi ki, sevgisi filmdəki kimi birtərəfli olmayacaq. Leon Matildanı yox, onun sevməyini sevirdi axı.

O həm də şeir yazırdı. İlk şeirləri zəif olsa da, sonrakılar maraqlı alınmışdı. Sanki ürəyi böyüdükcə şeiri də böyüyürdü. Ürəyini hər kəsdən gizlətməyə çalışırdı. Gözəlliyin mahiyyəti də elə bundadır. Gizlində yetişir. Baramanın içində gözəlləşən kəpənək kimi. Qönçənin içində böyüyən gül kimi…

Qısa saçları ona yaraşırdı. Təkcə özünü Matildaya oxşatmağa çalışmırdı. Saçları cod idi. Daramaq, duş qəbul edəndən sonra qurutmaq çətin idi. Bir tərəfdən də, adamın Allahı var, qısa saçlı qadınlar bir ayrı gözəl olur.

Heç kimi sevə bilmirdi. Dərdindən ölənləri də, ona hədiyyə göndərənləri də, vəd verənləri də… Bir sözlə, heç kimə ürəyini aça bilmirdi. Amma sevinc hissi uzun çəkmədiyi kimi, kədər də uzun çəkmədi. Günlərin bir günü dəlicəsinə sevdi. Adi bir tanışlıq zamanı sehrə düşdü. Oğlan çaydan çox kofeni xoşlayırdı. O, sevdiyi üçün çaydan imtina etdi. Mən sənə görə çayı kofeyə dəyişərəm, – dedi. O gündən etibarən ürəyində gizlətdiyi bütün gözəllikləri aləmə yaydı. Kəpənək də, gül də sevgi kimi bir gün böyüdüyü, yetişdiyi yeri tərk edir. “Mən varam” – deyə qışqırır.

O gündən sonra tamam dəyişildi. Nəinki çayı kofeyə, hətta Matildanı Nuranəyə dəyişdi. Özü oldu. Filmdəki sevgidən də böyük sevgiylə  sevdi. Bütün sevgisiylə oğlanı yaşatdı. İnsan necə də dəyişərmiş. Sevgi adamı böyüdür.

1 Və əgər sənə səni sevdiyimi desəydim, səhv bir şey olduğunu fikirləşə bilərdin. Mən çoxüzlü adamlardan deyiləm, taxdığım maska təkdir.

İlk görüşdə oğlanın kirpiyi sağ yanağına düşdüyü üçün ona demişdi:

– Kirpiyin düşüb, arzu tut.

– Elə bax ki, hansı gözümə yaxın olduğunu bilim.

– Nə arzu tutdun?

– Ömürlük mənimlə qalmağını.

Sonralar daha bir neçə dəfə görüşdülər. Hər ikisi sevginin ağuşunda xoşbəxt idi. Gəzdikləri küçələri unutmayacaqdılar. İlk öpüşü, ilk yeməyi, ilk qucaqlaşmağı...

İlk görüş saat yeddidə baş tutacaqdı. “İçərişəhər” metrostansiyasının qapısından Nuranə çıxanda yaxınlıqdakı kilsə zəngi yeddi dəfə çaldı. Oğlan Nuranəni görmürdü. Zəngin səsini eşidəndə düşündü ki, xristian olsaydılar, toyda eyni bu zəngdən çalınardı. Zəngin səsi adamın ürəyindəki cüzi bir pis fikri də silkələyib çıxarar...

Nuranə oğlanın sevdiyi bənövşəyi rəngə o qədər vuruldu ki, o rəngdə geyimlər alır, dırnaqlarına o rəngdə boya axtarırdı. Gülləri də o rəngdə sevdi. Həyat başdan-başa bənövşəyi rəngə bürünmüşdü. Nuranə ətrini belə dəyişmədi. Çünki oğlanın ağlını başından alırdı. Amma ətir bitmirdi ki, bitmirdi. Başqa yerə gedəndə o ətri vurmurdu Nuranə. Qısqanırdı ətrini. O yalnız oğlanla görüşə gedəndə ətrini sevə-sevə işlədirdi.

Sentimental hisslər sevgidən qaynaqlanır. Oğlan bunu ilk dəfə ona deyəndə incimişdi. Sonra özü də bunu hiss etdi və qəti qərara gəldi ki, oğlanların əksəriyyəti rasionalistdir, qadınlar isə sentimental. Qadınla kişi bir araya gələndə balans həyatı gözəlləşdirir. Bir görüşdə Nuranə göy üzünə baxaraq ulduzların olmadığını demişdi oğlana. O isə sentimentallığın lap dibinə enərək cavab vermişdi:

– Ulduzlar bizim sevgimizdən utanaraq gözlərini yumub.

Payız günlərinin birində parkda gəzişəndə oğlanın çiyninə qurumuş yarpaq düşdü. O əhəmiyyət verməsə də, Nuranə oğlanın çiyninə toxunub yerə düşən yarpağı götürdü. Oğlan ona kitab hədiyyə etmişdi. Nuranə həmin yarpağı kitabın arasına qoydu. Bir

dəfə isə dəniz kənarına gəzməyə getmişdilər. Balıqqulağını qulağına yaxınlaşdıran Nuranə gülümsəmişdi. Oğlana üzünü tutaraq sevgi dolu baxışlarıyla demişdi:

– Sanki qulağıma "səni sevirəm" pıçıldayırsan.

Sevginin həzin uğultusu...

Sonralar Nuranə çox az hallarda şeir yazdı. Görünür, xoşbəxt insan şeir yazmağı düşünmür. Kədər adama nələr yazdırmaz?.. Sevinc hissi isə insanı poeziyadan uzaqlaşdırır. Yalnız oğlan üçün darıxanda ona aid şeir yazdı.

Vaxtı, zamanı unutmuşdular. Onlar üçün təqvim ancaq sevgi dolu anlarla hesablanırdı. Məsələn: qar yağanda Nuranənin saçlarına düşən qarı təmizləmək, yağış yağanda bir yerdə rəqs etmək və sairə və ilaxır.

Nuranə həddindən ziyadə həssas idi. Oğlanın ən adi sözlərini belə ürəyinə salır, ən sadə hərəkətlərini beynində sorğulayırdı. Hətta oğlan "sevirəm" qarşılığında "mən də səni" deyəndə "mən də səni nə?" sualını verməyə tələsirdi. Tam cavabı gözləyirdi. Bir dəfə həftəsonu görüşündə oğlan yediyi yeməkdən ona vermişdi. Çəngəli düz dodaqlarına uzatmışdı. Nuranə üç gün bunu rəfiqəsinə sevinərək danışmışdı.

Tez küsüb, tez barışırdılar. Heç bir gün çəkmirdi ki, iki tərəfdən biri üzr istəyirdi. "Bağışla" sözünü azı min dəfə demişdilər.

Alınmayanda alınmır. Həyat xəyalpərəstlər üçün hər zaman sürpriz hazırlayır. Bir ildən sonra oğlan Fransaya köçməli oldu. Ailəsi gedirdi deyə, qala bilmədi. Evi də satmışdılar. O isə tək qaldı. Vaxtaşırı görüntülü danışırdılar. Məsafələr sevgiyə əngəl olmasa da, soyudur. Yavaş-yavaş aralarındakı spontan sevgi azaldı. Nuranə sevgisinə sadiq idi. Heç vaxt kofeni çaya dəyişmədi. Matilda da yeniyetməliyinin bir küncündə xatirətək yaşayırdı. Natali Portman da illər sonra film haqqında deyirdi ki, "Leon" filmi ona sevinc gətirmədi. On iki yaşında özünü seksual hisslərin obyekti kimi hiss etmək çox qəribə idi.

O böyümüşdü. Ömrünün axırına kimi başqa birisini sevmədi...





**Qulu AĞSƏS**

# SAVAŞ – QARDAŞIN BAŞQA ADIDI VƏ YAXUD İN GOD WE TRUST...

Belə baxanda Üçüncü Dünya müharibəsi
çoxdan başlayıb:
Ukrayna Rusiya ilə vuruşandan bəri yox,
bəşər Əsədlə döyüşəndən bəri.
Suriya üç yerə bölünəndən başlayıb
Üçüncü Dünya müharibəsi.
Ondan bəri.
Hələ ondan da irəli.
"Bütün insanlar qardaşdır və lakin..." Savaş –
qardaşın başqa adıdı.
Dünyada ilk qırğını iki qardaş törədib:
Habillə Qabil.
Aralarında bir hərf fərqi var.
Qabil Habili heyvanın çənə sümüyü ilə
öldürüb.
Dünyada son savaş iki qardaş arasında gedir:
Vladimirlə Volodimirin.
Aralarında bir hərf fərqi var.
İnsanlar öz çənəsini işə salanda sülh yaranır,
heyvan çənəsinə cumanda qırğın düşür.

İnsan əlində nə varsa, onunla xoşbəxt olmalıdı. Yaxud özünü xoşbəxt hiss eləməlidi. "Axı əlimdə nə var ki, bomboşdu..." – deyirsən. Deyil. Bir əlinə diqqətlə bax. Gör nə gözəl barmaqların var! Axı onlar gecəylə daş arasında qala bilərdi. Həm də iki daş arasında yox, beş yüz kilometr (!!!) uzunluğu olan xarabalıq altında.

Türkiyədəki dəhşətli zəlzələ bəşəriyyətin qapısından bir elan asdı:

Özünüzü bu evdə adam kimi aparın, əziz kirayənişinlər!

Deyirlər, müharibə jurnalistikası siqaret kimidi, onu yalnız bir yerindən yandıra bilərsən, filtrindən yox, papiros – mülki mətbuatdı.

Təbii fəlakət də müharibədi. Bəlkə də, ən birinci və ən davamlı müharibə. Onun da yalnız bir yerindən yandırıb çəkə bilərsən. Zəlzələ vaxtı təkcə mətbuat yox, feysbuk-instaqram-tviter yox, vatsap mesajı da nə çəkdiyinin fərqində olmalıydı. Filtrə toxunmaq olmaz! Qədim yunan filosofu "yaşamaq üçün yeyin" deyəndə bir-birlərini nəzərdə tutmurdu. Onun xələfləri filosofu düz anlayıblar. Qonşu ölkənin fəlakətinə Yunanıstan dost kimi qatıldı. Zəlzələdən cəmi bir neçə gün qabaq Türkiyəylə savaş ritorikasında danışan Afinanın başsağlığında dərin insani hüzn vardı. Ermənistan seqmenti isə faciəyə gülüş smaylı qoydu.

Filosofu olmamaq budur!
Kitabı olmamaq budur!
Tarixi olmamaq budur!
Musiqisi olmamaq budur!

Siqaretlə papirosu hardan yandırmağın fərqini bilməmək, ağzındakının nə olduğundan bixəbərlik budur!

Azərbaycan Türkiyənin Zəlzələ savaşında
özünü dağıntıların altına atdı.
Qardaşına bir şey olmasın deyə.

Millət əlinə düşəni zərərçəkənlərə yolladı. Qıyıb özü yatmadığı mitildən tutmuş, əlil təqaüdünə kimi.

Amma bütün yolladıqlarımızın bir adı var:
qanad!
Biz onlara qanad verdik.
Bir daha binalar yox, sakinlər uçsun deyə.
Dost qanadı.
Bir daha savaş – qardaşın başqa adı
olmasın deyə...

**P.S. Təzəliklə bilmişəm ki, ABŞ dollarının üstündə Tanrının adı var.**
**İN GOD WE TRUST.**
**Yəni biz Tanrının varlığına inanırıq.**
**Yaxşı sözdü, amma bunu Tanrısı**
**pul olanlar deyir...**

*15 fevral 2023*





Qəmər SÖZAY

***

Bütün ümidlərin kökü kəsilib,
Bütün ümidlərim məzar qoxuyur.
İllərdir qəlbimdə yatan arzular
Sabah oyanmaqçün dua oxuyur.

Yaddaşım köksünü ötürür yenə,
Keçmişin kölgəsi alır başımı.
Dünənlər dağ çəkir qəlbimin üstə,
Sabahlar gənclikdən çalır yaşımı.

Sənsizlik qoynunda quruyur ömrüm,
Ölümlə qalımın savaşındayam.
Həsrət adlı dərddən zarıyır ömrüm,
Həyatın qaranlıq libasındayam.

Bu bəxtin nazıyla çox oynamışam,
Susamış göz yaşım yanaqlarına.
Mən Allah deyiləm, fəqət yenə də
Səni bağışladım günahlarına.

## SƏNDƏN UZAQLAR

Səndən uzaqların havası soyuq,
Səndən uzaqların bəxti qaradır.
İtirib yolunu ümidlərim də,
Bilinmir ünvanı nədir, haradır.

Taleyim kədərin toruna düşüb,
Hər bir çırpınışla qəmə bürünür.
Zamanın gözünə dağ bassam belə,
Ötən hər günümdə yerin görünür.

Dolanır aylarım, illərim sənsiz,
Gəncliyim boynunu bükür beləcə.
Mənə unutmağın reseptini yaz,
Ya da ki de, səni unudum necə...

Toz basmış pəncərə şüşələrimdən
Həsrətin boylanır qaranlıq kimi.
Çirkli ovuclarım duaya həsrət,
Ölüm bədənimə çəkir şəklimi.

Nə sən həmin o adam,
nə mən həmin qadınam,
Boynu bükük ümidlər ruhunu təslim edib.
Qarşılaşsaq, döyünməz
birgə vuran qəlbimiz,
Gecikmiş məhəbbətin qatarı çoxdan gedib.

Yaşadığım ünvan da daha həminki deyil,
Daha xatirələr də canlanmır gözlərimdə.
Varlığınla var olan o qadından əsər yox,
Ölmüş bir qadın cismi gəzdirirəm özümdə.

Bircə-bircə xəyallar uçuruma adlayır,
Zaman da taleyimə kəm biçəcək soydadır.
Zülmətlərə qərq olan çarəsiz, tənha dünyam
Qaniçən yoxluğunun qaranlığı boydadır.

## DAĞILAN ÜMİDLƏR

Dağılıb ümidlərin hərəsi bir köşəyə,
Neyləyim axtarmağa taqətim də qalmayıb.
Mən necə yanılmışam səni belə sevərək,
Sən adlı bir ünvanım heç əzəldən olmayıb.

Tıxanır boğazımda eşqə dair cümlələr,
Lal olur məhəbbətim sevgisizlik dilindən.
Taxtın qurub qəlbimdə həsrətin padişahı,
Qurtar məni, İlahi, bu qüssənin əlindən.

Üşüyür xatirələr, yaddaşımın evində,
Ruhum soyudur artıq nəfəsimdən özünü.
Yollar uzanıb gedir hicranın qollarına,
Gəl birlikdə kor edək ayrılığın gözünü.

## ÇAĞIRIR MƏNİ

Ruhum asılıb göydən,
Ölüm çağırır məni.
Haqqın yolunu kəsən
Zülüm çağırır məni.

Qəmin gölündə batan,
Dərdinə dərdi qatan,
Ana bətnində yatan
Dölüm çağırır məni.

Qədərə pərçim olan,
Qönçəsin erkən yolan,
Açılmamışkən solan
Gülüm çağırır məni.

Taleyinə qor olan,
Yanıb, yanıb qovrulan,
Yanmış bəxtdən sovrulan
Külüm çağırır məni.

## SƏNDƏN SONRA

Bir quru canım qalıb
səndən sonra özümdən,
Uğursuzluqlar büküb taleyimin qəddini.
Boş, mənasız bu dünya
elə düşüb gözümdən,
Yarıb keçə bilmədim kədərin sərhədini.
Basdırılmış ümidlər üşüyür məzarında,
Çəkdiyim ah-nalələr ərşə qulaq batırır.
Taleyinin önündə diz çökən quzğun kədər
Mənim də gəncliyimi ağuşunda yatırır.

Bax, hələ də qalmışam keçmişin qucağında,
Sönük gəzdirir ruhum bu cansız bədənimi.
Sən indi ailənlə, öz isti ocağında,
Mən hər gün itirirəm yaşamaq "nədən"imi.

## ÜMİDSİZ

Nə vaxtdır ki, ümidsiz, gümansızam sabaha,
Arzuların canında məndən əsər qalmayıb.
Allahın ümidinə yaşayıram hələ də,
Bu kor qalmış bəxtimin gözləri açılmayıb.

Hey cəm olur sinəmdə,
çarpazlaşır dərdlərim,
Hicran hələ zövq alır həsrətinin dadından.
Xəyalının kölgəsi kəsir başım üstünü,
Ümidsizəm, ümidsiz o sevdiyin qadından.

O sevdiyin qadının kədər qırıb belini,
O yuxa ürəyi də Çin Səddinə bürünüb.
O sevdiyin qadının buraxandan əlini
İşıqlı sabahlardan qaranlığa sürünüb.

Yolların sinəsində üşüyür yoxluğunla,
Didərgin bir sevginin nəfəsini daşıyır.
Puç olmuş gəncliyilə bu vəfasız həyatda
Allahın ümidinə yalan-gerçək yaşayır.

## SƏNSİZLİYƏ DOĞRU

Üz tutur sənsizliyə saatların əqrəbi,
Hər dəqiqə ömürdən bir ömürü aparır.
Xatirələr can verir zamanın yaddaşında,
Nə ömür sona yetir, nə sənsizlik qurtarır.

Zaman da öz payından
artıq pay vermir bizə,
Doğan günəş isitmir üşüyən sevgimizi.
Yuxuların çin olma ümidi sona yetib,
Yuxular da birlikdə görmək istəmir bizi.

Döyülür sol yanımda həsrət adında vurğu,
Nəbzim də hey deyinir, yorulur sürətindən.

Kiçicik bir ürəkdə bunca böyük bir sevgi,
Özüm də nigaranam, inan ki, səhhətimdən.

Kədər öz örpəyini atıb başım üstünə,
İtib dodaqlarımda təbəssümün şöləsi.
Yalnızlıq qala qurur yeni yaşım üstünə,
Havadan da duyulur bir əlvida nəfəsi.

## ŞƏN, MAKİYAJLI QADIN...

Can çəkişir ümidlər həsrətinin dizində,
Körpəcə arzuların bükülür bel-buxunu.
Yorğun bir ürək gəzir sənsizliyin izində,
Ay mənim uzaqdakı ən dəyərli yaxınım.

Xatirənlə baş-başa – dörd divardır,
bir də mən,
Saatın əqrəbləri zamanı qabaqlayır.
Sənsizlik payız kimi xəzan tökür üstümə,
Sənsizlik payız təki ömrümü qucaqlayır.

Taqətsizəm, sabaha yalınayaq gedirəm,
Yollar tikan bitirir ayağımın altında.
Səndən sonra qəhəri çəkirəm üz-gözümə,
Səndən sonra həsrətəm makiyajlı qadına.

## KİMSƏSİZ DAXMA KİMİ

Kimsəsiz bir daxmayam,
Qapanmışam özümə.
Xəyalları toz basıb,
Görünmürlər gözümə.

Uçub sevgi çatısı,
Məhəbbəti üşüdür.
Hayqırtımı, sadəcə,
Yalnızlığım eşidir.

Payız keçib üstündən,
Xəzanına bürünüb.
Uçuq-sökük bu daxma
Hey bahara sürünür.

Bütün yollar qapanıb,
Təklik sarıb dörd yanı.
Bitəcəkmi, görəsən,
Bu daxmanın üsyanı?





# ALİM DÜŞÜNCƏSİ, ŞAİR ÜRƏYİ

Müsahibə üçün Rüstəm müəllimi düz bir ay on gün soraqlamalı oldum; nə az, nə də çox, düz qırx gün... Burda da bəlli bir kəramət var, öz yerində. Yazıları mistik ilmələrdən hörülmüş bir könül adamıyla bağlı belə zəruri təsadüfün yaşanması, zənnimcə, nə mənə, nə də başqalarına təəccüblü gəlməlidi. Əslində, işlərin belə gətirməsi həm də bu qərarlı və dəyərli professorun bir yerdə qərar tutmamasına bağlı idi. Qələmə aldıqlarını tapmaq qədər asan deyil həyatda Rüstəm Kamalı tapmaq. Sorağı gah bir təhsil ocağından gəlir, gah da o biri təhsil ocağından. Ziyasından tələbələrinin düşüncələrinə, ürəyinin odundan çalışdığı təhsil ocaqlarına pay düşür. Qoy Tanrı da payını kəsməsin Rüstəm müəllimin.

Ümumiyyətlə, özündə heç nə saxlamır Rüstəm Kamal. Son damla fikrinə kimi yazıya və insana xərcləyir. Xərcləyir ki, bitməsin, yeni nəfəslə müjdələnsin. Necə deyərlər, nəfəs verib, nəfəs alır. Qələminə və dilinə tuş gələn ən qədim yaşanmışlar belə tazə yaşananlar kimi təravətlidir. Alim düşüncəsinə, şair ürəyinə sahib olanda belə olur da, elə belə də olmalıdı. Mən onunla 60 yaşının tamamında həmsöhbət oluram. 60 yaşını tamamlamasaydı belə, o, bütöv şəxsiyyətdi, dünyaya bütöv gəlmişlərdəndi. Kimsə onu bütövlüklə tanımırsa, Osman Sarıvəllinin təbirincə desək, günah onun özündədi. Məşəl ürəyinə baxıb ona 60 yaş vermək olmaz, fəqət düşüncə və fikirlərinə

nəzər yetirəndə 60-ın yanında gözdən qaçan bir sıfırın olduğunu sezməyə bilmirsən.

Əslində, Rüstəm müəllimlə həmsöhbət olmağın yaxşı və yaxşı olmayan tərəfləri var. Yaxşı olan odur ki, ona hansı sualı versən, cavabı sözün, bilginin və düşüncənin qüdrətində məna-məna dalğalanır, bir dərin mətləbdən o biri dərin mətləbə doğru uzanır. Yaxşı olmayan tərəfi də odur ki, danışdıqları şirin-şəkər ömür kimidi, xoş gəlir, ümidləndirir, amma bitməsi labüddür. Ömür demişkən, ədəbiyyat onun ömür yoludur. Dünyaya Tanrı verən öz ömrüylə gəlsə də, illəri çay misalı axıb qarışıb ədəbiyyat dəryasına. Açığı, indi ayırd etmək çətindi, ömrünün illəri çay misalı axıb qarışıb ədəbiyyata, ya ədəbiyyat tale olaraq qarışıb alın yazısına. Bilmirəm... Bildiyim odur ki, Rüstəm Kamalın imzası söz dünyasının bağrının ortasından ekvator xətti kimi keçir. Hələ yoxlasan, nəbzi də sözlə əkiz döyünür. Adi vaxtlarda gözlərində gəzdirdiyi işıq ədəbiyyatdan söz düşəndə günəşə dönür. Bir baxırsan ki, o günəşin şəfəqlərindən Dədə Qorqud, Məhəmməd Füzuli, Nizami Gəncəvi, Molla Pənah Vaqif, Mirzə Cəlil, Səməd Vurğun, Məmməd Araz və neçə-neçə dühanın ziyası süzülür. Belə anlarda dilindən süzülənləri gözlərindəki günəş təsdiqləyir. Və sən təkcə bir alimin dediklərinə deyil, həm də bir günəşə inanmaq məcburiyyətində qalırsan.

**– Rüstəm müəllim, bəlli məsələdir ki, tənqidçi fikri mətnə münasibətdən doğulmalıdır, amma bəzən mətn müəllifinə münasibətdən doğulur. Belə olan halda ən çox itirən kim olur, müəllif, tənqidçi, ya ümumən ədəbiyyat?**

– Hər ikisi itirir. Və ümumiyyətlə, ədəbiyyat da itirir. Tənqidçi, ədəbiyyatşünas mətn müəllifini unutmalıdır. Ortada yalnızca əlahəzrət mətn qalmalıdır. Müəllif səndən ötrü məcazi mənada ölməlidi. Nəzərə almalısan ki, o mətn bitəndən sonra sənin mətnin başlayır. Yaxud o mətnin əvvəli sənin mətnin ola bilər. Mən hər zaman inanmışam ki, mənim yazdığım mətn haqqında bəhs etdiyim mətndən öncə gəlməliydi. Əslində, mən mətnlərim vasitəsiylə şairin, yazıçının taleyini oxumaq istəmişəm. Mətnin estetik tərəfləri, bədii xüsusiyyətləri arxa plana keçib. Mənimçün ədəbiyyat tarixində hadisəyə çevrilmiş əsərlə heç kimin diqqətini cəlb etməyən əsər də eyni cərgədə dayana bilər. Əsas olan mətn deyil, onu necə oxumaqdı. Bizdə, təəssüf ki, mətni oxuya bilmirlər. Mətnin görünən tərəfini oxumağa savad, görünməyən tərəfini oxumaq üçün isə fəhm, istedad, üçüncü göz lazımdı. Torpaq yazın gəlişini duyan kimi, qız oğlan baxışını kürəyində hiss edən kimi hiss etməlisən mətni. Mənim filoloji esselərim ədəbi mətnlərin üzərində təşəkkül tapır, yazıçıların, şairlərin taleyinin içərisindən keçir. Bu mənada, bəlkə də, Azərbaycan ədəbiyyat tarixində filoloji esseləri ilk olaraq mən yazmışam. Məndən əvvəl esse janrı geniş yayılmışdı, amma "filoloji esse" terminini ədəbiyyatşünaslığımıza mən gətirdim.

**– Elə isə sualımı bir az da konkretləşdirim, Rüstəm Kamalın esseləri yazıçı mətnləri ilə razılaşır, ya yazıçı mətnləri Rüstəm Kamalın esseləri ilə?**

– İnan səmimiyyətimə, mənim mövzularım da bədahətən gəlir beynimə. Əlimlə qoymuşam kimi tapıram mövzunun detallarını. Həyatda olan yazıçı, şairlərin özləri etiraf ediblər ki, sən bizim şüuraltı gizlinlərimizi, şifrələri açırsan. Mən obrazlı düşünən adamam. Heç təsadüfi deyil ki, ədəbiyyatşünaslığa təxəyyülün qrammatikasını da məhz mən gətirdim. Göstərmək istədim ki, ədəbiyyatşünaslıq da mükəmməl bədii yaradıcılıq növüdür. Mənim qəhrəmanım obrazlar, ideyalar, fikirlərdi. Bütün bunları şairanə təqdim eləmək mif və miflər yaratmaqla yekunlaşmalıdır. Əslində, mən mifoloqam. Hər bir yazıda ümumiləşdirmə olmalıdı. Bəzən məni bir obrazın üzərində dayanmaqda günahlandırırlar. Amma anlamırlar ki, sən bir zərrədə bütövlüyü göstərməlisən. Mənim qələmimə tuş gələn hər bir obrazın fokusunu böyüdürəm. Bir bulağın suyunu dəyərləndirmək üçün o

bulağın suyunu bütövlükdə içməyə ehtiyac yoxdu, bir bardaq su içməklə də buna nail olmaq olar. Zərrədə küllü, külldə də zərrəni göstərmək mənim esseistikamın əsasını təşkil edir.

**– Mirzə Cəlilə həsr etdiyiniz bir esse var, "Akuşkadan görünən dünya". Həmin essedə pəncərə simvolik mənada müəyyən çalarlarla göstərilir. Hətta pəncərə məfhumu başqa bir essenizdə, daha dəqiq desək, Xalq yazıçısı Anara həsr etdiyiniz "Anar fəzası" essenizdə də keçməkdədir. Mirzə Cəlillə Anarın ruh bağlılığını nəzərə alsaq, bu da təbiidi. Sualım keçmiş və bu günlə bağlıdı. Bilmək istərdim, Mirzə Cəlilin "akuşka"sından görünənlərlə çağdaş yazıçı pəncərəsi önündə yaşananlar arasında nə kimi oxşar və fərqliliklər var?**

– Bir az çətindi bu sualı cavablandırmaq. Gərəkdir ki, bu suala paradoksal da cavab verəsən. Mirzə Cəlilin "akuşka"dan baxmağını öz xatirələri, fikirləri ilə süsləmişəm. Mirzə Cəlil Azərbaycan ədəbiyyatının üç ən ağıllı yazıçısından biridi. Hər şeyin mahiyyətini bilən və özünü aldatmayan. Tarixin fərqli dönəmlərində yazıçılar oldu ki, özlərini aldatmaq istədilər. Yazıçılar oldu ki, toplumu aldatmaq istədilər. Yazıçının ən böyük günahı özünü və xalqı aldatmasıdı. Onun istedadının çox və az olması birinci, ikinci, üçüncü, dördüncü deyil, beşinci dərəcəli məsələdi. Bəlkə də, heç ədəbiyyatşünasın da söhbəti deyil. Elə yazıçılar var ki, onlar xalqı aldatdıqlarını ömürlərinin sonunda anladılar. Üzeyir bəy də, Mirzə Cəlil də nə xalqı, nə də özlərini aldatdı. Heç şöhrət də onları aldatmadı. Mən Üzeyir bəyi də, Mirzə Cəlili də ona görə fövqəladə sevirəm ki, onlar bu xalqı dəhşətli dərəcədə sevirdilər. Onlar kütlədən kənarda durmağı da bacardılar, xalqın içində olmağı da. Azərbaycan ədəbiyyatının XX əsrin əvvəlində mənzərəsi beləydi. Bir çox hallarda bu mənzərə çağdaş ədəbiyyatımızla eyniləşir. Hətta bir pəncərə məfhumu yazıçının özü də bilmədən xarakterini bütövlükdə aça bilir. Biz nəinki həyata, elə ədəbiyyata da pəncərədən baxmalıyıq. Fərqli görmək üçün ədəbiyyatla aramızda pəncərə olmalıdı. Ümumiyyətlə, insan pəncərədən hər şeyə tamamilə fərqli baxır, hər şeyi fərqli görür. Bir ağaca pəncərədən baxmaqla çöldən baxmaq arasında dağlar qədər fərq var. Yəni sən pəncərədən ağaca baxanda onu başqa bir dünyadakı ağac kimi görəcəksən. Məhz bu səbəbdən ədəbiyyatla bizim aramızda pəncərə olmalıdı. Həyatla ədəbiyyatın sərhədi pəncərə metaforasından keçir. Mirzə Cəlilin gözüylə çağdaş pəncərəmizdən baxanda çox şeylərin dəyişmədiyini görürsən. Daha Mirzə Cəlil olmaq da tələb edilmir çağdaş yazıçıdan. Mirzə Cəlil indi yaşasaydı, bəlkə də, müasir kontekstdə uduzardı. İndi bizdə həqiqət anlayışının mahiyyəti ya itib, ya da dəyişib. Yazıçı həqiqəti nədi? Ədəbiyyat hansı həqiqəti ifadə etməlidi? Bu kimi suallar öz dolğun cavabını tapmayıb. Misal üçün, klassik ədəbiyyata nəzər yetirsək, görərik ki, Nizami Gəncəvinin həqiqəti ayrı anlayış idi, Nəsimi üçün bu həqiqət bir başqa məna kəsb edirdi. Ancaq XXI əsrin virtual şəbəkədə olan yazıçısı üçün həqiqət anlayışı, bəlkə də, yoxdu, mövcud deyil. Həqiqət şahidi olduğun bir məişət hadisəsini sosial şəbəkədə paylaşıb insanların yazdığı rəyləri oxumaqdan ibarət deyil.

**– İndi gənc yazarlarımızın yaradıcılığında bir dekadentizm hökm sürməkdədi. Yeri gəlmişkən, böyük rus tənqidçisi Stasov Fransada yaranmış sözügedən cərəyan tərəfdarlarını fransız səmimiyyətinin müxalifləri kimi xarakterizə edirdi. Gənclər arasında hökm sürən bu dekadent əhvali-ruhiyyə ədəbiyyatımıza nə vəd edir?**

– Vallah, burada konkret bir hökm vermək mümkün deyil. Ümumiyyətlə, ədəbiyyata hökm vermək olmaz. Dekadent əhvali-ruhiyyə cəmiyyətdən də gələ bilər, zəmanənin diktəsi də ola bilər. Müxtəlif dövrlərdə, deyək ki, Birinci və İkinci Dünya müharibəsindən sonra Avropada ruh düşkünlüyü fərqli an-

lam kəsb edirdi. Pessimizm zəmanənin musiqisidir. Ruhun ətrafdakı hansı musiqini duyursa, sən o musiqiyə də köklənirsən. Misal üçün, Blok da bu ruha köklənmişdi. Bu ondan asılı deyil, sadəcə olaraq, Peterburqun havasında o musiqi çalınırdı. Həm də, bəlli ki, dekadentlik təkcə ədəbiyyata deyil, bütün sənət növlərinə sirayət edir. Mümkün deyil ki, şairdə olan hiss rəssamda, bəstəkarda olmasın. Bir Çin estetika traktatında belə bir fikir var: "Sular bulanıq olanda tısbağalar xırda olur, zəmanə qarışıq olanda musiqi cır olur". Şair, yazıçı havadan nəm çəkir. Eləcə də havadakı səs şairin, yazıçının ifadəsidir.

**– Videomüsahibələrinizin birində ədəbiyyat tarixini həm də oxucu tarixi kimi xarakterizə etmisiniz. Çağdaş ədəbiyyat tariximizi yazanlar öz oxucularını tarixə sala biləcəklərmi? Bu günün ədəbiyyat tarixi gələcək oxucu üçün nə dərəcədə maraq kəsb edəcək?**

– Ümumiyyətlə, bugünkü ədəbiyyatın əsas problemi elə oxucu problemidi. Bizim yazıçı öz oxucusunu görmək bir yana, təsəvvür belə etmir. Yazıçı oxucu ilə həmmüəllifdi. Dünyanın harasındasa bir oxucu tapılır ki, yazıçı ilə sinxron nəfəs alır. Yazıçı həmin oxucunu tanımır, amma əsərində verdiyi işarə və detallar doğmadı ona. Avropada roman bazar üçün yazılır, o mütləq satılmalıdı. Yəni romanı nəşriyyat bazara çıxarır, onun təbliğatıyla məşğul olur və sən kitabın satıldığı müddətdə reytinqlərdə zirvəyə ucalırsan. Orda roman artıq istehsalat hadisəsidi. Biz isə hələ ədəbiyyatı mənəviyyat hadisəsi hesab etməkdə qalmışıq. Oxucu istəyini aşkarlamaq üçün sosial sorğu yox, bazar yox, kitab alqı-satqısı, demək olar ki, yox... Yazıçı obrazının ilğıma çevrilməsi fonunda virtual müəlliflər meydana çıxır. İndi bəzi sosial şəbəkələrdə özünü reklamla məşğul olan müəllifləri görəndə mənə elə gəlir ki, onlar canlı deyillər, həyatda mövcud deyillər, sadəcə, vritual müəlliflərdi. Bircə il onlardan danışılmasa, olmamış kimi unudulacaqlar. Belələrinin əsərlərini üç-dörd cümləlik statuslar əvəz edir. Çoxusu da ürək sözünü "ürəh" və "ürəy" şəklində yazanlardı. Onların bəlli status oxucuları da elə ürək sözünü doğru-düzgün yaza bilməyənlərdi.

Hər bir yazıçının da oxucusu özünə bənzəyir. Misal üçün, Nizaminin oxucusu hökmdar, sovet yazıçısının oxucusu fəhlə kommunistlər, senzura da daxil olmaqla, partiya idisə, çağdaş yazıçının alıcısı ilğım-virtual oxucudu, ad var, özü yoxdu. İndi şeirlər də səslənmir. Çağdaş şeirlər ölü mətnlərdi. Onları gözünlə oxuyursan. Sosial şəbəkədə paylaşılan şeirin nə olduğunu müəyyən etməkdə çətinlik çəkirəm. Açığı, heç bilmirəm nədi. Çünki şeirin bir tərəfində hansısa müğənni haqqında informasiya gedir, o bir tərəfində də qadın zorakılığını ehtiva edən bir kriminal xəbər. İndi gəl bu kontekstdə ortada qalan şeiri oxu. Gəl şair ol. Şeir də özünə qohum kontekstdə getməlidi axı. Səfərbərlik fonunda səslənən vətənpərvər şeir, əlbəttə, hədəfə tuş gələcək. Biri də var, bu şeiri hansısa şou xəbərin əhatəsində dərc edəsən.

**– Aristotel "Poetika" əsərində Homerlə bağlı yazırdı: "Homer təkcə yaxşı şeir yazdığına görə yox, dramatik təsvirlər yaratdığına, laqqırtını deyil, gülməlini dramatik cəhətdən mənalandırdığına görə böyük şairdi. Məhz buna görədir ki, "İliada", "Odisseya" necə faciə ilə əlaqəlidirsə, "Margit"in də komediya ilə əlaqəsi elədir". Aristotelin təbirincə sadaladığımız xüsusiyyətlərə görə, böyük şair belə idi, bəs Rüstəm Kamala görə, böyük şair hansı özəlliklərə sahib olandı? Ümumiyyətlə, biz böyük şair kimə deyirik?**

– Roma imperiyası dönəmində yalnız böyük şairlər meydana çıxırdılar. Kiçik şairlərə meydanda yer yox idi. Yaxud ortabab şairsənsə, sənin meydanda nə işin var? Əslində, bizdə də belə olmalıdır. Üzü klassik dövrdən bu yana yalnız böyük şairlər yaşamaq hüququ qazanıblar. Bu, seleksiyafilan deyil e, sadəcə, Füzuli dönəmində görünmək üçün mütləq Füzuli olmalıydın.

Sənə başqa cür yer yox idi. Anlamalıydın ki, böyük şair olmaqdan başqa çıxış yolun yoxdur. Auditoriya da, oxucu da öz zəmanəsindən böyük şairini tələb etməlidi. Məhdud istedad sahibləri meydana çıxanda dəyərlər itir, gözdən düşür. Birincisi, indi şairin böyüklüyünü dəyərləndirmək, ölçmək üçün qarşılaşdığımız ən böyük problem meyarın olmamasıdı. Yəni Seyid Əzim Şirvaniyə Füzuli meyarı ilə yanaşırdın, onun böyüklüyü o şkala ilə ölçülürdü. İndi kimin meyarı ilə yanaşaq? Nizami, Füzuli meyarı ilə ölçmək mümkün deyil, çünki müasir şair həmin klassiklərin poetik sisteminə daxil deyil. İkincisi, o şair böyükdü ki, dilin fövqünə çıxa bilir, dili istismar etmir. Kim dili ram edə bilirsə, o, böyükdü. Bizdə Azərbaycan dilinin melodikliyini, gözəlliyini, frazeoloji zənginliyini istismar edən çoxlu ortabab və balaca şairlər var. Təbiətə və ətraf mühitə qarşı yönəlmiş ekoloji terror kimi bir şeydi poetik dilin terroru. Füzulinin böyüklüyü türkcənin fövqündə olması idi. Səməd Vurğun da dilin fövqünə çıxmağı bacardı, Məmməd Araz da. Yeri gəlmişkən, mənim sevdiyim ən sonuncu böyük şair elə Məmməd Arazdı. Məmməd Araz həm də ona görə böyük şairdi ki, onu yamsılamaq, təqlid eləmək mümkün deyil.

Bu mənada ədəbiyyat tarixində elə şairlər var ki, onlardan yan keçməlisən, istedadın olsa belə, ona bənzəmək, təqlid eləmək istəsən, məhv olacaqsan. Sevdiyin şairin priyomlarını bilməlisən, ancaq "xata-bəlası"nı özündən uzaq eləməlisən.

**– Sizinlə 60 yaşınızın tamamında görüşürük. 60 yaşlı Rüstəm Kamal geridə qoyduğu ömrünü esseləşdirsəydi, nələri yazardı?**

– Mən heç vaxt inanmadığım şeyləri yazmadım. Bir aşıq dastanda cərəyan edən hadisələrə, qəhrəmanlara inanmırsa, həqiqət kimi qəbul etmirsə, o dastanı danışa bilməz. "Əsli və Kərəm"i danışan aşıq mütləq aşiqlərin od tutub yanmasına inanmalıdır. Yazıçı, alim də belə olmalıdır. Ədəbiyyatı da, yaradıcılığı da, lap elə həyatı da gözəlliklə süsləyən sevgidir. Gərəkdir qəhrəmanlarını, haqqında yazdıqlarını, insanları sevəsən. Başqalarını bilmirəm, mən heç vaxt sevə bilmədiklərim haqqında bir cümlə də yaza bilməmişəm. Yazmağa cəhd eləsəm də, zəif bir nəsnə çıxıb ortaya. Sevəndə bəsirət gözün də açılır, əvvəllər fərqinə varmadığın, görmədiyin işarələrlə mükafatlanırsan. Bu dəqiqə mənim qeyd dəftərim elmi məqalə, pritça, hekayə, esse mövzuları ilə doludur. Yazmağa başlamağım üçün mövzunu görüb inanmağım kifayətdir. Qalanı asandı. Yazandan sonra görürəm ki, mənim yazdıqlarıma inananlar da az deyilmiş. Mövzularımın üzərinə hədəfə istiqamətlənmiş mərmi misalı şığıyıram. Yazılarımı kağız parçalarına, belə demək mümkünsə, fotoneqativ effekti ilə yazıram. Anna Axmatova deyirdi ki, şeir çör-çöpdən yaranır, bax eynən elə. Sonra həmin yazıları – kağız parçalarını ipdən bir neçə gün asıram. İki-üç gün sonra o yazıların rəngi, mənası, yeri dəyişir. Nəhayət, kiçik qeydləri bir yerə toplayıb yazıya çevirirəm. Mənim esselərim fraqment təfəkkürünün məhsuludur. Yenə deyirəm, mifləri sevirəm, çünki mif yaradıram. Mənimçün həm də mif olanlar sevimlidir. Bu mənada Bakı da, Şuşa da, Mirzə Fətəli Axundov da, Mirzə Cəlil də mifdi mənimçün. Mən hamının gördüklərini mifoloji struktura daxil edirəm. Əslində, yazıçı da, lap elə insan da mif daşıyıcısıdır. Yazıçının, alimin, gərəkdir ki, mifoloji təfəkkürü olsun. Bütün əsərlər də hansısa mifoloji model üzərində qurulur.

Müəllimim həmişə deyirdi ki, iki hissi itirmə, ölçü və ləyaqət hissini. Bunları itirməsən, həyatın harmoniyalı, düzənli olacaq. Hər zaman çalışmışam ki, ölçü hissini itirməyim, paralel olaraq öz yerimi bilim. Yaradıcılıq da ömür kimi növbəti ünvanı bilinməyən bir yoldur. Mən həyatımın bir dönəmində on ilə yaxın, demək olar ki, heç nə yazmamışam, susmuşam. Bu zaman kəsiyində hara getmək istədiyimi aydınlaşdırmaq istəyirdim özümçün. Dediyim odur ki, arada susmaq da lazımdı.

Çox yazmışam, Taleh, amma ömrüm boyu bir kitaba sığışmaq arzusunda olmuşam. İstəmişəm ki, o kitab ürəyin müdrikliyinin ifadəsi olsun. Bunu ürəkdən arzu edəndə Allah da bu şansı sənə verir. Bəlkə də, yazıçının, alimin Allah dərgahına özüylə apara biləcəyi ləyaqəti də bundan ibarətdi. İndiyəcən yazdığım elmi məqalələri, esseləri və pritçaları ard-arda düzsən, görərsən ki, nə yazmışamsa, hamısı bir-birinin davamıdı. Hamıya elə gəlir ki, bülbül həmişə bir nəğməni oxuyur. Ancaq elə deyil. Deyirlər, bülbülün səsini lentə yazıblar, araşdıranda məlum olub ki, onun təkrarlanan nəğməsi yoxdu. Mən də özümə, bülbül nəğməsi misalı, təkrarsız yaşamağı və yazmağı arzulamışam.

*Söhbətləşdi:*
**Taleh MANSUR**



NƏSR

# BİR KƏLMƏ SÖZ



**İlhamə NASİR**

Həmişə etdiyi günahlara görə onu bağışlamışdı. Bağışlamağı qalsın bir qırağa, ona o qədər inanırdı ki, gördüklərinə görə öz gözlərini, eşitdiklərinə görə isə qulaqlarını qınayardı. Bütün günahı da özündə axtarardı günahsız olduğunu bilə-bilə. Çətini bir dəfə Oqtayın onu qucaqlayıb qulağına "sən mənim hər şeyimsən" deməyiydi. Qollarının arasındaca şam kimi əriyib axardı. Oqtay onun zəif damarını çoxdan tutmuşdu, bilirdi işini. Bilirdi ki, Dilbər çox safdır, onun hər kəlməsinə inanandır. Nə hoqqadan çıxsa da, bağışlanacağına arxayın idi. Amma bu dəfə etdiyi özünə görə nə günah idi, nə də hoqqa. Heç bağışlanmasının da marağında deyildi. Evli olduğunu da unutmuşdu. Demək olar ki, Dilbər onun gözündə tamamən görünməz olmuşdu. Gecələr evə gəlməməyi, evdə olarkən də onun yanında telefonla danışıqları, soyuq rəftarı normal gəlirdi özünə.

Elə bil bir vaxtlar Dilbərdən başqa heç kimi görməyən gözlər indi onun deyildi. Dilbər isə... Elə əvvəlki sevgisiylə onu sevirdi. Düzdür, inciyirdi, küsürdü, əsəbiləşirdi, öfkəsi içini söküb dağıdırdı, amma ondan ayrılmağını qəti ağlına gətirə bilmirdi. Elə bilirdi həyatı Oqtayın üzərində qurulub, ayrılsa, bu onun sonu olacaq. İlahi, insan öz qanından, öz canından olmayan birini necə bu qədər sevə bilər, necə ona bu qədər bağlana bilər axı?!

Bəs Oqtayı ondan uzaqlaşdıran nə idi? Həmin cazibəsi, həmin mülayim xasiyyəti, həmin sevgisi, həmin saflığı... axı hər şey yerində idi? Tapa bilmirdi səbəbi Dilbər. Bilsəydi, o saat dəyişdirərdi özünü, tam Oqtayın istədiyi kimi. Axı kimdir ondan daha üstün olan? Cazibəsini bir az da artırdı: donlarını azacıq qısaltdı, saçını kəsdirdi, boyadı, evin içində belə makiyajla gəzdi, hətta diqqət cəlb etməkdən ötrü telefonu dəqiqələrlə qulağına tutub kiminləsə danışırmış kimi özünü şübhəli apardı... Ərindən heç bir reaksiya görmədikdə son varianta əl atdı – özünü xəstəliyə vurdu. Bir neçə dəfə tappıltıyla yerə sərildi, guya başı gicəllənib yıxıldı. Nə isə... qadınlığın bütün hiylələrinə əl atsa da, heç bir köməyi olmadı, əksinə, özü öz gözündən düşdü. Yoruldu, çarəsizliyinə təslim oldu. Bir həftədir güldanda qalıb ətrini itirmiş, solmaqda olan çiçəklərə bənzətdi özünü. Nə vaxtsa o çiçəklər kimi atılacağından qorxdu.

Hardan ağlına gələrdi ki, nə vaxtsa xoşbəxtliyi ondan üz döndərəcək, sevib-sevildiyi, inandığı adam belə soyuqlaşacaq, ürəyi bu qədər daşa dönəcək. Vaxtıyla bircə kövrəlməsiylə ipəyə dönən ürəyə indi yalvarışlı baxışları, haldan-hala düşmələri belə təsir etməyəcək. Hardan bilərdi axı? Bəlkə, bilsəydi, bu qədər sevməzdi, bu qədər bağlanmazdı. Amma birtərəfli sevgi olmamışdı onlarınkı. Oqtay da onu sevmişdi,

həm də lap çox. İllərlə ilan kimi arxasınca sürünəndən sonra qazanmışdı Dilbərin sevgisini. Bir tədbirdə görmüşdü onu. Fərqli universitetlərdə oxusalar da, Oqtayın günü Dilbərin oxuduğu universitetdə keçirdi. Universitetdə hər kəs tanıyırdı onu, demək olar ki. Özünü Dilbərə sevdirməkdən ötrü dəridən-qabıqdan çıxardı. Qız onu qapıdan qovanda bacadan girərdi, bacadan qovanda qapıdan girərdi. Beləcə Dilbərin sevgisini qazana bilmişdi sonda. Həm də ilk sevgisini. Universiteti bitirməsini də gözləməmişdi. Axırıncı kursda evlənmişdi onunla.

Ən gərgin iş vaxtında belə bir dəqiqəlik də olsa, zəng edib Dilbərin səsini eşidərdi. Dilbərin ona dediyi bir kəlmə sözü vardı ki, onu eşitməkdən yorulmazdı, əksinə, canına bir rahatlıq çökərdi eşidəndə. Bəzən yataqda qulağına pıçıldayardı, bəzən yanından ötüb keçəndə astadan mızıldanardı, bəzən də göz-gözə gələndə sakitcə üzünə deyərdi. Oqtay da hər dəfə “sənin bu sirli-sehrli sözün məni yaralayır, canımı alır. Fələyin gücü çatmaz mənə nəsə etməyə, nə edəcəksə, sənin bu bir kəlmə sözün edəcək” deyərdi. Oqtayın zarafatla dediyi bu sözə Dilbər özü də inanmışdı.

Bəs nə oldu? Kim aldı o sevgini onlardan? O sirli-sehrli sözü indi kim təsirsiz etdi? İndi niyə yaralamır o bir kəlmə söz Oqtayı?

Bir gecə Oqtay telefonla danışarkən Dilbər otağın qapısını qəfil açıb içəri girdi. Keçib qarşısında dayanıb qəzəb dolu baxışlarını onun gözlərinə tuşladı. Oqtay özü də mat-məəttəl qaldı. Bəlkə də, bunu heç vaxt gözləmirdi ondan. Telefonun o başında dayanmadan nəsə deyib gülən qadının səsini eşitdikcə əsəb Dilbərin beynindən axıb ovcuna doldu sanki. “Bəsdir, sənin qadının mənəm, əl çək o fahişədən!” bağırıb, yumruqlarını Oqtayın sinəsinə çırpdı. Bu vaxt bilmədi araya sakitlik çökdü, yoxsa qulaqları eşitməz oldu. Sağ əli ixtiyarsız gizildəyən sifətini örtdü. “Heç olmasa qürurun olsun!” Bu söz uğultuyla qulaqlarına doldu, keyiyib qaldı. Qapının çırpılmasına diksindi. Sifəti göynəməyə başladı. O sözlərdənmi, yoxsa şillədənmi? “Qürurun olsun!” “Bəli, qürurum olsaydı, sənin yanında bu cür sevgi dilənçisi olmazdım, alçaq!” – ağladı. Əslində, özü də qürursuzluğunun fərqindəydi, amma bilə bilmirdi bu onun xarakterində sonradan yaranmışdı, yoxsa elə anadan bu cür doğulmuşdu.

Keçib güzgünün qarşısında dayanıb diqqətlə özünə baxdı. Sevgisini nifrətə çöndərəcəyinə söz verdi. Daha heç nəyi vecinə olmayacaq, yeməyinə-içməyinə fikir verəcək, bir də ağlamayacaq, hətta onu bir ər kimi saymayacağına da söz verdi. Dərindən nəfəs alıb gülümsədi. Güzgüdə elə qəribə görsəndi ki, az qala tanımadı özünü. “Sən bu qədərmi qətiyyətlisən?!” – içindən kimsə pıçıldadı. Bu vaxt qapının kilidinin səsi onu necə ürkütdüsə, cəld çarpayının üstünə atılıb, özünü yuxuluğa vurdu. Bir anda ona elə gəldi ki, güzgüdə çaş-baş qalmış əksi arxasınca şaqqanaq çəkib güldü. Utandı, yastığı üzünə sıxdı. İstədi durub güzgüyə desin ki, məni qınama, bunu mənə məcbur edən içimdəki o boğa bilmədiyim, öldürə bilmədiyim “o gələcək, utana-utana əlini uzadıb başımı sığallayacaq, kövrək səslə “məni bağışla” deyəcək" ümidimdi. Hə, vallah, bir “bağışla” sözü hər şeyi həll edəcəkdi. Axı bu söz niyə belə əlçatmaz oldu ki? Bircə kəlmə “bağışla” desəydi, guya Dilbər onu bağışlamayacaqdı ki? Bir az kövrələcəkdi, ağlayacaqdı, sonra gözlərini silib xəfifcə üzünə gülümsəyəcəkdi. Sonra da heç nə olmamış kimi “çay içirsən?” soruşub mətbəxə keçəcəkdi. İçindəki bütün sıxıntılar bir andaca sovrulub yox olacaqdı.

Amma o, yataq otağının qapısını da unutmuşdu, Dilbəri unutduğu kimi. Hər dəfə divarın o tayında uca səslə danışıb-güldükcə bu tayda ovuclarında üzünə sıxılmış yastığının bir küncü islanırdı Dilbərin. Sağollaşmalarından sonra qəribə bir rahatlıq çökürdü içinə. Elə bil həzin bir meh içindən əsib hər şeyi soyudurdu, olanlar o dəqiqə unudulurdu, ürəyi yumşalırdı. Üzünə yetim bir təbəssüm qonurdu. Çox vaxt bu, səhərə yaxın olurdu. Səhər açılan kimi içindəki ümid ondan tez oyanırdı. Görünür, ona olan

sevgisi yorğun mənliyini, ölmüş qürurunu tapdalayıb keçə bilirdi hər dəfə. Dəfələrlə sevgisini işgəncə ilə öldürməyə çalışsa da, onu əsəbinin dar ağacından assa da, gecələri göz yaşında boğsa da, hətta kəfənini də biçib hazırlasa da, hər dəfə necəsə xilas ola bilmişdi o sevgi. Bu qədər əzaba dözüb ölməyən sevgi... Sevgisiylə gerçəkliklər arasında əriyirdi Dilbər. Naməlum duyğular içini qovururdu.

Oqtayla danışmasa da, onun paltarlarını yuyub-ütüləyər, səliqəyə salardı, yeməyini hazır edərdi. Elə bil bu onda bir adət halını almışdı. Arada ona dəyən şilləni, o sözləri, küsülülüyünü yadından çıxardıb köynəyini ütüləyərkən burnuna sıxıb dərindən qoxlayırdı.

Bir gün gecə saat 4-ü keçsə də, Oqtay hələ gəlməmişdi evə. Yuxusu çəkilmişdi Dilbərin, həm də başını qatacaq nə isə tapa bilmirdi evdə. Hər şey onun üçün marağını itirmişdi. Onsuz da son vaxtlar zövqsüz bir həyatın monoton günlərini yaşayırdı. Otağın işığını söndürüb pəncərədən çölə baxırdı, kimisə gözləyənlər kimi. Bu vaxt ev telefonuna zəng gəldi. Anidən o olduğu ağlına gəldi. Bir dəfə onunla barışmaq üçün belə etmişdi Oqtay. Gecə yarıya qədər kafedə oturub içmişdi, sonra zəng edib “Sənsiz bacarmıram, məni bağışla, səni çox sevirəm” – demişdi. Və o sözləri evə çatanda qapının arxasından zəng edib demişdi. Bilirdi Dilbər o sözlərin qarşısında acizdir. Bilirdi içinə yığdığı bir neçə günün dağ boyda həsrəti elə həmin an da əriyib yox olacaqdı.

Budəfəki zəng də içindəki sıxıntının zəncirlərini doğrayıb tökdü yerə bir andaca. Neçə vaxdır ki, qırıq-qırıq aldığı nəfəs indi geninə-boluna doldu ciyərinə. Zindanda ölüm cəzasını gözləyən birinin qəfil azadlıq xəbəri alması təsiri yarandı onda. Yumulmuş əllərinin arxasını gözlərinə sıxıb ağlayacaq qədər uşaqlaşdı. Tez qaçıb dəstəyi götürdü. Yenidən həmin sözləri eşidəcəyinə dözməyən göz yaşlarını tutub saxlaya bilmədi. Kövrək səslə:

– Alo

– Oqtay gəldi evə? – qadın səsiydi.

– Nə?.. Yox, – sözlər kilidləndi boğazında.

– Gələndə onun köynəyinin varatnikini yaxşı-yaxşı yu, təmizlə (ucadan gülüb otboy verdi).

Dəstək elə qulağına sıxılı qalmışdı. Ya yerinə qoymağı unutmuşdu, ya da qoyacağı yeri itirmişdi. Fikirləri düyün düşdü beynində sanki. Nə illah elədi, o düyünləri çözə bilmədi. İçində baş qaldıran fırtınada gəmiləri bir-bir batmağa başladı. Bayaqdan tuta bilmədiyi göz yaşları da elə bil çəkilib gözlərinin dərinliklərində gizləndi. Heykəl kimi tərpənməz qaldı. Bir az keçmişdi, Oqtayın bir qaraltı kimi dəhlizdən otağa keçdiyini hiss elədi. Qapını nə vaxt açıb evə girdiyindən xəbəri olmamışdı. Heç özünün də onun qarşısına keçib dimdik durmağından xəbəri olmadı. Gözləri ilk baxışda ərinin köynəyinin yaxalığındakı qırmızı pomada ləkəsinə tuşlandı. Özündən ixtiyarsız “mən boşanmaq istəyirəm” dedi. Bu söz özünü urkütdü. “Boşanmaq, ondan ayrılmaq, ona bir daha sahib olmamaq... İlahi, mən neylədim? Necə yəni boşanmaq? İndiyə qədər susmuşdumsa, indi niyə susa bilmədim? O zəngə qədər olanlar mənə bəlli deyildimi?” Bəlkə də, ipin lap nazilən yerində yenə susmalıydı. Dediyinə peşman oldu. Oqtay elə bil bu sözə bənd imiş kimi “yaxşı, necə istəyirsən” deyib hamama girdi.

Divarlar dilləndi sanki: "al, bu da sənə susmamağının haqqı".

Məhkəmənin qoyduğu tarix gəlib çatdı. İçində ona olan bütün duyğularını öldürməkdən başqa çarəsi qalmamışdı Dilbərin. Oqtaysızlığa hazırlayırdı özünü. Daha təmkinli olacaqdı. Yalvarsa belə, onu bağışlamayacaqdı. Onu bağışlayarsa, o zaman özünü bağışlamayacaqdı.

Məhkəmədə ilk sual Dilbərə verildi. “Siz boşanmaya razısınızmı?” İlahi, boşanmaya, yəni hər şeyin bitməsinə razı olduğumumu soruşdu məndən? Dili ondan icazəsiz “yox” dedi, ona düşünməyə belə macal vermədi. Yenə lənətə gəlmiş, bu nədir axı?

Oqtay hakimin ona verəcəyi sualı gözləmədən tez ayağa qalxıb “Bəli, mən razıyam” dedi. Hakim vaxt vermək istəsə də, o bunu qəbul etmədi.

Beləcə onlar boşandı, həm də çox asan, evlənməklərindən də asan. Elə məhkəmə zalındaca özüylə daşıdıqları töküldü yerə – istək, sevgi, ümid, şiddət, savaş, nifrət,.. İçində böyük bir boşluq yarandı.

Oqtay elə məhkəmə zalındaca zəng edib qadına “boşandım, məni təbrik elə!” – dedi. Həm də Dilbərin qulağı eşidə-eşidə. Hətta Dilbər qadının ucadan gülərək sevinməsini və onu təbrik etməsini də eşitdi. Məhkəmə zalından çıxanda qapıda bir anlıq göz-gözə gəldilər. Dilinin, ürəyinin, ümidinin, sevgisinin yanında pərt olan Dilbər özündən ixtiyarsız astadan:

– Səni məhv edəcəyəm!

– Nə? Necə? Bir də de, eşitmədim – əlini qulağına apararaq güldü.

– Bir kəlmə sözümlə... Çaşdı, dodaqlarını dişi ilə sıxıb dayandı. Dediyi söz ağzından ondan ixtiyarsız, pıçıltıyla çıxsa da, Oqtay eşitdi.

– De vallah?! Hansı sözünlə? – gülə-gülə qapıdan çıxdı.

"İlahi, heç olmasa son anda məni bu qədər alçaltmazdın! Düz deyir, hansı sözümlə? Pərt olduğundan çox, gülünc bir vəziyyətə düşdüyünə görə özü özündən iyrəndi".

Xeyli müddət keçmişdi. Yavaş-yavaş Oqtaysızlığa öyrəşdirirdi özünü. İşə düzəlmişdi. Yeni həyata başqa biri kimi başlayacağına çalışırdı. Bir gün işdə təzəcə tanış olub, rəfiqəlik etdiyi Günel onu ad gününə dəvət etdi. Bir dəstə gül alıb onlara getdi. Evdə Güneldən başqa bir neçə qonaq da vardı. Yenicə süfrə başına oturmuşdular ki, qapının zəngi çalındı. Günel gedib qapını açanda qapının ağzından gələn təbrik səsləri Dilbərin bütün varlığını titrətdi. Elə bil bədəninin hər bir nöqtəsi bu səsə baş qaldırdı. İçində çaxnaşma düşdü. Ürəyi elə bil ondan qopub hardasa gizli bir yerdə döyünməyə başladı. Bilmədi ayağa qalxsın, yoxsa otursun. Əvvəl donub qaldı, sonra qarışıq-dolaşıq fikirlər bir andaca beynini zəbt etdi. Oqtayın burada nə işi ola bilər axı? Bəlkə... Amma yox... Axı Günel haradan bilə bilər ki, o, mənim ərim olub. Mən ki ona bu barədə heç nə deməmişəm.

Əvvəl qapıdan içəri kölgəsi düşdü, amma kölgə tək deyildi. İçəri girən kimi gülən sifəti payız havası kimi qəfil dəyişdi. Çaşbaş qaldığını büruzə verdi o dəqiqə. Yanındakı qadının əlini buraxıb, stulu çəkib oturdu. Qadın da Dilbəri görən kimi duruxdu. Diqqətlə Oqtayın üzünə baxıb bir söz demədən oturdu. Yəqin ki, o da Dilbər kimi alaşıq-dolaşıq fikirlərə ilişib qalmışdı. Rəng verib, rəng alırdı. Bəlkə də, onunku çaşqınlıqdan deyil, əsəbdəniydi. Hiss olunurdu ki, içində doğub çoxalan suallar gözlərindən güllə kimi çıxıb Oqtayın sifətinə dəyərək yerə tökülürdü. Oqtay isə başını aşağı salıb sakitcə oturmuşdu. Qadın stulunu bir az da yaxına çəkib ona daha sıx oturdu. Deyəsən, özü də bilmədən elə elədi. Keyiyib qalan Dilbər özünü mütləq ələ almalıydı. Onlarla bir süfrədə oturmaq ağır gəlsə də, özünü o yerə qoymamalıydı. Çünki Günellə rəfiqə olmağa başlasalar da, həyatında baş verənləri bildirməmişdi ona. Ümumiyyətlə, şəxsi həyatını kimlərləsə bölüşməyi sevmirdi. Günelin qadınla rəftarından başa düdü ki, onlar köhnə tanışdırlar. Dilbər Günelə kömək etmək bəhanəsiylə durub mətbəxə keçdi. Amma əllərinin əsdiyindən bir stəkana belə toxuna bilmədi. Mətbəxdəki kiçik divanda oturub bir az özünə gəlməyini gözlədi. Günel masaya əlavə boşqab apararkən ona tərəf çöndü.

– Niyə gəldin, keç otur içəridə, – deyib əlindəki boşqablara nəzər sala-sala otağa keçdi.

– Eybi yox, bir azdan keçərəm, – arxasınca mızıldandı.

Sakitləşməyə çalışırdı ki, Oqtayın qonaqlar olan otağın açıq qalmış şüşə qapısına düşən əksi onu özündən aldı. Diqqətlə ona baxdı; həmin sifət – azacıq tüklü, həmin saç stili – alnına tökülü, həmin baxışlar – qaşının biri azacıq yuxarı qaldırılmış.... Hər

şey həmin idi. Bir yasaq istək baş qaldırdı içində, gözləri ixtiyarsız gülümsədi. Elə bil saçları ondan icazəsiz qollarını açdı Oqtayın şüşədə görsənən əllərinə tərəf, dili itirdiyi kəlmələri tapıb-toplayıb nəsə demək istədi. Başını silkələyib özünü ələ almağa çalışdı. Olanları yadına salıb onu öldürmək istədi içində. Amma bacarmadı. Gözləriylə onun şüşədəki əksinə "Kaş ki birdəfəlik silinəydin yaddaşımdan, kaş ki birdəfəlik gedəydin məndən, həm də iz buraxmadan. Amma sən məndən getməyi bacarmadın, sən tərk etməyi belə bilmədin. Hələ də varlığım sən qoxuyur, alçaq!" – dedi. Baxışlarını ondan çəkə bilmirdi. Bir anlıq gizli varlıq olub Oqtayın ürəyinə girmək istədi, görsün orda onun qırıqlarından qalıbmı? Düşüncələrinə girib baxmaq istədi, görsün hələ də orda ona aid nəsə varmı?

Günelin əlindən yerə düşüb çiliklənən stəkanın səsinə ayıldı, ondan ayrılıb getmiş "özü"nü özünə qaytardı. Günel qonaqlara çay süzmək istəyəndə cəld onun əlindən alıb "xahiş edirəm, ver mən süzüm" – dedi. Çayları süzdü, Oqtayın çayını onun istədiyi kimi süzdü – kəmrəng və stəkan axıra qədər dolu. Oqtay həmişə deyərdi ki, çayın rəngini az elə, onsuz da çaya rəngi, dadı sənin barmaqların verir, stəkanı da axıra qədər doldur ki, doya bilim.

Güneldən də xahiş etdi ki, bu stəkanı Oqtayın qarşısına qoysun. O da sağ olsun, bir şey soruşmadan Dilbərin dediyi kimi elədi.

"Ümid" burda da gəlib Dilbəri tapdı; bəlkə, Oqtay çayının fərqli olduğunu görüncə... Yanındakı qadına "sən mənim ailəmi dağıtdın" deyib bağıracaq... və sonra... sonra gəlib qolundan tutub "gəl evimizə gedək" deyib onu məcburi çəkib aparacaq...

Olacaqmış kimi o qədər xəyal qurdu ki... Və qurduğu xəyallara aldanıb xoşbəxt olmaq istərkən qadının otaqdan gələn çılğın gülüşü qəfil o xəyalları ürküdüb pərən-pərən saldı və yenidən yerinə acı gerçəklik və çarəsizlik doldu.

Onlar çaylarını içdikdən sonra durub getdilər. Elə bil kimsə Dilbərin əlindən tutub pəncərəyə tərəf apardı. Pəncərədən, pərdənin arxasından onlara baxdı. Qadın maşında qabaqda – onun yerində oturdu. Qəhər boğmuşdu onu, amma büruzə vermək istəmədi. Gözdən itincə maşının arxasınca baxdı. "Bəlkə o, gətirilən çayın başqa çaylardan fərqli olduğunu, yəni onun sevdiyi kimi olduğunu görüncə təsirləndi deyə, tez durub getdi? Bəlkə, barmaqlarımın rəngini, dadını yenidən çayında hiss elədi? Bəlkə, peşmandır, əməllərindən utandı? Bəlkə, o qadını elə bu gün rədd edib yenidən mənə qayıdacaq? Bəlkə, sirli-sehrli kəlməmi yenə eşitmək istəyəcək məndən? Bəlkə..." düşündü, daha doğrusu, heç nə düşünə bilmədi... İçindəki ümid o qədər şişib böyüdü ki, hər şey altında qalıb əzildi; mənlik, qürur, bütün yaşananlar... Özündən ixtiyarsız Oqtayın nömrəsini yığdı. Əlləri əsdi, ürəyinin çırpıntısı az qala qulaqlarını batıracaqdı. Elə ilk çağırışa cavab verdi.

– Bəli.

Bir anlıq susdu. Nə deyəcəyini bilmədi. Sonra udquna-udquna:

– İçdiyin çayda bir dad hiss etdin? – Gözlərini yumub istədiyi cavabı gözlədi və sehrli kəlməsini dilinin ucunda hazır saxladı

– Nə?

– Mən... – otboy oldu.

Sözü ağzında yarımçıq qaldı. Pərt oldu, özünə hələ bu cür nifrət etməmişdi. "Qürurun olsun!" Ona elə gəldi ki, otboy səsindən tutmuş, gözünə görsənən evin bütün əşyalarınacan hər şey bağıraraq bu sözü dedi. Bəlkə, Günel gəlməsəydi, ikiəlli öz başına bir qapaz da vurardı. İnsan da bu qədər özünü ucuzlaşdırarmı? İmkanı olsaydı, özü öz üzünə tüpürərdi. Günel gəlib, yanında dayanıb pəncərədən baxdı. Dilbər ağlamamaq üçün özünü güclə saxlayırdı. Oqtayın ondan bu qədər uzaqlaşmağını, hətta onu qorxunc bir qadın bilib ehtiyat edəcəyini heç vaxt ağlının ucundan belə keçirməzdi. Özünü inandıra bilmirdi ki, Oqtay oradan, sadəcə, onu görməmək üçün çıxıb getdi.

Günel pəncərədən baxa-baxa:

– Bilirsən onlar kim idi?

– Yox... – “yox”u güclə deyə bildi.

– O qadın mənim keçmiş iş yoldaşımdır. O günü yolda görüşdük, dedi, ad günün yadımdan çıxmayıb, mütləq gələcəm. Biz əvvəl onunla yaxın rəfiqə olmuşuq, amma sonralar etdiyi hərəkətlər onu gözümdən saldı. Bax o yanındakı oğlan var haa, o, sevgilisidir, əslində, əri var onun. Amma əri çox vaxt işinə görə orda-burda olur deyə, yazığın heç nədən xəbəri olmur.

Günelin “ər” dediyi bir andaca Dilbərin gözünün qabağında canlandı. Çox yazığı gəldi ona. Özünə oxşatdı; yazıq, qürursuz, ucuz... Astadan “Allah bəlanızı versin“ dedi. İlk dəfə idi bəd dua edirdi. İndiyə qədər ondan nə qədər acı çəksə də, ona heç vaxt qarğış etməmişdi. Bunu da o bədbəxt “ər”ə görə etdi. O ərdə özünü görürdü çünki.

Məclis qurtardı, Dilbər də durub evə gəldi. Gecə saat bir-iki arasıydı. Yatağında olsa da, yata bilmirdi. Elə hey fikirləşirdi, kaş ki ora getməyəydi, onları görməyəydi. Elə bu vaxt telefonuna zəng gəldi.

– Salam, xanım! – kişi səsiydi.

– Salam!

– Bu nömrəyə axırıncı dəfə sizdən zəng gəlib, – Oqtayın nömrəsini dedi.

– Bə-li, – çaşqınlıqla dedi.

– Siz onun nəyisiniz?

– Yoldaşı... Yox, yox.... mən onun nəyiyəm? Bilmirəm.

– Bilirsiniz, o, qəzaya düşüb, Semaşko xəstəxanasına gətiriblər. Sizinlə danışan reanimasiya şöbəsinin növbətçı həkimidir.

Beyni dondu bir andaca. Həkimin axırıncı dediyi sözlər uzaqdan gələn bir cızıltıya döndü qulaqlarında. Keyiyib qalmışdı. Nə illah edirdisə, ayıla bilmirdi. Handan-hana özünü ələ alaraq əynini geyinib evdən çıxdı. Başını itirmişdi, küçənin ortası ilə hara getdiyini bilmirdi. Maşınların siqnal səsləri, sürücülərin atmacaları onu yavaş-yavaş ayıldırdı. Yanında gəlib dayanan taksi sürücüsünə güclə xəstəxananın adını yadına salıb deyə bildi.

Xəstəxananın həyətinə girəndə gələn hönkürtü səsinə tükləri ürpəşdi. Kişi səsiydi. Ayaqları güclə gedirdi Dilbərin. Divardan tuta-tuta içəri keçdi. Dəhlizdə bir nəfər xərəkdəki üzüörtülü, ancaq saçları görsənən birini qucaqlayıb hönkürtüylə ağlayırdı. Yanından keçəndə nə edəcəyini, nə soruşacağını bilmədi. Özündən asılı olmayaraq “Oqtay” deyib qışqırdı. Səsinə çıxan tibb bacıları onu sakitləşdirərək həkimin otağına apardılar. “Oqtay hardadır, nə olub ona?” deyib həkimə tərəf getdi.

Həkim ayağa qalxıb:

– Qorxmayın, o, ölüm təhlükəsini adladı. Amma...

– Amma nə? – bütün varlığıyla həkimin dodaqlarından çıxacaq sözə köklənmişdi.

– Amma çox təəssüf, ayaqlarının ikisini də itirdi. Əməliyyat elə indi qurtardı.

– Bəs qadın? – onu niyə soruşduğunu özü də anlaya bilmədi.

– Qadın elə hadisə yerindəcə keçinib, çox təəssüf...

Deməli, dəhlizdə xərəkdəki həmin o qadın imiş, onu ağlayan da “yazıq ər”.

– ...(susdu)

– Siz onun nəyisiniz? (yenə soruşdu)

– Mən... Oqtayın...

– Bilirsiniz, Oqtayı gətirəndə huşu başındaydı, danışırdı. Dediyi ancaq bu idi ki, çayına zəhər qatıblar. Özünü tez xəstəxanaya çatdırmaq istəyirmiş.

Həkimdən nə qədər xahiş etdisə, yalvardısa, onu içəri – Oqtayın yanına buraxmadılar. Damarından Oqtayın damarına köçürüləcək qanına təkrar-təkrar pıçıldayırdı: Heç də hər şey sən düşündüyün kimi deyildi, mən, sadəcə, telefonda sənə bir kəlmə sözümü deyəcəkdim... bir kəlmə söz...

*"Ulduz" jurnalı ilə "525-ci qəzet"in birgə layihəsi*

GƏNC YAZARLAR ÜÇÜN
NƏZƏRİYYƏ DƏRSİ



professor **Məti OSMANOĞLU**

# Bioqrafik məktəb

Ədəbiyyatşünaslqda bioqrafik məktəb fransız yazıçısı və tənqidçisi Şarl Şent-Bövün (1804-1869) adı ilə bağlıdır.

Sent-Böv XIX əsr fransız ədəbiyyatında nəzəriyyəçi kimi deyil, daha çox tənqidçi kimi tanınırdı. "Tənqidçi oxumağı bacaran və bunu başqalarına öyrədəndir" qənaətində olan Sent-Bövün irəli sürdüyü təhlil metodunda yazıçının tərcümeyi-halının dərindən öyrənilməsinə, bədii əsərin təhlili zamanı yazıçı şəxsiyyəti ilə bədii əsər arasında paralellər aparılmasına üstünlük verilirdi. O belə hesab edirdi ki, yazıçının tərcümeyi-halını, həyat təcrübələrini, ictimai-siyasi baxışlarını və fəaliyyətini, cəmiyyətdəki mövqeyini nəzərə almadan bədii əsərin düzgün və obyektiv təhlilini vermək mümkün deyil: çünki yazıçını ilhama gətirən, yazmağa vadar eləyən birinci qüvvə onun yaşadıqları, həyatdan görüb-götürdükləridir.

Ona görə də yazıçının yalnız ictimai tərcümeyi-halının deyil, fərdi həyatının, şəxsi münasibətlərinin, xarakterinin zəif və güclü cəhətlərinin öyrənilməsinin də bədii əsərin təhlilində xüsusi yeri var.

Bioqrafik məktəb bədii əsərin sınaqdan çıxmış, təsdiqlənmiş faktlar əsasında təhlilinə əsaslanan müddəalarını bədii mətni ilkin miflərə bağlayan, bədii mətndə mifləri bərpa etməyə səy göstərən mifoloji məktəbə qarşı qoyurdu, mifoloji məktəbi əvəz etməyə çalışırdı.

Sent-Bövün təliminə görə, görkəmli yazıçıların təkcə öz həyat yolunu öyrənmək kifayət deyil, onların ailəsinin, əcdadlarının kimliyi də dərindən öyrənilməlidir. Bu zaman əldə olunan biliklə yazıçının əsərlərinin əlaqələndirilməsi "bu və ya digər zəkanın gizli və üzdə olan xüsusiyyətlərinə gur işıq sala bilər".

Bundan sonra isə yazıçını əhatə edən mühiti öyrənmək zəruri və əhəmiyyətlidir. Çünki istedadın formalaşmasında onu əhatə eləyən mühitin danılmaz təsirləri var.

Öz elmi yaradıcılığında pozitivizm fəlsəfəsinin sədaqətli tərəfdarı olan Sent-Böv bədii əsərin təhlili zamanı istinad edilən faktların dəqiqliyini ön sıraya çəkirdi.

Qeyd edək ki, pozivitizm fəlsəfəsi elmin metodologiyasında təcrübi tədqiqatı həqiqi, real biliyin yeganə mənbəyi kimi müəyyənləşdirirdi və Sent-Böv də israr edirdi ki, "hər bir bilik müşahidə və təcrübəyə əsaslanır".

O bu fikirdə idi ki, müəllifin yaradıcılığının və onun şəxsiyyətinin tam dəqiqliyi ilə öyrənilməsi tənqidçini "aldadıcı gözəlliklər"ə heyran olmaq təhlükəsindən qoruyur, ona daha düzgün elmi istiqamət verir.

Sent-Böv varislik məsələsindən bəhs edərkən düşünürdü ki, tələbələrin öz ustadlarını kumir səviyyəsinə yüksəltməsi onların yoluna işıq tuta bilər, bununla belə, təqlidçilik yazıçını həmin işıqdan məhrum edir və ustadın nüfuzundan sui-istifadə etmək yaradıcılığın imkanlarını məhdudlaşdırır.

Onu da qeyd etmək lazımdır ki, bioqrafik metod hələ də öz elmi aktuallığını saxlamaqdadır, hazırda Azərbaycan ədəbiyyatşünaslığında da bioqrafik metodun tətbiqinə rast gəlmək mümkündür.

Şarl Sent-Bövün sizə təqdim etdiyimiz əsəri isə ədəbiyyatşünaslığın tez-tez qaldırdığı və dəqiq cavab verə bilmədiyi (yəqin ki, cavab verə bilməyəcəyi) bir sualın cavabının axtarılmasına həsr olunub.

**Şarl SENT-BÖV**

# KLASSİK KİMDİR?

Bu, müxtəlif zamanələrdə və dövrlərdə fərqli cavabları tapıla bilən qəliz sualdır. Bu gün bu sualı mənə ağlı yerində olan bir adam verdi, mən də çalışacağam, cavab verməsəm də, heç olmasa bu sualı oxucularımızın qarşısına çıxarıb onların gözü önündə nəzərdən keçirim ki, özləri buna cavab versinlər, sonra isə, bacara bilsəm, həm onların görüşlərini, həm də öz görüşlərimi izah edim. Həqiqətənmi tənqid hər zaman hansısa bir yazıçıdan bəhs etməlidir, yoxsa kiminsə haqqında deyil, nəyinsə haqqında danışmağa da cəsarət edə və bu cür mülahizələrdən sadə bir ad altında xüsusi janr – esse janrını yaradan ingilis qonşularımızın müvəffəqiyyətlə etdikləri kimi müxtəlif mövzuları şərh edə bilər? Düzdür, adətən, bir qədər mücərrəd və əxlaqi xarakter daşıyan bu cür mövzuları şərh etmək üçün həm özünün, həm də başqalarının diqqətliliyinə arxayın olmaqla soyuqqanlı danışmaq, qısa sakitlik fürsətindən, təmkin və asudəlikdən həzz almaq lazımdır. Bunlar bizim əziz Fransamızda nadir hallarda ələ düşür və Fransanın parlaq dühası hətta ehtiyatlı olmaq, daha inqilablarla məşğul olmamaq istədiyi vaxtda belə, o buna çətinliklə dözə bilir.

Klassik, adi tərifə görə, heyranlıqla hörmət edilən və öz sahəsində nüfuz sahibi olan qədim müəllifdir. Bu mənada "klassik" sözü ilk dəfə romalılar arasında yaranıb. Onlar bütün təbəqələrdən olan vətəndaşları deyil, gəliri müəyyən miqdardan aşağı olmayanları "classici" çağırırdılar. Gəliri aşağı olanların hamısı "infra-classem" (sinifdən aşağı – lat.) adlanırdı. "Klassicus" sözünə məcazi mənada Avl Gellidə rast gəlirik və bu söz yazıçılara münasibətdə işlənir: dəyərli və görkəmli yazıçı, daşınmaz əmlakı olan və proletar izdihamına qarışmayan yazıçı "classicus assi duusque scriptor" (özünü klassik kimi təsdiq edən yazıçı – lat.) hesab edilir. Belə bir tərif ədəbiyyatda təsnifat və təhlil kimi bir şeyin baş verməsi üçün kifayət qədər inkişaf etmiş bir dövrdən xəbər verir.

Yeni dövrün insanları üçün əsl və yeganə klassiklər əvvəlcə, əlbəttə ki, yalnız qədim yazıçılar idi. Öz çevik zehni ilə yunanlar xoşbəxt və nadir təsadüf nəticəsində özlərininkindən başqa heç bir klassikaya sahib deyildilər və onlar əvvəlcə romalılar üçün yeganə klassik oldular, romalılar onları hər cür şəkildə təqlid etməyə çalışdılar. Romalılar, ədəbiyyatlarının çiçəklənməsindən, Siseron və Vergilidən sonra klassiklərinə də sahib oldular, Siseron və Vergili sonrakı əsrlər üçün də, demək olar ki, istisnasız klassiklər oldular. Qədim latınlardan heç də düşünüldüyü kimi cahil olmayan, lakin ölçüsüz və zövqsüz olan orta əsr ədəbiyyatşünasları səviyyələri və rütbələri qarışdırdı: orta əsrlərdə Ovidi Homerdən üstün tutuldu, La Boesi ən azı Platona bərabər səviyyədə klassik hesab edildi. XV-XVI əsrlərdə ədəbiyyatın intibahı uzun müddət davam edən bu çaşqınlığa işıq saldı və yalnız bundan sonra dəbdəbəli qiymətləndirmələr səviyyələri yerbəyer elədi. O vaxtdan bəri iki mərhələli antik dövrün həqiqi və klassik yazıçıları aydın görünməyə və ahəngdar şəkildə qrup-

laşdırılmağa başlandı və bu qruplardan hər biri zirvədəki yerini tutdu.

Bu arada yeni ədəbiyyatlar yaranırdı və ən qədim ədəbiyyatlardan, məsələn, italyan ədəbiyyatı kimi, bəziləri antik dövrü dərhal özünəməxsus şəkildə mənimsədi. Dante peyda oldu və tezliklə onun nəsli onu klassik elan etdi. O vaxtdan bəri italyan poeziyası öz əhatə dairəsini müəyyən qədər itirdi – lakin nə vaxt istəsə, daim ona qovuşurdu, çünki onda öz yüksək mənşəyindən bəzi əks-sədalar almaq və yüksəyə ucalmaq istəyi qalmışdı. Deməli, poeziya öz başlanğıc nöqtəsinin harada olmasına, klassik qaynağının hansı dağ yüksəkliklərində yerləşməsinə biganə deyil və onun üçün, məsələn, hansısa Malerbedən iztirab içində doğulmaqdansa, Dantedən gəlmək daha üstündür.

İndiki İtaliyanın öz klassikləri var idi, İspaniya haqlı olaraq öz klassikası olduğuna inanırdı, Fransa isə hələ də özünü axtarırdı. Həqiqətən də, özünəməxsusluq və müstəsna ilham sahibi olan bir neçə istedadlı yazıçı, davamı olmayan və qəfildən yarımçıq dayanan ayrı-ayrılıqda bir neçə parlaq yüksəliş, bəzən də yenidən başlamalı olan yüksəlişlər hələ də millət üçün təsirli və etibarlı bir ədəbiyyat xəzinəsi yaratmağa kifayət etmir. "Klassik" anlayışı uzunmüddətli və sabit olan, bütövlük və davamlılıq yaradan, tədricən formalaşan, ötürülən və əsrlər boyu qalan bir şeyi ehtiva edir. Yalnız parlaq XIV Lüdovik dövründən sonra qürurdan yerində dayana bilməyən millət belə bir xoşbəxtliyin ona nəsib olduğunu hiss etdi. Sonra hamı bir səslə bunu təmtəraqla XIV Lüdovikin adına çıxmağa başladı, yaltaqlıqla və təntənə ilə onun dövrünün parlaqlığını şişirtdilər, eyni zamanda özlərinin müəyyən dərəcədə haqlı olduqlarını da hiss etdilər. Elə o zaman maraqlı bir paradoks da ortaya çıxdı: yeni ədəbiyyat adına bütün qədim müəlliflərdən imtina etməyə hazır olan Böyük Lüdovikin bu əsrin bütün nailiyyətlərinin ən səmimi pərəstişkarları, Perronun başçılıq etdiyi bu insanlar onun ən ehtiraslı əleyhdarı və rəqibi olan nümayəndələrini mədh və tərənnüm elədilər. Öz müasirlərini, yəni Korneli, Molyeri, Paskalı və öz zamanının – ilk növbədə Bualonun özü də daxil olmaqla, – digər görkəmli insanlarını tərənnüm edən Perrodan qədimləri Bualo var gücü ilə müdafiə etdi. Xeyirxah xasiyyətli Lafonten bu davada alim Hyuenin tərəfini tutmaqla, bütün yanlışlıqlarına baxmayaraq, gözəl səhərlərin birində özünün yuxudan bir klassik kimi oyanacağını bilmirdi.

Nümunə ən yaxşı tərifdir: Fransada XIV Lüdovik əsri keçəndən sonra və Fransa bunu artıq müəyyən perspektivdə nəzərdən keçirə bildikdə ona klassik olmağın nə demək olduğu tamamilə aydın oldu və bu, hər hansı əsaslandırmadan daha aşkar idi. XVIII əsr özünün bütün rəngarəngliyi ilə dörd böyük adamın yaratdığı bir neçə gözəl əsər sayəsində bu təsəvvürü daha da gücləndirdi. Volterin "XIV Lüdovik dövrü"nü, Monteskyönün "Romalıların yüksəlişi və süqutu"nu, Buffonun "Təbiətin eraları"nı, Jan-Jakın "Savoya keşişi"ni, eləcə də xəyallar qurduğu və ya təbiəti təsvir etdiyi gözəl səhifələrini oxuyun və XVIII əsrin bu yaddaqalan səhifələrdə ənənəni inkişaf azadlığı və yaradıcı müstəqillik ilə uzlaşdıra bilmədiyini söyləməyə cəhd edin. Lakin bu əsrin əvvəllərində və İmperiya dövründə tamamilə yeni və bir qədər də məsləhətli olmayan ədəbiyyatın ilk cəhdləri qarşısında klassik anlayışı, ciddi rəqiblərlə müqayisədə daha məyus olan bəzilərinin təsəvvüründə heyrətamiz şəkildə daralmış və məhdudlaşmışdı. Birinci "Akademik lüğət" (1694) klassik yazıçının tərifini olduqca sadə verirdi: "Mühakimə etdiyi mövzuda nüfuz sahibi kimi tanınan, böyük dəyərə malik qədim yazıçı".

1835-ci ilin "Akademik lüğət"i bu tərifi daha da sıxır və bir qədər qeyri-müəyyən tərif əvəzinə, dəqiq və hətta dar bir tərif verir. Lüğət "hər hansı bir dildə örnək olmuş"ları klassik müəllif kimi tanıyırdı və sonrakı bütün məqalələrdə "nümunələr", kompozisiya və üslub üçün müəyyən edilmiş "qaydalar", "riayət edilməli olan ciddi sənət

qaydaları" ifadələrinə daim rast gəlinirdi. Klassikə belə bir tərifi, yəqin ki, hörmətli akademiklər, bizim sələflərimiz vermişdi, onlar o zaman romantik adlandırdıqlarını, yəni düşmənlərini nəzərdə tutmuşdular. Mənə elə gəlir ki, bu məhdudlaşdırıcı və çəkingən təriflərdən əl çəkməyin və onların mənasını genişləndirməyin vaxtı çatıb.

Əsl klassiki öz anlayışıma uyğun olaraq mən belə müəyyənləşdirməyə üstünlük verərdim: əsl klassik insan ruhunu zənginləşdirən, insan ruhunun xəzinəsini dəyərli töhfələrlə zinətləndirən, insanı irəli getməyə vadar edən, şübhə doğurmayan hər hansı mənəvi həqiqəti kəşf edən və ya ürəyində yenidən hansısa bir ehtiras yaşayan, hər şeyi dərk edən və yaşayan yazıçıdır, o öz fikrini, müşahidəsini və ya təxəyyülünü hansı formada olursa-olsun, azad və möhtəşəm, zərif və mənalı, mahiyyətcə sağlam və gözəl çatdırır; o hər kəslə özünün fərdi, bununla yanaşı, hamı üçün aydın üslubunda, yeni və neologizmsiz, yeni və qədim bir üslubda, asanlıqla bütün zəmanələrin müasirinə çevrilən bir üslubda danışır.

Belə bir klassik bir anlığa inqilabçı ola bilər və ya ən azı belə görünə bilər, amma o, inqilabçı deyil. Hər şeydən öncə, o, ətrafındakılara zor göstərməyib, daha sonrası, özünə darlıq gətirən nə varsa, ondan imtina edib ki, nizam və gözəllik naminə tarazlıq tez bir zamanda bərpa olunsun.

İstəsəniz, bu tərifə uyğun adlar çəkə bilərəm, onları mən bilərəkdən əzəmətli və tərəddüd edən, daha qəti desək, səxavətli görmək istərdim. Birincisi, mən burada "Polievkt"in, "Tsinna"nın, "Horatsilər"in müəllifi Kornelin adını çəkərdim. Mən burada Fransanın ən mükəmməl və çoxyönlü sənət dahisi Molyeri qeyd edərdim.

Göte (o, tənqidin kralıdır) demişdi: "Molyer o qədər böyükdür ki, onu hər dəfə təkrar oxuyanda bizi yenidən heyrətləndirir. Bu, fərqli bir insandır: onun pyesləri faciəviliklə sərhədlənir və heç kim onları təqlid etməyə belə cəsarət göstərmir. Onun eybəcərliyin ata-oğul arasında hər cür səmimiyyəti məhv etdiyi "Xəsis" əsəri ən yüksək əsərlərdəndir və ən yüksək dərəcədə dramatikdir... Dramatik əsərdə personajların hər bir hərəkəti özlüyündə mənalı olmalı və daha böyük əhəmiyyət kəsb edən hərəkətlər doğurmalıdır... Bu mənada "Tartüf" bir modeldir. Elə birinci səhnədəcə necə ekspozisiya var! Lap əvvəldən hər şey məna ilə doludur və sizi daha da vacib bir şeyi qabaqcadan duymağa vadar edir. Burada Lessinqin pyeslərinin birindəki ekspozisiyanı da xatırlamaq olar, lakin "Tartüf"ün ekspozisiyası dünyada yalnız bircə dəfə olur. Bu janrda bundan böyük heç nə yoxdur... Hər il Molyerin pyeslərindən birini yenidən oxuyuram, elə oxuyuram ki, elə bil vaxtaşırı böyük italyan sənətkarlarının tablosundan hansısa qravüraya baxıram.

Özümə aydındır ki, klassikə verdiyim tərif, adətən, bu sözlə əlaqəli olan anlayışın çərçivəsindən bir qədər kənara çıxır. Hər şeydən əvvəl qaydalara dəqiq əməl etmək, müdriklik, mötədillik, məntiq, əhatəlilik hər şeyin ona tabe olması zəruri şərt kimi götürülür. Cənab Remyuz Ruaye Kolları tərifləmək məcburiyyətində qalanda deyirdi: "Əgər o, klassiklərimizdən zövqün qüsursuzluğunu, sözdən yerində istifadə etməyi, dövrələrin müxtəlifliyini, öz düşüncəsini ifadə etmək üçün ən uyğun formanı mümkün qədər diqqətlə seçmək istəyini götürürsə, bütün bunların hamısını verdiyi xarakterə görə yalnız özünə borcludur". Buradan görmək olar ki, klassikin keyfiyyətlərinə daha çox ciddi söz və çalar seçimi, obrazlı və ölçülü üslub aid edilir – bu, hər halda, ən geniş yayılmış fikirdir. Bu halda orta səviyyəli yazıçıların əksəriyyəti klassik olardı – dəqiq, tədbirli, zərif, həmişə aydın, ehtiraslarda nəcibliyini itirməyən və öz gücünü ört-basdır etməyə üstünlük verən. Mari-Jozef Şenye bu mötədil və tamamilə bitmiş yazıçıların poetikasını şeirlə təsvir edib və özünü onların uğurlu tələbəsi kimi göstərib:

Ağıl ilə idrakın birliyini
Hər şey – şücaət, düha, ruh, istedad və zövq
yaradır.
Şücaət nədir? – Əməldə təcəssüm olunan
idrak.
Ruh? – İdrakın hazırcavablığı.
İstedad? – Bəli, almaz kimi parlayan odur.
Zövq? – Sağlam ağıldır, özü də cila verilmiş.
Düha isə ən yüksək idrakdır.

Bu misraları yazarkən o, yəqin ki, Papa haqqında, Depreo haqqında və onların ortaq müəllimi Horatsi haqqında düşünürmüş. Mahiyyəti təxəyyülü və hətta həssaslığı idraka tabe edən bu nəzəriyyə, bəlkə də, müasir dövrdə ilk dəfə Skaligerə məlum idi. Bu, sözün əsl mənasında, latın nəzəriyyəsidir və uzun müddət həm də fransız nəzəriyyəsi olub. Əgər "idrak" sözündən sui-istifadə edilməsə, bu söz yalnız uyğun hallarda istifadə olunsa, bunda doğru olan bir şey var. Amma bəllidir ki, bundan sui-istifadə edilir və əgər idrak, məsələn, hansısa mənəviyyat nəsihətində poetik dühaya qovuşub onunla vahid bir bütöv təşkil edə bilsəydi, dramda və ya epopeyada bu qədər rəngarəng və bənzərsiz ehtiraslar yaradan və təsvir edən düha kimi ola bilməzdi. "Eneylilər"in IV kitabında və ya Didonun hiddətində idrakı haradan tapacaqsınız? Yoxsa onu Fedranın hikkəsində tapa bilərsiniz? Necə olursa-olsun, bu nəzəriyyəni diktə edən dövrün ruhu şövqlə ilhama dalanları deyil, ilhamını idarə etməyi bacaranları klassiklərin ən yüksək kateqoriyasına daxil etməyi əmr edir – əlbəttə ki, Homerdən çox Vergilini, Korneldən çox Rasini. Bu nəzəriyyənin örnək götürməyi sevdiyi əsər "Ətaliya"dır, "Ətaliya", həqiqətən də, tədbirlilik, qüvvət, getdikcə güclənən cəsarət, yüksək əxlaq və əzəmətin bütün tələblərinə cavab verir. Sonuncu iki yürüşdəki Türenn və "Ətaliya"dakı Rasin – ehtiyatlı və müdrik insanların dühaları mükəmməl yetkinliyə çatdıqda və ən yüksək cürət çağına yetdikdə nəyə qadir olduqlarının iki gözəl nümunəsidir.

Buffon "Üslub haqqında mülahizələr" əsərində əsl klassik əsərləri fərqləndirən ideyanın, arxitektonikanın və icranın vəhdəti üzərində israr edərək deyirdi: "Hər bir mövzu bütövdür və nə qədər geniş olur-olsun, onu vahid fikirdə əhatə etmək olar. Kəsintilərə, qırılmalara, bölünmələrə yalnız o zaman yol verilə bilər ki, söhbət müxtəlif mövzularda getsin, yaxud ciddi, çətin və ya qeyri-adekvat şeylər haqqında danışmağa məcbur olan dahi görsün ki, onu qarşısındakı çoxlu əngəllər dayandırır və ya müxtəlif şəraitlərə görə ləngiməlidir, əks halda çoxlu sayda bölgülər daha əhəmiyyətli bir əsər yaranmamışdan onun hissələrinin bütövlüyünü pozacaq; kitab zahirən aydın görünəcək, amma yazıçının niyyəti qaranlıq qalacaq..." Və o, Monteskyönün əsasən əla olan, lakin hədsiz xırda hissələrə parçalanmış "Qanunların ruhu" kitabını nəzərdə tutaraq tənqidini davam etdirir. Öz yaradıcılıq gücünü vaxtından əvvəl tükətmiş görkəmli yazıçı kitabı bütöv bir ilham həmləsi ilə yarada bilməyib və öz geniş, əhatəli materialını birtəhər yola verib. Etiraf edim ki, Buffonun bu məqamda öz əsəri ilə Bossyenin "Dünya tarixi haqqında mülahizələr"i arasındakı təzadı xatırlamadığına inanmıram – bu, qeyri-adi dərəcədə geniş və eyni zamanda böyük natiqin vahid bir nitqə sığdıra bildiyi əsərdir.

Əsərin ilk nəşrini, fəsillərə bölünməmiş 1681-ci il nəşrini vərəqləyin. Fəsillər ora sonradan əlavə olunub və kitabın haşiyələrindən mətnə keçərək onun bütövlüyünü pozub. Burada hər şey rəvan ardıcıllıqla cərəyan edir, natiq hər şeyi vahid bir ruhda təqdim edir və sanki bu natiq özünü burada Buffonun haqqında danışdığı Təbiət kimi aparır, hansısa əbədi plan üzrə işləyir, ondan heç kənara çıxmır – dahiyanə uzaqgörənliyə çatır və ona nüfuz edir.

"Ətaliya" və "Dünya tarixi haqqında mülahizələr" – klassisizmin ciddi nəzəriyyəsinin həm öz dostlarına, həm də düşmənlərinə təklif edə biləcəyi ən yüksək iki nümunədir.

Bununla belə, bu cür bənzərsiz əsərlərin mükəmməlliyində heyrətamiz dərəcədə sadə və əzəmətli bir şey olduğuna baxmayaraq, biz istərdik ki, sənətə tətbiq edilərkən bu nəzəriyyəni bir qədər az sərtləşdirək və onun sərbəstliyə varmadan daha geniş şəkildə şərh oluna biləcəyini göstərək.

Götenin bu sözlərini belə məqamlarda sevə-sevə sitat gətirirəm: "Mən sağlamı klassik, xəstəni isə romantik adlandırıram. Mənim üçün "Nibelunqların nəğməsi" Homer qədər klassikdir: hər ikisində sağlamlıq və güc var. İndiki yazılar yeni olduqlarına görə deyil, zəif, ağrılı və ya xəstə olduqlarına görə romantikdir. Qədim əsərlər qədim olduqlarına görə klassik deyil, şən, enerjili və təravətli olduğuna görə klassikdir. Əgər biz romantik və klassik olanları bu iki mövqedən nəzərdən keçirsək, tez bir zamanda vahid fikrə gələrdik".

Beləliklə, bu mövzu üzərində dayanmazdan əvvəl, mənə elə gəlir ki, hər bir qərəzsiz ağıl ilkin olaraq dünya səyahətinə çıxmalı və bəşəriyyətin bütün ədəbiyyatını ilkin gücü və sonsuz çeşidi ilə nəzərdən keçirməlidir. Orada nələri görəcək? Hər şeydən öncə, Homer kimi bir ozanı, klassik dünyanın atasını, başqalarından fərqlənən ayrıca şəxsiyyət olmaqdan daha çox, bütöv bir dövrün və onun yarıbarbar sivilizasiyasının hərtərəfli və canlı sözçüsü olan bir ozanı görəcək. Onu, sözün əsl mənasında, klassik etmək üçün ayağına keçmiş tarixlə ideya, plan, ədəbi hədəflər yazmaq, ona lütf və nəzakət bəxş etmək lazım gələcəkdi – o, ilhamın təbii axınına dalaraq bunları heç vaxt ağlına belə gətirməzdi. Bəs biz onun yanında kimləri görəcəyik? Əzəmətli, hörmətli ağsaqqalları, Esxili və Sofoklu, lakin tamamilə şikəst edilmiş şəkildə və burada yalnız özlərinin parçalarını, bir çox başqa müəlliflərin qalıqlarını göstərmək üçün görünürlər həmin müəlliflər, şübhəsiz ki, bu günə qədər yaşamağa onlardan az layiq deyillər, lakin onlar əsrlərin haqsız qəzəbindən əbədi həlak olmuşlar. Qərəzsiz bir insana, bütün ədəbiyyatı, hətta klassikləri nəzərdən keçirərkən onlara dar və bəsitləşdirilmiş ölçü ilə yanaşmamaq üçün təkcə bu fikir də kifayət edər; belə bir adam əmin olardı ki, sonralar bu qədər ardıcıllıqla bərqərar olan dəqiqlik və əndazə bizi heyrətə gətirən qədimliyin sərbəst şərhinin bəhrəsidir.

Bəs müasir dünya necə olacaq? Müxtəlif ədəbiyyatların yüksəlişində gördüyümüz nəhəng adlar məhz məhdud fikirlər üçün daha qəbuledilməz və təhqiramiz olanlardır, poeziyada gözəllik və mütənasiblik haqqında mühakimələr həmin məhdud fikirlərə əsaslanırdı. Məsələn, Şekspir klassikdirmi? Bəli, indi İngiltərə və bütün dünya üçün o, klassikdir; amma Papa zamanında belə deyildi. O zaman klassiklər ancaq Papa və onun dostları idi; onlar ölümlərindən bir gün sonra da bu sifətdə görünürdülər. Hələ bu gün də onlar klassikdirlər və klassik olmağa layiqdirlər, lakin onlar artıq ikinci dərəcəli klassiklərdir və onları öz yerinə qoyan və üfüqlərimizin dərinliklərində öz yerini tutan indi onlara əbədi olaraq hökmranlıq edir.

Mən heç vaxt nə Papaya, nə də onun layiqli tələbələrinə küfr etmək fikrində deyiləm, xüsusən də onlarda Qoldsmit kimi incəlik və təbiilik varsa. Ən böyüklərini istisna etsəniz, onlar yazıçı və şairlərin, bəlkə də, ən xoşuna gələnləridir və həyata başqalarının hamısından daha çox gözəllik qatmağa qadirdirlər. Bir dəfə Lord Bolinqbrokun doktor Sviftə yazdığı məktuba Papa aşağıdakı postskriptumu əlavə edib: "Düşünürəm ki, üçümüz ən azı üç ili birlikdə keçirsəydik, bunun əsrimiz üçün bir faydası ola bilərdi". Yox, özü haqqında lovğalanmadan bunu deyən, layiqli insan haqqında yüngül söz deyə bilməz. İstedadlı insanların bir-birlərinə o zamanlar heç də xəyal olmayan ittifaqlar təklif edə bildikləri o mübarək və bəxtəvər zamanlara həsəd aparmaq daha yaxşı olar. Bu illər, istər XIV Lüdovikin, istərsə də Kraliça Annanın adına çıxaq, yeganə əsl klassik illərdir (sözün həqiqi mənasında), bu illərdə kamil istedad sığınmaq üçün özünə layiqli yer və əlverişli ab-hava tapır. Biz bütün əlaqələrin itirildiyi, bəlkə də, əvvəlkilərə

bərabər istedadların öldüyü, dövrün qeyri-sabitliyinin, amansızlığının hərəsini bir yana səpələdiyi dövrümüzdən bunu çox yaxşı bilirik. Nə olursa-olsun, hər bir dühanın qədri bilinməli və üstünlüyü dərk edilməlidir. Əsl və ən böyük dahilər başqalarını büdrədən çətinliklərin öhdəsindən gəlirlər. Dante, Şekspir və Milton bütün müdaxilələrə, təqiblərə və həyatın fırtınalarına rəğmən, zirvələrə çatmağı və gəldi-gedər olmayan əsərlər yaratmağı bacardılar. Bir vaxtlar Bayronun Papa haqqında söylədiyi fikirlər ətrafında çox mübahisə edirdilər, klassik məktəbə heyran olan, bunun yeganə yaxşı məktəb olduğunu bəyan edən və öz yaradıcılığı ilə ondan qəti şəkildə fərqlənən Don Juan ilə Çayld Haroldun fikirləri arasında yaranan ziddiyyəti izah etməyə çalışırdılar. Hələ o zaman Göte hədəfi gözündən vuraraq, Bayronun personajları və onların hərəkətlərini yaratmaqda özündən güclü olan Şekspirdən çəkindiyini qeyd etmişdi: “O öz istəyi ilə ondan imtina edərdi, o, eqoizmə bu qədər yad olan dühadan çəkinirdi, Şekspirin kölgəsində özünün tam gücünü göstərə bilməyəcəyini hiss edirdi. Lakin o heç vaxt Papanı inkar etmirdi, çünki ondan qorxmurdu. Çox gözəl başa düşürdü ki, Papa onu əhatə edən daş divardır”.

Əgər Papanın məktəbi Bayronun arzuladığı kimi hökmranlığını davam etdirsəydi və keçmişdə məlum fəxri hakimiyyətini qoruyub saxlasaydı, o zaman Bayron bu sahədə ilk və yeganə olardı. Papanın bir növ daş divar kimi ucaldılması Şekspirin nəhəng fiqurunu gözdən uzaqlaşdırdı, Şekspir hökm sürəndə və bütün əzəməti ilə hökmranlıq edəndə isə Bayron yalnız ikinci oldu.

Fransada XIV Lüdovik əsrinə qədər bizim böyük klassikimiz olmamışdı, bizdə Dantelər və Şekspirlər çatışmırdı ki, ruhani qurtuluş illərində gec-tez bu ilkin avtoritetlərin üstünə qayıdaq. Bizdə ancaq böyük şairlərin olduğu barədə eyhamlar var idi – Matüren Renye də belədir, Rable də belədir. Onlarda ideal, ehtiras və ciddilik çatmırdı ki, bunsuz heç bir böyük yazıçı ola bilməz. Monten, belə demək mümkünsə, vaxtından əvvəl Horatsi cinsindən doğulmuş klassik idi, layiqli mühit olmadığı halda, cilovsuz qələm və fantaziya oyununa qapılan arsız bir kəşfiyyatçı idi.

Buradan belə nəticə çıxır ki, biz ədəbi əcdadlarımız arasında başqa xalqlardan daha az yaradıcı tapmışıq, nə vaxtsa ona istinad edərək uca səslə yazıçıya azadlıq və istiqlal tələb edə bilmişik və sonralar bu azadlığı əldə edəndə klassik dəyərləri saxlamağa daha çox çətinlik çəkmişik. Bununla belə, böyük dövrdə Molyer və Lafontenin klassiklərimiz arasında olması kifayətdir ki, onlara öz ləyaqətinə görə verilən qiymətdən heç vaxt imtina etməyəsən.

Klassik ideyasını və ona qarşı ənənəvi heyranlığı qoruyub saxlamaq, eyni zamanda bu anlayışı genişləndirmək bu gün mənə vacib görünür. Klassik əsərləri necə yaratmaq üçün heç bir resept yoxdur. Bunu təsdiq etməyin, açıq şəkildə qəbul etməyin vaxtıdır. Yazı üslubunuzdan və öz ilhamınızdan asılı olmayaraq dilin müəyyən saflıq, sərtlik, qüsursuzluq və zəriflik keyfiyyətlərini təqlid edərək klassik olacağınızı düşünmək, ata Rasindən sonra oğul Rasinlərin də dünyaya gələ biləcəyini düşünmək deməkdir – bu rolu ifa etmək ehtirama layiq bir məşğuliyyətdir, lakin ona həsəd aparılmaz, poeziyada isə bundan pisini təsəvvür etmək mümkün deyil. Daha artığını deyəcəyəm: müasirlərin qarşısında tez-tələsik klassiklər sırasında olmaq məsləhət deyil; onda özün bax, gələcək nəsillər üçün klassik olaraq qalmayacaqsan. Bir vaxtlar Fontan dostlarına əsl klassik görünürdü. Baxın, iyirmi beş ildən sonra o necə də bayağılaşdı! Erkən yetişmiş neçə-neçə klassik öz nüfuzunu itirir və ya bu siyahıya qısa müddətə salınır. Səhər baxırsan və təəccüblənirsən ki, onlar artıq yoxdurlar. Madam Sevinye zarafatla demişdi ki, onlardan yalnız rəngi getmiş cır-cındır qaldı. Klassiklərə gəlincə, ən yaxşı, həm də ən böyük klassiklər onların ən gözlənilməzləridir. Doğrudan da, ölməz doğulan və solmadan çiçəklənən cəsur dahiləri xatırlayın. Zahirən XIV Lüdovik dövründə dörd böyük şairin ən az klassiki

Molyer idi. Ona alqışlandığı qədər hörmət edilmirdi; qiymətinin nə olduğunu bilmədən ondan həzz alırdılar. Ondan sonra Lafonten ən kiçik klassik kimi görünürdü. İndi görün iki əsrdən sonra tale onları haradan haraya gətirdi! Onlar Bualodan, hətta Rasindən də xeyli irəli keçdilər və bizim dövrümüzdə də yekdilliklə etiraf edilmirmi ki, ümumbəşəri insan əxlaqının xüsusiyyətləri məhz onlarda ən bol və zəngin şəkildə ifadə olunur?

Bununla belə, məsələ nəyisə qurban vermək, nəyisə dəyərdən salmaq deyil. Zövq məbədi, mənim fikrimcə, yenidən qurulmalıdır, lakin yenidən qurularkən onu, sadəcə, genişləndirmək lazımdır ki, bütün nəcib ruhların, mənəvi zövqlər xəzinəsinə əhəmiyyətli və davamlı töhfələr verənlərin və insan şüuruna ayrılmaz keyfiyyətlər qazandıranların Fəxri xiyabanına çevrilsin. Mən özüm belə bir məbədin inşaatçısı olmağı və ya onun tikintisi üçün kreditlərin idarəçisi olmağı iddia edə bilmərəm (bu, aşıq-aşkar belədir) – heç olmasa, smetaya bir şey əlavə etmək üçün bir neçə istəyimi ifadə etməklə kifayətlənəcəyəm. Əvvəla, layiq olanlardan kimisə kənarda qoymaq istəməzdim. Qoy hər kəs öz yerində olsun, Şekspirdən tutmuş, parlaq yaradıcıların ən sərbəsti, özü də bilmədən klassiklərin ən böyüyü və sonuncusu olan, kiçicik klassik Andriyöyə qədər. “Atamın evində iqamətgahlar çoxdur” və qoy yer üzündəki Gözəllik səltənətində olduğu kimi, səma səltənətində də eyni həqiqət olsun. Tanrıya bərabər Homer həmişə və hər yerdə olduğu kimi, burada da birinci olacaqdı, ondan sonra isə Şərqdən üç şahanə sehrbaz yürüş edən kimi üç möhtəşəm şair, üç Homer gələcəkdi, uzun müddət tanımadığımız və Asiyanın qədim xalqları üçün ucu-bucağı olmayan və son dərəcə möhtəşəm dastanlar yaradan bu şairlər hindistanlı Valmiki, Vyasa, eləcə də fars şairi Firdovsidir. Zəriflik mühitində belə insanların var olduğunu və bəşər övladını hansısa hissələrə ayırmağın yaxşı olmadığını bilmək faydalıdır. İnsan əxlaqını təriflərlə dilə gətirən, sadə tərzdə tərənnüm edən mütəfəkkir və şairlərin ən uluları özlərini nadir və şirin sözlərlə izah edər, ilk sözdən bir-birlərini başa düşdüklərinə təəccüblənməzdilər. Solon, Hesiod, Feoqnid, İov, Solomon (və niyə Konfutsi özü də olmasın?) kimi insanlar müasir dövrün ən mahir yazıçıları Labruyer və Laroşfukonu tanıyardılar. Müasir dövrün şairləri onları dinləyərək özlərinə deyərdilər: “Bizim bildiklərimizin hamısını onlar da bilirdilər, biz keçmişi cavanlaşdırmaqla yeni heç nə kəşf etməmişik”. Vergili göz qabağında, yoxuşu sərt olmayan bir təpədə Menanderin, Tibullun, Terentsinin, Fenelonun əhatəsində dayanıb onlarla böyük füsunkarlıq və müqəddəs cazibə dolu söhbətlərə can atardı; onun zərif sifəti işıqlanar və utandığından qızarardı, o gün şeirlərinin yenicə oxunduğu Roma teatrına girəndə görərdi ki, camaat bir nəfər kimi bir anda onun qarşısında ayağa durub, ona ehtiram göstərir, lap Avqusta ehtiram göstərdiyi kimi. Ondan bir az aralı, əziz dostunun yanında olmadığına təəssüflənən Horatsi də öz növbəsində dinc həyatı tərənnüm edən bir qrup şairə, həmçinin müğənni olsa da, danışmağı bacaranlara – Papaya, Depreoya rəhbər (incə ruhlu şair və müdrik insan nəyəsə rəhbərlik edə bilər) olardı; onlardan biri daha az tüdnməcaz, digəri isə daha az deyingən olardı. Monten – bu əsl şair də onların arasında olardı və öz varlığı ilə hamını inandıra bilərdi ki, bu dilbər guşəyə hansısa bir ədəbi məktəb toplaşmamışdır. Lafonten burada özünü unudar və öz hərdəmxəyallığını başından çıxardıb daha buranı tərk etmək istəməzdi. Volter buradan keçərdi, amma buranı nə qədər bəyənsə də, burada qalmağa səbri çatmazdı. Vergilinin də olduğu həmin təpədə, amma bir az aşağıda, gözəl xasiyyətli, hərbçiliyindən heç bir şey nəzərə çarpmayan və daha çox muzaların carçısına bənzəyən Ksenofonun ətrafına bütün ölkələrin və xalqların hazırcavab yazıçılarını – Addisonları, Pellisonları, Vovenaqrları, rahatlıqla inandırmağı bacaranların, eləcə də ləzzətli sadəliyin və yüngül bəzəkli səhlənkarlığın dəyərini bilənlərin

hamısının necə toplaşdığını görərdik. Əsas məbədin eyvanında (çünki onu bir neçə başqa adam əhatə edərdi) üç böyük insanla görüşmək istərdi və dördüncü olmadan orada toplaşardılar, çünki özü nə qədər böyük olsa da, onların söhbətinə və ya sükutuna qoşulmaq onun ağlına da gəlməzdi – o qədər gözəlliyə, ahəngdar əzəmətə və dünyada yalnız bir dəfə: həyatın və gəncliyin zirvəsində olanda baş verən o mükəmməl harmoniyaya rəğmən. Hər üçünün – Platonun, Sofoklun və Demosfenin adı sənət idealına çevrilib. Lakin biz bu yarıtanrılara nə qədər sayğı göstərsək də, onlar bizə yaxından tanış olan, hər zaman həvəslə Servantesi və hər zaman Molyeri, praktik rəssamları, bu xoşniyyət dostları izləyən mükəmməl ağıllardan ibarət nəhəng qələbəliyi, üstəlik, insana şənlik verən, insanı öyrədərkən əyləndirən, sağlam, mənalı gülüşdəki gücün ürəkdən gəldiyini bilən ilk xeyirxahları gözümüzdən salmamalıdırlar. Mən bu təsviri davam etdirməyəcəm, tam yazmalı olsam, bütöv bir kitab əmələ gələr. Orta əsrlər və Dante, cəsarətlə deyə bilərəm ki, əsrlər boyu müqəddəs zirvələri işğal edərdilər; Cənnət müğənnisinin ayaqları altında, demək olar ki, bütün İtaliya bağ kimi uzanardı. Bokkaçço və Ariosto da orada zarafatlaşardılar, Tasso isə yenidən Sorrentonun portağal bağlarına girərdi. Ümumiyyətlə, hər bir xalqın öz guşəsi olardı, amma yazıçılar oradan ayrılmağı, gəzib ən gözlənilməz yerlərdə qardaşları və müəllimləri ilə görüşməyi çox istərdilər. Məsələn, Lukretsi Miltonla dünyanın mənşəyini və kainatın xaosdan harmoniyaya necə keçdiyini məmnuniyyətlə müzakirə edərdi. Lakin onların hər ikisi öz görüşlərinə sadiq qalaraq ancaq şeirin və ilahi təbiət obrazlarının qiymətləndirilməsində razılaşardılar.

Budur bizim klassiklərimiz. Hər kəs bu çaparaq oçerki öz təxəyyülü ilə tamamlaya və hətta öz zövqünə əsaslanaraq bu və ya digər yazıçını seçə bilər. Çünki seçmək lazımdır və hər şey dərk olunanda zövqün ilk təzahürü durmadan dolaşmayacaq: dayanacaq və bir yerdə qərarlaşacaq. Sonsuz gəzişmələr qədər heç bir şey zövqə bunca darıxdırıcı və dağıdıcı təsir göstərmir; poeziyanın ruhu Əbədi sərgərdan deyil. Ancaq mən “dayanmaq və kimisə seçmək lazımdır” deyəndə bu heç də o demək deyil ki, biz zövqümüzə ən uyğun gələn keçmiş ustadlarımızı təqlid etməliyik. Yetər ki, biz onları hiss edək, onların içinə nüfuz edək – onda heyran qalacağıq. Bu qədər gecikmə ilə biz heç olmasa özümüzə aid olanı qoruyub saxlamağa çalışaq. Öz mülahizələrimizə əsaslanıb seçim edək. Qoy düşüncələrimizdə və hisslərimizdə səmimiyyət və təbiilik yaşasın – bu həmişə mümkündür. İmkan varsa (bu, daha çətin olsa da), buna hansısa ali məqsəd üçün nəcib bir əzm də əlavə edək! Beləliklə, gəlin taleyin bizi içinə atdığı, həm gücümüzü, həm də gücsüzlüyümüzü aldığımız zəmanənin şərtlərinə tabe olaraq öz dilimizdə danışaq və bununla yanaşı, baxışlarımızı zaman-zaman o təpələrə çevirək, pərəstiş etdiyimiz o fanilərə nəzər salaq və özümüzə sual verək: onlar bizim haqqımızda nə deyərdilər?

Bəs niyə yalnız müəlliflərdən və yalnız yaradıcılıqdan danışaq? İnsanın həyatında elə bir vaxt gələ bilər ki, ümumiyyətlə, yazmağa son qoyar. Oxuyanın və oxuduğunu yenidən oxuyanın, mütaliə meylini sərbəst izləyə bilənin xoş halına! Həyatda elə bir vaxt gəlir ki, bütün vurnuxmalar bitir, bildiklərini təhlil edib dərinləşdirməkdən, hiss etdiklərindən sevdiyin insanlarla yenidən görüşmüş kimi həzz almaqdan parlaq həyəcan qalmır – ürək üçün əsl təsəlli və yetkinlik çağında estetik hiss bax budur. Məhz bundan sonra "klassik" sözü öz həqiqi mənasını alır və zəriflik hissi olan hər bir insana istedaddan gələn seçimlə durmadan diktə olunur. O vaxta qədərsə zövq müəyyənləşib kamilləşir və sağlam düşüncəmiz, əgər özünü göstərəcəksə, tam yetkinləşir. Artıq təcrübə aparmağa vaxt, axtarışlara həvəs yoxdur. Dostlarla, uzun zamanın sınağından çıxanlarla kifayətlənəcəksən... Çoxillik şərab,

qədim kitablar, köhnə dostlar... Və Volter bu misralarda dediyi kimi özünə deyirsən:

Belə yaşayaq, yaradaq və əylənək, Horatsi!
Səndən çox yaşasam da, şeirlərimin
ömrü əsrdən gödək.
Amma mən tabuta qoyulanda da
Müdrikliyindən dərs almağa:
Ölümü nifrətlə qarşılamağa, həyatdan həzz almağa,
Zövqün və zəkanın hökm sürdüyü şeirlərini
Duyğulara can verən çoxillik şərab kimi
Başıma çəkməyə hazıram.

Və sonda, bizim üstün tutduğumuz və bizə öz düşüncələrimizi bütün zənginliyi və yetkinliyi ilə çatdıran yazıçı istər Horatsi olsun, istərsə də başqa biri, kimliyindən asılı olmayaraq, biz hər dəqiqə bu şanlı qədim zəkalardan biri ilə söhbətləşməyə, onunla bizi heç vaxt aldatmayan dost olmağa can atacağıq ki, bu dostluq bizi, bizi insanlarla və özümüzlə barışdıran (buna daha çox ehtiyacımız olur!), adət etdiyimiz dinclik və səmimiyyət hissini heç vaxt tərk etməsin.

***1850***





Sevinc QƏRİB

## NAHAQ ÖLDÜRDÜN MƏNİ...

İşığın izinə düşmüşdüm,
sərmişdim əllərimi
qaranlığın üstünə,
Günəş kimi gülümsəyirdi içim.
Qoymuşdum buludları yerinə,
sevinc ələnirdi baxışlarımdan.
Az qalırdı ümidlərimi qovan
ayrılığı keçim,
nahaq öldürdün məni...

Təzədən uşaq olmuşdum –
yaşamadıqlarını yaşayan,
harda bir sevinc görsə,
ürəyinə daşıyan.
Rənglərə boyanmışdı dünyam,
sənin yuva əllərinlə
bir az ərköyün olmuşdum,
bir az dəcəl qız kimi:
elə öyünürdüm ki, sevdiyin
tellərimlə,
nahaq öldürdün məni...

Şeirlərim əlçim-əlçim
arzuya dönürdü,
duaya sarılırdı dilim,
şükran diləklərim xoşuna
gəlirdi Tanrının.
Könül evimdə qəm çırağı
sönürdü,
sətir-sətir sənə köçürdüm,
heca-heca nur hörürdü
barmaqlarım,
nahaq öldürdün məni...

Qu quşu nəğməsiydi
dodaqlarımdan qopan ah,
söz dadında öpüşlərin
süzülürdü gözlərimdən
eşq adına.
Ən gözəl musiqi idi səsin,
xoşbəxt olurdu qulaqlarım
pıçıltılarınla,
nahaq öldürdün məni...

Vida məktubuydu üzündən
oxuduqlarım,
çəkdi məni xatirələrin qoynuna.
Qarlı gündə qismətin "tor"una
düşmüşdük,
tapılmayan nemət kimi
görüşmüşdük.
O qar bizi isitmişdi,
bu qar üşütdü məni.
Uddum qəhərimi,
asdım soyuqluğundan
son kəlməmi:
nahaq öldürdün məni.
Ölürdü, vallah, ağrılar ölürdü,
nahaq öldürdün məni...

## GEDİRƏM KÖNLÜYALIN...

Yenə yollar görünür sən olmayan şəhərə,
Əllərinin həsrətin şaxtada dondururam.
Gözümdəki buludu yem edirəm qəhərə,
Bu sərçə ürəyimi ovcuma qondururam.

Dualar göndərirəm sevginin Allahına,
Ayrılığın ömrünü bir az gödək eləsin.
Qaranlığa əsirdi hər günüm, vallah, inan,
Az qalır ki, öz əlim özümü kötəkləsin.

Aydınlığa çıxaram zülməti pusa bilsəm,
Gəncliyinə susayıb qocaltdığım o qız da.
Yaşayardım, bəlkə də, içimdə susa bilsəm,
Demədiyim hər nə var, boylanır ağ kağızdan.

Gedirəm könlüyalın, ruhum hicran təlaşlı,
Qorxuları yenməyə tab gəzirəm özümdə.
Hardan əsdi bu külək, ömrüm qəmə bulaşdı,
Gün darayan bəxtimi
dərd gətirdi gözümdən.

Ağ bayraq qaldırmağa ruhumdan ar edirəm,
Adıma bürünmüşəm, əyilmərəm kədərə.
Kif basmış arzuları əlçim-əlçim didirəm,
Yeni ümid əyirib don hörürəm qədərə.

## AĞACLARI ZİKR EDİRƏM OVCUMDA PÖHRƏ ARZULAR…

Həsrətimin hönkürtüsü buludları silkələyir,
Dağ başında qara dönür
yanağımı yuyan yaşlar.
Ayrılığın üzü sərtdi, ümidimi tikələyir,
Vüsalıma qılınc çəkir
sükutdan doyan savaşlar.

Dizimə dayaq etdiyim təpər əsası çatladı,
Ürəyimi calaq etdim rəngə susamış ruhuma.
Off... uzaqlara yerikləyən duyğularım atlıdı,
Oxuma daha, "olmaz" sətirli
nəğmələr oxuma...

Ömrümdə məğrur dolanan ölçüsüz
qəmə asiyəm,
Könlüm libasın dəyişib sevinc
geyinir əyninə.
Yerin-göyün dərd ortağı,
daha kimin kimsəsiyəm,
Tanrının xəbəri yoxdu, nə yüklər
qoyub çiynimə.

Ağrıları sınaq bilib qollarımı qucaqladım,
Ağacları zikr edirəm ovcumda
pöhrə arzular.
Soyuq dərd yükünü atıb yuvamda
ocaq qaladım,
İlahi, eşq bulağından axar
könlümə ruzular?!

## ANA OLURAM MİSRALARIMA

Yollar çox yordu məni,
and içdim ayaqlarıma,
daha qəmə bulaşdırmayacam
izlərimi.
Köçürəm kədərin villasından,
bir sevinc daxması tikdim ruhuma.
Qollarımı boşluq zindanından azad edirəm,
qucaqlayıram özümü.
Ölməkmi?
Nə ölmək, yaşamaq lazım, yaşamaq!
Ulduzların öpüşünü təbəssüm
edirəm dodaqlarıma,
bu gecə ay da eşqlə baxır gözümə,
göy üzü ritmini tutur xoşbəxtliyin.
Bəyaz gəlinlik geyinir hisslərim,
duyğularımdan sevgi doğulur,
bətni sevinir ruhumun,
ana oluram misralarıma...

## SƏN EY İLAHİ ADAM…

Cəhənnəmdi hər səhər
yoxluğunla oyanmaq,
əllərini arayıb boşa çıxmaq zülümdü.
Bu kədərlə nə etsəm, olmur
"diri" dayanmaq,
bu ayrılıq deyil ki, bu, bildiyin ölümdü...

Yolları yadırğayan izə dönüb gözlərim,
çəkilib uzaqlara, su səpir yanağıma.
Elə taqətdən düşüb qollarınsız dizlərim,
cavab verə bilmirəm özümün qınağıma.

Qorxuram son nəfəsdə adını sayıqlayam,
diksinib xatirələr dualara qarışa.
Yalanları adlayıb, gerçəyi ayaqlayam,
əcəlin barmaqları xəyalınla yarışa.

Yaddaşına sığal çək, gözləyənin var burda,
ruhum əsir üstünə,
duymursanmı, sevdiyim?
Qubarında boğulan bu ürək qalıb darda,
Sən ey ilahi adam, sən ey evim dediyim!..

## BARMAQLARIMIN MATƏM SƏSİ...

Ən çox barmaqlarım ağladı
yazılmayan misralara.
Qəfil yaxalandı rütubətin
analıq bəxş etdiyi hüceyrələrə.
Dərd süzülən ovcumda
ağrısını ovudardı, bəlkə də,
ruhumda qırılan səs öldürdü
şeirini itirən barmaqlarımı.
Kötük yükü çəkir indi
qələmə yadlaşan barmaqlarım.
Duyğularım havada asılı qalır,
ağ vərəq kəfən olur çiliklənən hecalara.
"Toppuşluq yaraşır əllərimə" təsəllisi,
bir dəqiqəyə məğlub olur gözlərimə.
Göyərmiş dırnaqlarımın rəng boyası
su dəyənəcəndi əllərimə.
Ümidlərin "bəlkə" qışqırığı
bətninə inam salır çarəsizliyin,
susur gecənin üzünə
barmaqlarımın matəm səsi...

## BİLMƏZSƏN...

Bir az unutqanlıq səpələnər çiyinlərinə,
unudarsan saçlarımın
döyüş bölgəsində olduğunu,
xatırlamaszan ayaqlarımın yerimədiyini.
Əllərində aha çevrilər dilində
susan kəlmələr...
gözlərindən gilə-gilə ayrılıq tökülər.

Bir az sıyrılmış dizimin qanı qorxudar səni,
heyfin gələr göyərmiş dodaqlarıma.
Köz arayarsan atəşin söndüyü yerdə,
qığılcıma sarılan hisslərin
yaddaşsız doğular,
bilməzsən, ocaq öpüşündən alovlanar....

Bir az yağışa düşər baxışların,
yanaqlarımın yaşında isladarsan
kirpiklərini.
İtirərsən qollarını boynumda,
sığınar köksünə ürək döyüntülərim,
unudarsan bunun qucaqlamaq olduğunu...

Bir az aynalarda əksini axtararsan,
üşüdər könlünü yoxluq havası...
Hənirti arayarsan sükut notunda,
pıçıltılar aldadar qulaqlarını...
Duymazsan ruhumun "əlvida"sını,
bilməzsən getdiyimi, bilməzsən öldüyümü...

## BİR QARA ƏL OYNAYIR SEVİNCİMİN İÇİNDƏ

Ayrılıqdan vüsala salınıb bu körpülər,
Eh... hələ də uzaqlar yetimlik çəkir orda.
Qorxuram bu yolların etibarı qırıla,
Həsrət yerin bərkidir, təzə ev tikir burda...

Körpülərin tağları qırıq bəndə söykənib,
Bir qara əl oynayır sevincimin içində.
Gün təzə boylanırdı, duman özün yetirdi,
Yenə yollar üşüyür yiyəsizlik biçimdə.

Bir talesiz yurd orda, üstü kədər örtüklü,
Bəxt güzgüsü çatlamış gəlin ömrüdü ömrü.
Çırağının nefti yox, suyu başdan bulanıb,
Ocağı közsüz qalıb, oğurlanıb kömürü.

Şeytan quyruq bulayır tüstüsüz bacasında,
Qapısında iblisin nökərləri yallanır.
İlahi göydən baxıb nə düşünür, görəsən, –
O yurdun adamları yenə nəyə aldanır?!

Yenə savaş oxuyur meşələrdən gələn səs,
Səbri daha dar gəlir bu torpağın əyninə.
Ağaclar qulağını söykəyib qayalara,
Güllələrin səsini həkk eləyir beyninə...

## YIXILMAZDI ÜRƏYİMDƏN ADAMLAR

Bircə adam saxlayaydın gözümdə,
Kiçiltməzdin ucaltdığım "dağlar"ı.
Bircə ümid, bircə inam, tək güvən...
Qaraltmazdın dürr bildiyim "ağlar"ı.

Gətirməzdin gözlərimə payızı,
Başlamazdı yarpaq-yarpaq xəzanlar,
Yalanına bulaşmazdı taleyim,
Yıxılmazdı ürəyimdən adamlar.

O qadın da yalançıymış, İlahi,
Aldandım şeytanın mələk üzünə.
İblisiymiş, qaranlığın Allahı
İşıq kimi görünürmüş gözümə.

O adam da babasıymış günahın,
Savab bilib yar seçmişəm özümə.
Düz sözəydi apardığım pənahım
Güvəndim... aldandım kişi sözünə.

Bircə adam saxlayaydın gözümdə,
Bircə ümid, bircə inam, tək güvən...

## MƏNİM ÜRƏYİM

Mənim ürəyim sənin ürəyin kimi
çoxotaqlı varlı mənzilinə bənzəməz.
Biradamlıq çarpayıda nəfəsini bölüşən
iki aşiqin eşq hərarəti var mənim ürəyimdə.
Yaşanmayan ev kimi ölü, nəfəs toxunmayan
pəncərə kimi cansız deyil mənim ürəyim.

Mənim ürəyimin divarları sevgidən hörülüb
içində olanlar sevgiylə qorunur.
Kasıb komalarının köhnəlmiş damından
yağış daman kimi
göz yaşı damar, ağrı damar mənim
ürəyimdən hərdən.

Mənim ürəyim üç-beş dost
sığacaq qədər geniş,
əzablarını içində boğacaq qədər dardı.
Ucsuz-bucaqsız çöllərə layla çalan
qatarlar kimi,
mənim də ürəyimin öz laylası var,
sevgidən başlanır, sevgidə bitir bütün notlar.

Birnəfərlik kupe kimidi mənim ürəyim,
bileti əlində qalar, keçməyə həddi olmaz
hansısa sərnişinin...
Sən o balaca otağa necə sığmısan, bilmirəm,
rahatca gəzib dolaşırsan künc-bucağında.
"Zəbt etdiyin" bütünümün evi, yaşamağa
davam yeri olmusan.

Mənim ürəyimin mətbəxi, dincəlmək,
yemək hücrəsi
divarlarına hörülən sən adlı
sevda çırağıyla işıqlanır,
acanda xatirələrdən süfrə qurur,
hər xatirənin yanına şeir düzür çörək əvəzi.

Hər gecə yuxuları aldadıb ürəyimə köçürəm,
səliqəyə salıram dağınıq eşq süfrəsini,
gündüz tökdüklərimi yığıram öz yerinə.
Sonra öpüb gözündən enirəm yatağıma,
gecə də layla çalır dizlərində uyuyan
o bəxtəvər qadına...





**Mübariz CƏFƏRLİ**

# OYANMA

*Kərtənkələlərə...*

Yataq otağınının tavanındakı çilçırağın səkkiz lampasından bircəciyinin işığı yanır. Taxtda yanaşı uzanmış cavan kişi və qadın yatmayıb. Kişi əllərini başının altında çarpazlayıb diqqətlə yuxarı baxır, qadın yerinin içində dikəlib taxtın yanındakı beşikdə uyuyan körpəyə nəzər salır və uşağın dünyadan xəbərsiz yatdığına bir daha əmin olunca özü də başını yastığa qoyur.

– Bəlkə, bir çay gətirəsən? – kişi gözlərini tavandan çəkib qadına çəpəki baxır.

– Gətirməyəcəm... – hikkədən çox şıltaqlıq, qayğısızlıq duyulur qadının səsində. – Qoy o gətirsin...

– Başlama yenə... Ucundan tutub ucuzluğa getmə... O, mənim keçmiş nişanlımdı... Özün hər şeyi yaxşı bilirsən axı... Hərdənbir zəngləşirik, bayramdan-bayrama, təsadüfən görüşürük...

– O zəng eləyir, ya sən?

– O da, mən də... Ad günümüzdə birbirimizi heç olmasa telefonla təbrik eləyirik... Burda nə var ki? Düşmən-zad deyilik axı...

– Təsadüfən də görüşmək olar?

– Şəhər fındıq boydadı də, neyləyim?.. İndi mən durub sənə yalan deyəcəm? Ya elə bilirsən, sənin yerini keçmişdən gələn kimsə tuta bilər?.. Keçmiş keçib gedib, sənnənsə yoxdu... – kişi qadının qara saçlarını sığalladı.

– Bu istidə neynirsən e çayı? – qadın deyinə-deyinə ağ bayrağı qaldırdı. – Yaxşı, indi gedib qoyaram çayı qızmağa... – desə də, qalxmayıb yanındakına qısıldı. – Amma əvvəlcə ondan danış...

– Kimdən?

– Keçmiş nişanlından... Necə oldu ki, ayrıldız?

– Yüz dəfə danışmışam... O, məndən varlısına rast gəldi, nişanı qaytarıb başqasına getdi, vəssalam... Dedi ki, məni düzgün başa düş, mən atasız, çətinliklə böyümüşəm, çox əzab-əziyyət çəkmişəm, indi qabağıma dövlətli bir adam çıxıb, yəqin, bu, mənim qismətimdi, şansımdı ki, day ömrümün axırınacan kasıb yaşamayım...

– Sən də heç nə demədin ona?

– Nə deyəydim? Gedənin yolunu kəsəydim? Ya yalvarıb ayaqlarına düşəydim? Əslində, onun açıq danışmağı xoşuma gəldi... Dost kimi ayrıldıq.

İnanmıram, sən kasıb-zad idin bəyəm?

– Eh, mən kiməm ki... Ərə getdiyi kişi çox varlı idi... Mal-mülkünün sayı-hesabı yoxdu. Bir də ki nə qədər pul-para yığırsan-yığ, adamın nəfsi ac olanda var-dövlətdən doymur...

– Bəs ərindən niyə ayrıldı? Sənə görə?..

– Yox... Bu hardan ağlına gəldi?.. Bəlkə də, harınlıqdan... Əri indiyəcən qoymur qızı ilə o korluq çəksin, hər şərait yaradıb onlara, ayrılsalar da, bir əli arvadı ilə qızının üstündədi...

– Yaxşı, gəl bir-birimizə keçmişimizdən danışaq... Əvvəl sən başla, sonra mən...

– Oho!.. Sağ ol... Qara qızın dərdi varmış...

Yəni sənin də həyatında kimsə olub?.. – kişinin gözləri bərəldi.

– Yavaş danış, güclə yatızdırmışam, uşaq oyansa, səhərəcən ağlayacaq... – əli ilə yanındakının ağzını tutdu. – Niyə olmayıb, mən adam deyiləm? Məni də o qədər oğlan istəyib ki... Mən korolmuş da aləmin gözünü çıxardıb səni seçmişəm... Düz deyiblər e, sevənin gözləri kor olur... Hə, başla...

– Nədən başlayım?..

– Nəyini sevirdin onun? Görmüşəm də, uzundırazın biridi, zürafəyə oxşayır...

– Nə bilim... Mənim istədiklərim həmişə boy-buxunlu olub... Elə sən özün də məndən hündürsən...

– Allah boy-buxun paylayanda sən dala qalmısan də...

– Mən dala qalmamışam e, siz qabağa qaçmısız...

– Hə, düzünü de, sənə görə ərindən boşandı o?

– Mən hardan bilim... Mənə görə niyə?.. Özü dedi ki, bir dəfə ərim nəyə görəsə hirslənib qızımı vurdu mənim yanımda... Ona görə ürəyim sındı... Çünki o vaxtacan o uşağa heç kəs əl qaldırmamışdı, o uşaq bizə çox güvənirdi. Ağlına gətirmirdi ki, haçansa, kimsə onu vura bilər, vurmaq nədi, onun üstünə çımxıra bilər, qışqıra bilər... Bəlkə, elə ona görə çox ağladı ilk dəfə atası onu vuranda... Kiridə bilmirdim onu. Yavaşca vurmuşdu uşağın başına... Hansı ata öz uşağını bərk vurar axı? Uşaqsa ağladıqca ağlayırdı... Yəqin, ağrıya görə yox, güvəncinin iki paralıq olmağına görə kiriməк bilmirdi, canım qurban... Mən də elə ordaca sildim ərimi, sonralar neçə dəfə ayağıma düşüb yalvarsa da, bağışlaya bilmədim onu...

– Hə... – qadın fikirli-fikirli beşiyə baxdı. – Sən mənim uşağımı vurarsan? Qıyarsan bu balacanı vurmağa?

– O sənin niyə olur, dədən evindən gətirmisən? O, bizim uşaqdı... – kişi qadının səhvini düzəltdi. – Siz arvadlar nə vasvası olmusuz, uşağı vuranda qızılı gedir? Biz özümüz döyülə-döyülə böyüməmişik?.. Yadımdadı, bir dəfə məhəllə uşaqlarına qoşulub siqaret çəkmişdim, ağzımdan iy gəldiyindən atam bildi məsələni. Kişi mənə bir şillə vurdu, düz bir ay sol qulağımın uğultusundan düzəməlli heç nə eşidə bilmədim...

– Neçə ildi şəhərdə yaşayırsan, ancaq kədçisən ki kədçi... – qadın acıqlanmaq istəsə də, gülümsündü. – Axırıncı dəfə haçan görmüsən onu? Bax, düzünü de, yoxsa çayzad gətirməyəcəm...

– Bir ay olar... Maşınımı palirovkaya vermişdim, piyada idim. Onda... Yolun qırağında dayanıb taksi gözləyirdim. Qəfil qarşımda saxladı maşını ki, hara gedirsən, otur aparım... Oturmaq istəmirdim...

– Gopa basma... – qadın onun sözünü kəsdi.

– Vallah! – kişi ürəkdən and-aman elədi.

– Yavaş danış, uşaq durar... – qadın çəkinə-çəkinə beşiyə baxdı. – Niyə oturmaq istəmirdin?

– Bilirdim ki, forsundan, özünü göstərmək üçün maşını dəli kimi sürəcək. Allah eləməmiş, bir şey olsaydı, yox yerdən, mən özüm də əzilib xəşilə dönərdim...

Qorxaq... – qadın xısın-xısın güldü.

– Gülmə... Qurban olum ağlıma, zaman göstərdi ki, elə düz fikirləşmişəm...

– Necə yəni? Qəza oldu? – qadın maraqla qulaqlarını şəklədi.

– Yox... Heç beş addım getməmişdik ki, yol polisi maşını saxladı. Dedi ki, xanım, asta sürün maşını, ehtiyatlı olun, qəza şəraiti yaratmayın... Ağsaç, nurlu bir kişi idi yol polisi. Onun sürücülük vəsiqəsindəki səklinə baxıb qəfil qayıtdı ki, xanım, siz Əhməd Əhmədovun qızısız? O da başını tərpətdi ki, hə... Yol polisinin çöhrəsi kölgələndi, kədərli-kədərli: “Yaxşı yol,” – deyib bizi yola saldı.

– Əhməd Əhmədov kim idi ki?

– Onun atası... Amma atası çoxdan ölmüşdü. O balaca olanda... Nə isə, məəttəl qalmalı iş idi...

– Söhbəti fırladıb sözünün canını demədin e...

– Nəyi demədim?

– Onun nəyini sevirdin?..

– Bilmirəm... – kişi çiyinlərini çəkib anicə fikrə getdi. – Çox hazırcavab idi...



– Məsələn...
– Nə məsələn?..
– Bir misal çək də onun hazırcavab olmağından...
– Maşında gələ-gələ zarafata saldım ki, elə bizim evlənməməyimiz yaxşı oldu... Səninlə evlənsəydim, mən maşın sürə bilməyəcəkdim...
– Hə, hamı mənim kimi dilsiz-ağızsız deyil ki... – qadın gileylənib özünü bilici kimi göstərmək istədi. – Maşını alacaqdı da sənin əlindən...
– Bax sən belə fikirləşirsən, o isə elə o saat qəhqəhə çəkib tamam başqa çür cavab verdi...
– Nə dedi?
– Dedi ki, elədi, buynuzların qoymayacaqdı səni maşına oturmağa... Maşın sürmək cəhənnəm, gərək metroya, avtobusa da ehtiyatla minəydin...
– Aaa... – qadın heyrətləndi və dodaqları qaçdı.
– İndi də sən öz keçmişindən danış...
– Nə keçmiş? – qadın başa düşmədi.
– Şərtləşdik axı, əvvəlcə mən danışacam, sonra sən...
– Eee... Sənin dediklərinin çoxunu bilsəm də, özüm səni danışdırmaq üçün elə deyirdim, mən sənin tayın deyiləm ki... Mənim keçmişimdə heç nə olmayıb... – qadın əlini yelləyib cəld dikəldi. – Əl çək, gedirəm çayı qoymağa...
– Gərək vaxt eləyib sənə maşın sürməyi öyrədəm, – kişi astaca mızıldandı.
– Çoxdan öyrətməli idin... Axır ki, mən deyənə gəlirsən, – taxtdan düşmək istəyəndə duruxub sevinclə dilləndi.
– Elə əsl məqamı indidi... Başqa çarəm yoxdu, başım qaşınır yaman...
– Başın bura nə dəxli? – qadın anlamadı. – Dünən çimmisən ki, başın kirlidisə, get gir hamama, saçlarını yu də.
– Yox, mənimki çimməkdən keçib... Deyəsən, buynuzlarım çıxır mənim...
...Qadın lapdan qəhqəhə çəkdi, beşikdəki körpə diksinib oyandı və bərkdən ağlamağa başladı...

# CÜMLƏ QURMAQ DÖVLƏT QURMAQ QƏDƏR ÇƏTİNDİR...



**Seyran SƏXAVƏT**

Nala-mıxa vurmadan birbaşa mətləbə keçək. Dilin ən qaynar yerindən, kəndlinin televiziyaya verdiyi kiçik müsahibədən:

– Telefonuma zəng daxil oldu, telefonumu açdım, telefonumda mənim nəzərimə çatdırdılar ki, anam avtomobil qəzasında iştirak eləyib. Mən qəzada anamın iştirak etdiyi yerə tələsdim, orda anama baxış keçirdim, anamın üzərində təcili yardım həyata keçirdəndən sonra o dirçəlməyə doğru getdi...

Bu, Azərbaycan kəndinin dili deyil və Azərbaycan kəndinin dili deyilsə, deməli, Azərbaycan dili də deyil. Bəs onda nədi?

Bu, Azərbaycan televiziya məkanının dilidi – evlərimizin ən üzlü qonağı olan televiziyanın.

Qəzaya düşmüş anası haqqında müsahibə verən bu kəndli kişi kameranı görəndə kim olduğunu, harda doğulduğunu, hal-hazırda harda yaşadığını tam unudur, televiziya dilində, sığallı-tumarlı, ənlik-kirşanlı, təngnəfəs yarımcan cümlələrlə danışmağa başlayır, o da bizim televiziya məkanı kimi mədəni, təmtəraqlı görünmək istəyir.

Kənddən başqa bir müsahibə:

– Durduğum yerdə maşınımın arxa nahiyəsindən həmlə edərək maşınımın arxa nahiyəsini əzdi, mən də maddi ziyana düşdüm, maşınımın orası da maddi ziyana düşdü...

Şərhsiz...

Uzun sözün qısası: Ölkəmizdə fəaliyyət göstərən televiziyaların "qayğısı və diqqəti" sayəsində Azərbaycan dili elə bir vəziyyətə gəlib çatıb ki, bu dildə ara vermədən iki saat danışarsan və heç nə deməyə bilərsən – bu, əsl dəhşətdir: danışırsan, danışırsan və heç nə demirsən – söz yığnağı. İkinci Dünya müharibəsində konslagerlərdə insanlar üzərində aparılan amansız təcrübələri xatırlamalı oldum. Yumşaq desək, televiziya kanalları Azərbaycan dilinin varlığında görünməmiş "cərrahiyyə əməliyyatları" aparmaqla onu zəiflədir, nəticədə dilin "astması" diaqnozu ilə üzbəüz qalırıq.

Dünyanın hər yerində dilin yaradanı, cilalayanı, inkişaf etdirib qoruyanı xalqdı

- əgər xalq öz dilini, dərinə getsək, özünü unudub televiziya dilində danışmağa başladısa, bu, başlanğıc deyil, sondur.

Şifahi xalq ədəbiyyatı ilə azdan-çoxdan qaynayıb-qarışmış biri kimi deyə bilərəm ki, adamları göyün yeddi qatına qaldıran alqışlar olduğu kimi, insanların yeddi qatından keçən qarğışlar da var. Ah-nalənin müşayiətilə kitablardan oxuduğum, eşitdiyim, insanı bütün varlığıyla silkələyən, silkələyəndə dəymişi dura-dura adamın kalını tökən qarğışları sadalamaq fikrim yoxdu. Ancaq onu deməliyəm ki, bu qarğışların içində ən dəhşətlisi ikicə kəlmədən ibarətdir:

– Dilin qurusun!

Dilimizə kim qarğış eləyib – bizə ancaq etiraz eləmək qalır:

– Ağzından çıxsın, qoynuna düşsün.

Ölkəmizdə müəllimləri, həkimləri, hətta mollaları da attestasiyadan keçirirlər. Bəs televiziya işçilərini niyə söz azadlığı adı altında özbaşına qoymuşuq? Ümumiyyətlə, dövlət dilimizə – ana dilimizlə bağlı münasibətdə ölünü də özbaşına qoymaq olmaz, yoxsa kəfəni yırtıb çıxar və bir də görərik ki, bu ölülər dünyanın hər yerindən boy verib görünən, nəhəng Palıd ağacının – Azərbaycan dilinin dibinə neft tökürlər ki, qurusun, bilərəkdən, ya bilməyərəkdən – fərq etməz. Bizim kəndlərin birində dalaşan iki nəfərin biri gecə ilə qonşunun bağındakı ağacların dibinə neft töküb onları qurutmuşdu.

Hər yoldan ötəni gətirib ona ekran etibar eləyəndə o da özü kimi üzdəniraqları qonaq sifəti ilə (təbii ki, hamıya aid deyil) dəvət edib Azərbaycan dili ilə mazaqlaşacaqdı də. Onlar hardan bilsin ki, cümlə qurmaq dövlət qurmaq qədər çətindir.

Ölkəmizdə Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutu (Nəsimidən ayıbdı axı...) və mənim aləmimdə bu işlərə birbaşa cavabdeh olan Milli Teleradio Şurası var. Özü də hər iki təşkilatın adının əvvəlində Milli... Milli... Bu, milli olmadı ki, cənablar. Bəs siz hara baxırsınız?.. Sizlərin bu gün hara baxdığını dəqiq bilməsəm də, deyərdim ki, zəhmət olmasa, dövlət başçısına tərəf baxın...

Prezident İlham Əliyev noyabrın 1-də Azərbaycan dilinin qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında fərman imzalayıb. Yeri gəlmişkən, deyək ki, belə sənədin imzalanması ilk deyil, yəqin ki, axırıncı da olmayacaq. Dilimizin saflığının ən yüksək səviyyədə dəstəklənməsi sevindirir, ancaq gəlin görək bu sevinci ürək dolusu yaşaya bilirikmi? Cavab xeyli qəlizdir və qəlizləşə-qəlizləşə də gedir. Bizim borcumuz bu gedişatın qarşısını almaqdır. Bu mənada, altmış ilə yaxın Azərbaycan diliylə işləyən bir adam kimi, öz narahatlığımı, istəyimi sizinlə bölüşmək istəyirəm.

Birinci növbədə, Azərbaycan dilinin kövrək ərazisinə diqqət yetirsək, vəziyyətin ürəkaçan olmadığını görəcəyik. Əgər siz də mən baxan tərəfdən baxsanız, qarşınızda nəhəng döyüş meydançasını xatırladan bir görüntü açılacaq: mühasirədə qalan və mühasirəyə alanlar.

Gəlin hər şeyi öz adı ilə deyək: mühasirədə qalan Azərbaycan dilidir. Mühasirəyə alanlar isə aşağıdakılardır:

1. Televiziyalar.
2. Radiolar.
3. Saytlar.
4. Mətbuat.

Və bu dördlüyün içində saysız-hesabsız verilişlər, məqalələr, tərcümə olunmuş filmlər, təzə çəkilmiş milli seriallar, reklamlar, idman şərhçiləri, rusdilli azərbaycanlılar, hüquq-mühafizə orqanlarının dili, tibb işçilərinin dili, bəzi yüksək çinli məmurlar, xarici dillərdən gələn sözlər, Türkiyə türkcəsindən gəlmələr, mahnı sözləri, bəzi orta məktəb dərslikləri, prezident fərmanı ilə çap olunmuş nağıl kitabları və s.

Və yuxarıdakı dördlüyün içində sadaladıqlarımın içində də saymaq istəmədiyim saysız-hesabsız nüanslar...

Sözümün canı odur ki, bu mühasirəni yarmaq çox çətin olacaq.

İndi isə Azərbaycan dilinin ağır vəziyyətdə olduğuna sizləri inandırmaq üçün keçək faktlara. Aldı görək televiziyalarımız nə dedi:

– Soyğunçuluğa imza atmış oğrular.

Belə çıxır ki, oğrular heç kəsə məlum olmayan qanun-qayda ilə soyğunçuluq eləyəndən sonra bu məsələni sənədləşdirir və altına da imza atırlar ki, bəli, oğru bizik. Heç elə də şey olar? Dünyanın heç yerində görünməyən məntiqsizlik zirvəsi.

– Səhər yeməyini həyata keçirmək...

Sözüm yoxdu.

– Yanğınsöndürənlər alova müdaxilə etdilər.

Sözüm yoxdu.

– Verilişimiz gözəl baş tutdu.

Ümumiyyətlə, "baş tutdu" sözündən birdəfəlik imtina etmək lazımdır, çünki bu söz birləşməsi mini təxribatdır, dilimiz bunsuz da yaşıya bilər.

– Güllələrə məruz qalerıx.

Bunu da televiziya dilində danışmaq istəyən xalq deyir.

– Messi rəqiblə toqquşub yerə yıxıldı.

Mən bu yaşa gəlmişəm, kiminsə göyə yıxılmağını eşitməmişəm.

– Havanın hərarəti (istiliyi) müsbət (isti) otuz iki dərəcə isti təşkil edəcək.

– Külək topun hərəkətlənməsinə səbəb olur.

– Tualet təmizləməkdə güclü mütəxəssis (təmizləyici toz nəzərdə tutulur).

– Jüri finalının biletləri satılacaq.

Jüri finalı nə deməkdi axı?..

– Sahibsiz it məktəbdən gələn uşağı dişlədi.

İt dişləmir, tutur.

– Həyətində işləyən altmış yaşlı qadını ilan sancdı.

İlan ağcaqanad deyil ki, sancsın - ilan vurur.

– Camaatı təxliyyə etdilər.

Köçürdülər.

– Əmək tutumu işlər.

-?

– Görüşün referesi serbiyalı hakim.

Refere – hakim, ikisi də bir sözdü.

– Marallar çox tez hamilə olur.

Hamilə qadınlar olur, heyvanlar boğaz olur.

– Axtarışı həyata keçirirlər.

Televiziya məkanında "həyata keçirmək" sözünün bəxti açılmaq bilmir ki, bilmir.

– Çoxlu izdiham gördük.

İzdiham elə çoxluq deməkdi (adam çoxluğu), əgər belədirsə "çoxlu izdiham" nə deməkdi, hansı dildədi?

– Qapımızdan gətirdiyimiz toyuğu, hinduşqanı ucuz qiymətə xalqa təqdim edirik.

Bu nə təqdimat mərasimidi axı? Yuxarıdakı sözləri kənddən yarmarkaya gəlmiş adam deyir.

– Balıq dadmayan balıq yağı.

-?

– Üstdad kolbasaları...

Üst, orta və alt dad olmur – dad olur, ya da olmur.

– Yaxşı, bərpa olub qurtardın?

Bir kinofilmdən – demək istəyir ki, özünə gəldin?

– Topu (futbol) başla tora yerləşdirdi.

– ?

– Hərarət (istilik) doqquz dərəcə şaxta olacaq.

-?

– Evakuator maşını cərimə meydançasına daşıdı.

Daşıdı yox, apardı. Daşımaq başqa şeydi.

– Hava şəraiti yağmursuz keçəcək.

Hava yağmursuz olacaq.

– Ukraynada əkiz öküzlər dünyaya gəldi.

İnəklər öküz doğa bilməz axı, buzov doğar.

– ?

– Duş qəbul eləyin.

Duşun, yaxud suyun altına girin. Duş yüksək çinli dövlət məmuru deyil ki, onu qəbul edək.

– Ən çox qanun pozuntusunu pozan televiziya...

Nə deməkdi? Adamın yadına "Tarixi- Nadir" kitabı düşür.

– Hərarət mənfi on dörd dərəcə şaxta olacaq.

– ?

– Göbələk toplamalıyam...

Göbələyi yığarlar, adamları bir yerə toplayarlar.

– Eynəyi geyin.

Paltarı geyinərlər, eynəyi isə taxarlar.

– Lui Vanqal jurnalistlərin üzr istəmələrini istəmişdi.

"İstəmək" sözünə elə yazığım gəldi ki...

– 183 ölkənin xarici vətəndaşları.

Nə deməkdi?

– Bizə nahar ver.

"Yemək ver" sözünü qoyub heç vaxt "bizə nahar ver" demirlər.

– Eskalator çalışır.

Çalışmır, işləyir – çalışmaq adama aiddi.

– Bizə öz əlində silah tutmağı bacaran...

"Əli silah tutan" demək istəyir.

– İndi həmin qolu izləyəcəyik.

İzləmək uzun prosesdi, indiki halda "görəcəyik" olmalıdı.

– Hər bütün bir idman növünü göstərirsiniz.

– ?

Bir idmançının televiziya çıxışından.

– Hər sezonda 100-150 nəfər uşaqlar.

-?

Diz ayaqda ən incə, ən zərif yerdir.

-?

– Vitali Kryuçkaya şillə endirdi.

-?

– Top qapıya daxil oldu.

Qoool...

– Rəqib oyunçunun komanda yoldaşına ötürdüyü topu qarşılaya bilmədi.

Adamı qarşılayarlar, topu alarlar.

Qarşılamaqla bağlı bir əcaib söz birləşməsi də dəbdədi indi: ehtiyacını qarşılamaq.

– ?

– Messi topu ələ keçirdi.

Bu, voleybol deyil, futboldu. Ona görə də Messi topu ələ keçirmədi, aldı. Hörmətli futbol şərhçisi, sən: "Messi topu ayağına keçirdi" də deyə bilərsən.

– Komandaların görüşməsi baş verdi.

– ?

– Rəqib qapısına vurulan toplarda Ronaldo böyük pay sahibidi.

Pay başqa şeydi.

– Qapıçı topu tutmaq üçün uzandı.

Nə təhər məsləhətdi.

– Yaşadığı haqda arayış gətirməlidi.

Söhbət harda qeydiyyatda olmaqdan getmir; sadəcə, arayış gətirirsən ki, al bax, mən yaşayıram, sağam.

– Köhnə təyyarələr təqaüdə göndərilməlidir.

– ?

– Digər informasiyalar nəqliyyat nazirliyinin qabağına nəzər yetirdik.

– ?

– Hücumçu topu ram etdi.

– ?

– Lakin bəzi bölgələrdə havanın yağmurlu keçəcəyi burda da gözlənilir.

-?

– Vəhşi öküzü ram etmək kimə qismət olacaq.

Topu da ram eləyirik, vəhşi öküzü də. Doğrudanmı vəhşi öküzlə futbol topu arasında heç bir fərq yoxdu?..

– Bu məsələ bu gün həll olmasa, qalacaq balalara. Bu torpaq bizim olub mənasız savaşlardan qabaq.

Vətənpərvərlik haqqında dinlədiyim mahnının sözlərinə fikir verin:

– İcazə versəydiniz, özümü sizin gücə etibar etmək istəyirəm.

Səkkiz sözün əvəzinə dörd söz: sizə arxayın olmaq istəyirəm.

– Bu inəklər Hindistanda onların allahlarından biri hesab olunur.

– ?

– Vəhşi öküz zənciri açıb getdi.

Vəhşi öküz zənciri qıra bilər, aça bilməz, çünki açmaq üçün əl lazımdı- öküzlərin əli olmur.

– Üç xal məsafəsini saxlaya bilmir.

Azərbaycanca deyil.

– Şaşkova (voleybol) topu oyuna daxil edir.

– ?

– Voleybol salonunda azarkeşlər özlərinə yer tapmırlar, atılıb- düşürlər.

Nə deməkdi?

– Bizə zəng edən zəng müəlliflərinin, zəng sahiblərinin adlarını çəkməyin məqamı yetmişdi.

Kasıblığın, dayazlığın, mənasızlığın dərəcəsinə fikir verdinizmi?

– Məşqçi dəyişikliyi baş verib.

– ?

– Tərəfimizdən cinayət işi açılmışdır.

Cinayət işi açılmışdır.

– Öküzü tutmağın yolunu düzgün təmin etməmişdilər.

– ?

– Qaraçuxur gölü çərçivələrini aşıb.

– ?

– Soyuqla mübarizə aparmaq üçün...

Soyuqla mübarizə aparmaq nə deməkdi? Mübarizə aparmaq çox böyük anlamdı axı...

– Sağlam və güclü saçlar...

-?

– İsti geyim əşyaları.

– ?

– Minlərlə baş mal-qara tələf olub.

– ?

– Aralı qulaqlar.

Nə deyək?

– Xocalı soyqırımı məsələsini gündəmə gətirmək məsələsi.

– ?

– Bir-birimizi səfər etmək.

– ?

– Ağappaq qar örtüyü ilə örtülüb.

– ?

– Xəzərin Mahaçqaladan keçən hissəsi donub.

Xəzər çay deyil ki, Mahaçqaladan keçsin.

– Komandaların səviyyəsi yüksək səviyyədədir.

Komandaların səviyyəsi yüksəkdir.

– Komandanın qələbəsini rəsmiləşdirdi.

Bütün qələbələr rəsmidir də, qeyri-rəsmi qələbə olmur ki...

– Məsələyə münasibət bildirən Abdulla Gül bildirib ki...

– ?

– Dəniz suları buz içindədi.

Xeyir, buz dəniz suyunun içindədi.

– Onun keçid yolunu keçən ikinci bir adam yoxdu.

– ?

– İlin sonunda nəzərdə tutulması gözlənilir.

– ?

– Komandanın ən iri qələbəsi.

– ?

– Bataqlıqlar qəribə səslərlə doludur (Vatson)

– ?

– Mən bir çox uğurlara imza atmışam.

– ?

– Ətləri (əti) basdırma eləmisiniz? Apteki fəaliyyətə salacaqlar. Şəxsi münasibətlər zəminində. Elə bir mahnılar. İşıqların yanması həllini tapacaq. Liftin işləməsini həyata keçirəcəyik. Adamlarda məlumatlılıq yoxdu. Presedent olmayan çap hadisəsi baş vermişdi. Kəpəyə qarşı çempion... və ilaxır və sair.

Bu cür misalların sayını nə qədər desən, uzatmaq olar, nəticədə çox uzuuun bir yol alınar – lap elə burdan Şuşaya qədər...

Bütün bunlar hələ mənim 2011-ci ildə televiziyadan bir ay, ay yarım müddətində ara-sıra götürdüyüm qeydlərdi. Özünüz hesabınızı götürün də... Orasını da deyim ki, dilimizi güvə kimi yeyən bu cür faktların, hansı ayın neçəsində, hansı televiziyanın hansı verilişində, saat neçədə və kim tərəfindən efirə getməsi də məlumdur. Dilimizin xətrinə, zərurət yaransa, onu da açıqlaya bilərik. Həmin il fevral ayının 20-də Az.TV-də göstərilən "Şerlok Xolms" filmindən bir cümlənin tərcüməsinə fikir verin: Görəsən, bu şəraitdə sualtı qayıq tikmək olarmı?

Yaxud fevralın 21-də "İdman" kanalında Saraqoza – Real Betis futbol komandalarının görüşündə şərhçi deyir: "Bu hücum öz inkişafını tapa bilmədi". Cümlədə altı söz işlənib, halbuki ordakı fikri iki sözlə də ifadə etmək olar: hücum alınmadı. Demək istəyirəm ki, cümləni yerli-yersiz sözlərlə həddindən artıq ağırlaşdırmaq, yükləmək olmaz. Elektrik naqillərini həddindən artıq yükləyəndə qısaqapanma yaranır. Cümlə də dilin naqilidi, onu da həddindən artıq yükləyəndə qısaqapanma yaranır – Dilin qısaqapanması. Və bütün fəsadlar da bundan sonra boy verir – necə deyərlər, süni mayalanma yolu ilə eybəcər, şikəst, müs-

tər və xəstə cümlələrin döl kampaniyası dilimizin ərazisində hökmranlıq eləyir. Mənim fikrimcə, cümlələrin belə dağıdıcı döl kampaniyasının Baş Qərargahı Azərbaycan televiziya məkanıdır. Ən azı ona görə ki, yuxarıda sadaladığımız saysız-hesabsız faktların hamısı yalnız televiziya məkanından götürülüb və radiolardan, saytlardan, yazılı mətbuatdan götürdüyümüz faktları bu yazıya əlavə etməmişik.

Bu cür vəziyyətdə dil doğub-törəməz olur. Doğub-törəməz dil isə sonsuz qadınlar kimidir, nəsil yavaş-yavaş itir. İnsanın nəsli itdiyi kimi, belə demək mümkündürsə, dilin də nəsli itir. Çünki dil insan deməkdir. Çünki insan dil deməkdir. Dildəki bütün xüsusiyyətlər insanda, insandakı bütün xüsusiyyətlər dildədir.

Dili qorumağın ən real yolu onu korlamamaqdır. Əgər korlamasaq, dilin özünü qorumaq instinkti – cəhdi daha da güclənər və gəlib bu vəziyyətə düşməz.

Azərbaycan dilini çox zəif bilən, ingilis dilində bülbül kimi cəh-cəh vuran adam ən yaxşı halda yarımingilis və dörddə bir azərbaycanlıdır. Bu həm də demoqrafik məsələdir. Çünki sən mənən azərbaycanlı olmasan da, sənəddə bizlərdən biri kimi sayılırsan. Ona görə də hələ 1988-ci ildə Az. TV-dəki "Üzbəüz" verilişində demişdim ki, öz dilini bilməyən azərbaycanlını mən emiqrant hesab edirəm. Belə "emiqrant" çoxluğuna qətiyyən yol vermək olmaz, yoxsa doğma dilimiz kəkələyər, pəltək olar. Xəstə dildə sağlam düşüncə olmur. Sağlam düşüncəli şəxs təpədən-dırnağa silahlanmış adam kimidir – aralıdan görüntüsü bəs eləyir...

İmkan daxilində Azərbaycan dilinin – dövlət dilimizin ərazisində baş verənlərlə tanış olduq. Vəziyyətin son dərəcə ciddi olduğunu bir daha anladım. Mənə elə gəldi ki, doğma dilimizin heç zaman bugünkü kimi təcili yardıma ehtiyacı olmayıb – rus imperiyasının tərkibində olanda da. Əgər təcili tədbirlər görülüb konkret addımlar atılmasa, ana dilimiz komaya düşə bilər. Məşhur bir deyim var: Öz ordusunu yedirtməyən xalq başqasının ordusunu yedirdər. Bu məntiqdən çıxış edərək: Öz dilini qorumayan xalq başqasının dilində danışmalı olacaq.

Uzun illərdi ki, sözləri tumarlaya-tumarlaya təmtəraqla danışırıq, nəticədə dilimizin şirinliyi – şirəsi çəkilir və ilanı yuvasından çıxartmağa qadir olan möhtəşəm Azərbaycan dili əncir qurusuna oxşayır. Mənim aləmimdə televiziyada Azərbaycan dili adı ilə dinləyicilərə sırınan cümlələr, cümlələrin içindəki sözlər çox əzilib-büzülür. Deyəsən, o cümlələrin, o sözlərin böyük əksəriyyətini gecələr Tbilisi prospektində adam şəklində görənlər olub...

Dilin namusu elin namusudur – O, toxunulmazdır!

Bu, deputat toxunulmazlığına bənzəməz – Dilin namusuna toxunmaq torpağın namusuna toxunmaq kimi qəbul olunmalıdır!

Əks halda Ulu öndər Heydər Əliyevdən yadigar qalan konstitusiyadakı məlum və məşhur maddəni dəyişib belə yazmalı olacağıq:

– Azərbaycan Respublikasının Dövlət dili Azərbaycan televiziya məkanının dilidir.

Azərbaycan dilinin korlanmasında əsas səbəbkarın Azərbaycan televiziya məkanı olduğunu nəzərə alaraq təklif edirəm:

1. Dilçilərdən və söz adamlarından yaradılmış qrup, televiziyada gedən verilişlərin dili barədə növbətçilik etsin.

2. Dillə bağlı nöqsanları televiziya rəhbərinin nəzərinə çatdırsınlar.

3. Dillə bağlı nöqsanlar təkrar olduqda televiziya rəmzi məbləğlə cərimə olunsun. (100 manat)

4. Dillə bağlı nöqsanlar yenə təkrar olunduqda həmin televiziya 100 min manat (yüz min manat) cərimə olunsun.

5. Bu da kömək eləməsə, həmin televiziyanın lisenziya məsələsinə yenidən baxılsın və lazım gələrsə, fəaliyyəti dayandırılsın.

Yoxsa Azərbaycan dili öz fəaliyyətini dayandıracaq.

Seçim özümüzündü.

***22-23 noyabr 2018 -ci il***



Əyyub TÜRKAY

## XARIBÜLBÜL

Niyə çoxdur dəyəri,
Bildim xarıbülbülün;
Adını Şuşamızla
Bir çəkirlər bu gülün.

Artıq bu gül çevrilib
Qələbənin rəmzinə.
Sevilərək döşənib
Qarabağın düzünə.

Bir zaman düşmənlərə
Əsir düşmüşdü gülüm.
İndi azadlıqdadır
Mənim xarıbülbülüm.

## 8 NOYABR

Yeni tariximizin
8 Noyabr günü.
Zəfərimin yayılıb
Səsi, sədası, ünü.

Oxuyuram dərslikdə
44 günlük savaşı.
Bir-birinə qarışmış
Sevinc, kədər, göz yaşı.

"Zəfər" sözü, sən necə
Möhtəşəm, uca adsan.
Qulağımda səslənir:
Şuşamız, sən azadsan!

## PAYIZ YAĞIŞI

Bir azdan qızıl payız
Qapımızı döyəcək.
Əsən möhkəm küləklər
Ağacları əyəcək.

Məni islada bilməz,
Tez-tez yağan yağışlar.
Leysandan qorunmağa
Nə qəşəng çətirim var.

Ürəyi açığam mən,
Gəlin çətrimə qonaq.
Yağışlı, soyuq gündə
Gəzək, mehriban olaq.

## QAR YAĞIR

Bir bax, necə qar yağır,
Əhvalımız şən olsun.
Sanki göydən nur yağır,
Qar, sənə əhsən olsun .

Dümağ qarım, yağ bağa,
Yağ təpəyə, yağ dağa.
Sən səbəb ol marağa,
Sevincimiz tən olsun.

Xizəkləri tez sürək,
Lopa-lopa qar görək,

Çoxlu oynayaq gərək,
Ömrümüz gülşən olsun.

Üşüsə də əlimiz,
Nəğmə deyər dilimiz,
Üzdə açar gülümüz,
Elimiz də şən olsun.

## MƏNİM ANA DİLİM

Öz tarixi günü var
Mənim ana dilimin.
Azərbaycandır adı
Mənim doğma elimin.

Öyrəndim əlifbanı
Birinci sinifdə mən.
Sevinərək yazıram:
Əziz ana, can Vətən!

Dilimizi qorumaq
Ən uca, xoş məramdır.
Öz dilimin varlığı
Mənim üçün bayramdır.

## GÖRMƏMİŞ İPƏK

İpək adlı pişiyim
Miyo-miyo səs edir.
Bu səsi ilə deyir,
Tez ol sən məni yedir.

Başqası yemək atsa,
Gedib onu da yeyir.
Onun bu hərəkəti
Yaman xətrimə dəyir.

Deyirəm zəhmətimi
Gəl unutma, ay İpək.
Yoxsa mənim gözümdə
Olarsan acgöz köpək.

## TOPLANIN QORXUSU

Mənim üçün alıblar
Böyük oyuncaq pələng.
Tamam zolaq-zolaqdır,
Həm gözəldir, həm qəşəng.

Bizim balaca Toplan,
Onu gördü, duruxdu.
Qorxudan mırıldayıb
Görün necə karıxdı.

Yaxın gedib iylədi
Qorxa-qorxa pələngi.
Bildi ki, canlı deyil
Meşələrin nəhəngi.

## CƏMİLİN YUXUSU

Kitabları əzməyi
Cəmil çox xoşlayırdı.
Əlinə keçən kimi
Cırmağa başlayırdı.

Girdi bir gün kitablar
Cəmilin yuxusuna.
Onlar səbəb oldular
Uşağın qorxusuna.

Kitablar danışırdı
Bir-birinin dilindən.
Əl atıb yapışdılar
Oğlanın kəkilindən.

Hərəsi öz haqqını
Tələb edirdi ondan.
Cəmil heyrətə gəldi
Bu qorxulu oyundan.

O diksinib oyandı,
Kitabları axtardı.
Onları incitməyi
Birdəfəlik qurtardı.

## BALACA RƏSSAM

Türkay şəkillər çəkir,
Rəngdən alır ilhamın.
Qələmi əldən düşmür
İki yaşlı rəssamın.

Bir iş var ki, biləsiz,
Rəsmi çəkir divarda.
Nənəsi gülüb deyir,
Usta lazım ağarda.

Atasıyla bağçaya
Getdi balaca rəssam.
Daha şəkli vərəqdə
Çəkdi asanca rəssam.

## GÜNAYIN SƏHVİ

Bir payız səhərində
Günay durdu yuxudan.
Şimşəyin bərk səsindən
Gözün qırpdı qorxudan.

Baxdı pəncərəsindən,
Gördü küləkdir yaman.
Dedi, dərsə getməyə
Soyuq verərmi aman?

Anası qulaq asıb
Bəhanəni anladı.
Qucaqlayıb qızını
Bir balaca danladı.

Söylədi qızcığaza
Boran-çovğun olsa da,
Məktəbi heçə sayıb
Dərsi verməzlər bada.

Günay səhvin anladı,
Keçdi əsas mətləbə.
Çantasını götürüb
Yola düşdü məktəbə.

## DURNALAR

Durnalar qatar-qatar,
Köç eləyib uçurlar.
Havanın soyuğundan
Baş götürüb qaçırlar.

Artıq payız fəslidir
Xəzan gəlib çöllərə.
Durnalar qayıdarmı
Bir də bizim ellərə?

Tələsməyin, a dostlar,
Qış bitər, bahar gələr.
Quşlar da geri dönər,
Günəş yerə nur ələr.

## TƏZƏ İL

Təzə il gəldi
Elə, obaya.
Yığdım sovqatı
Güllü torbaya.

Biz evimizdə
Yolka qurmuşuq.
İşıqdan ona
Bəzək vurmuşuq.

Arzu söylədim
Şaxta Babaya.
Dedim, tez-tez gəl
Bizim obaya.

## QOL SAATI

Qol saatın çox sevir
Bizim üç yaşlı Aygün.
Qələmlə öz qoluna
Saat çəkirdi hər gün.

Elə bilir qoluna
Gerçək saat bağlayır.
Çəkdiyi saat şəkli
Silinəndə ağlayır.

Atası bunu gördü,
Birdən yadına saldı.
Balaca dəcəl qıza
Oyuncaq saat aldı.

Aygün çox sevinirdi,
Artıq saat taxırdı.
Üzündə xoş təbəssüm
Atasına baxırdı.

## "AĞ QIZIL" USTASI

Fermer əmim tarlada
Pambıq əkib-becərir.
Yerə düşən hər toxum
Öz vaxtında cücərir.

Pambıq sahələrində
Hər il məhsul bol olur.
“Ağ qızıl” anbarlara
Rahat, itkisiz dolur.

Əməksevər əmimin
Burda var alın təri.
Zəhmətli halal işin
Yoxdur tayı, bənzəri.

## ANA VƏTƏN

Bir sual var ki, tez-tez
Düşündürürdü məni:
Anaya bənzədirlər
Axı niyə Vətəni?

Bu sualın ən gözəl
Cavabın anam verdi.
Dedi: – Vətən bizlərə
Candan əziz bir yerdi.

Bu eldə, bu obada
Yaşamışıq əzəldən.
Bizə mirasdır torpaq,
Verə bilmərik əldən.

Sevməlisən yurdunu
Doğmaca anan qədər.
"Ana", "Vətən" sözlərin
Tutmalısan bərabər.

## SƏRHƏDÇİDİR MƏNİM ATAM

Gecə-gündüz qoruyur
Sərhədi mənim atam.
Keşiyində dayanır,
Mən evdə rahat yatam.
O, zabitdir postlarda,
Bu peşəylə ucalır.
Uğurlu xidmətiylə
Layiqli qiymət alır.

Çiyinlərində vardır
Ay-ulduzlu paqonlar.
Rəşadətli hərbçinin
Yaraşığıdır onlar.

Bu peşədə görürəm
Gələcəyimi hərdən.
Arzum budur ki, hərbçi
Olam mən böyüyəndə.





**Xuraman HÜSEYN**

# “HƏLƏ NƏLƏR YAZMALIYAM, MƏN NƏLƏR...”

*Rəşad Məcidin şeirləri haqqında*

Mətbuatda və ədəbiyyatda önəmli yeri olan Rəşad Məcidin baş redaktoru olduğu “525-ci qəzet”də yaradıcılığa meydan verməsi, gənclərə dəstək olması haqda çox danışmaq olar. Sözə, istedada biganə qalmayan jurnalist, yazıçı, şair Rəşad Məcidin poetik dünyası da maraqlıdır. Bir az da onun poetik dünyasından bəhs edək...

Şeir, onu yazanla bərabər, oxucuların da hiss və həyəcanlarını ehtiva edir. Məlumdur ki, insan yaşantılarından heç kim xali deyil. Dünyaya gəlmişiksə, Allah verən ömrü yaşayırıqsa, onun bəxş etdiyi duyğuları, həyatı da hiss etməli, görməliyik. Həyatımız, yaşadıqlarımız şeirlə oxucuların görüşünə gələrsə, bu onlara başqa ovqat bəxş etməzmi? Poeziya elə buna görə sevilmirmi?

Rəşad Məcidin şeirləri hər kəsin ürəyindən su içən, bəzən yaza bilməyib mübhəm saxladığı, yaşadığı hiss və həyəcanları, arzuları ifadə edir. R. Məcid “Həmişə” şeirində qəhrəmanının ondan həmişə nəyisə sirr saxlayacağını, dilinə gəlməyən sualları onun gözlərinə baxaraq da hiss edəcəyini deyir:

Sən məndən həmişə sirr saxlayacaq,
Həmişə nəyisə gizlədəcəksən.
Dilimə gəlməyən suallarımı
Baxıb gözlərimdən hiss edəcəksən.

Sevənlər bir-birlərinin alter-eqosu da olarsa, sevgi daha gözəl bir duyğuya çevrilməzmi? O da sevginin sirli-sehrli bir duyğu olmasını lirik qəhrəmanının təlaşda yaşamamasında və günah səbəti daşımamasında görür:

Həmişə şübhələr didəcək məni,
Həmişə təlaşda yaşayacaqsan.
Cavabsız suallar güdəcək məni,
Sən günah səbəti daşıyacaqsan.

Bu hal onları bezdirdikdən sonra hərənin bir yana burulacağı şanssızlığı görünməzmi? R. Məcid də oxucuları nə vaxtsa görünəcək bu ayrılıqdan uzaq durmağa səsləyir:

Bir gün bu halımız əzəcək bizi,
Bir gün bezəcəyik, yorulacağıq,
Bir gün çatacağıq yolayrıcına,
Hərəmiz bir yana burulacağıq.

Yolayrıcına çatmaq ayrılığın ilk işartısı deyilmi? Rəşad Məcid qəhrəmanının yad adam təsiri bağışlayan davranışının yaxşı nə isə vəd etmədiyini bildirir:

Bir də görəcəyəm, dayanıb zaman,
Bir də görəcəksən, tənhasan, təksən.
Sən məndən həmişə sirr saxlayacaq,
Həmişə nəyisə gizlədəcəksən.

Anton Pavloviç Çexov özünü tənha hiss edən insan üçün hər yerin çöl-biyaban olduğunu deyirdi. Şair də qəhrəmanına həmişə nəyisə gizlətməyin sonunun yaxşı olmayacağını, təkliklə bitəcəyini bildirir. Təbii, hər yerin çöl-biyaban təsiri bağışlamasını heç kim istəməz.

Sevginin qüdrəti, əvəzolunmaz bir duyğu olması bu şeirdə bir daha görünür. O, "Həmişə" şeirində sevənlərin bir-birlərinə inamının, etibarının və həmişə mehriban olmağını gözəlliyindən bəhs edir...

**Baharın vüsalı saxta olanda...**

Həyatımıza gələn və həyatımızdan gedən zamanı, fəsilləri təqvimlərin hesabına görürük, ayırd edirik. R. Məcid də dövri təbiət hadisələrinə uyğun yaranan, həyatımızın nizamını göstərən təqvim haqda düşündüklərini poetik ovqatla ifadə edir. "Təqvim" şeirində lirik qəhrəmanının günləri, ayları bir-birinə necə qarışdırmasından söz açan Rəşad Məcid, bu harmoniyanın təbəddülatları qarşısındakı çətinlikdən də danışır:

Qarışdırdın vaxtı, günü, zamanı,
Günlər, aylar bir-birinə qənimdi.
Hardan bilim xoşbəxt günüm hansıdı,
Bu təqvimin hansı ayı mənimdi?

Vaxt ötür, zaman keçir, səhər günəşi, gecə ulduzları, ayı seyr edə-edə yaşayırıq. Beləcə, ömür karvanımızdan hər gün bir qatar fəsilləri, təqvimləri adlayıb gedir... Bizə qalan isə xəyallar, arzular və ümid olur. Fəsillərin bir-birinə şərik olması və uzun günləri haqda fikirlərini poetik ovqatla bildirən müəllif qısa günləri olan fevral ayını xilas etməyin çətin olduğunu deyir:

Şərik varmış bu payıza, bu qışa,
Baharın da saxta imiş vüsalı,
Ta yanvarı, dekabrı soruşma,
Bəlkə, zorla xilas etdim fevralı.

Aylar, günlər, anlar yaddaşda oynadıqca-xatirələr unudulmadıqca insan ötüb keçən zamanın yaxşı xatırlanacağına çalışır. Əlbəttə, Tanrının insana bəxş etdiyi ömür payının sonra necə xatırlanacağını heç kim bilmir. R. Məcid də bu günlərin yaxşı xatırlanacağı haqda ümidlə və şövqlə danışır:

Yaddaşımda yallı gedən günlərin
Ən doğmasın qucaqlasam, hünərdi.
Zəhrimara çevrilən bu zamandan
Beş-üç təmiz gün saxlasam, hünərdi.

"Səndən qalanlar" isə şairin şeirlərinin, yazılarının könül həmdəmini ondan necə ayrı salmağına poetik münasibətdir:

Bu şeirlər, bu yazılar canımdan
Səni hiss-hiss, duyğu-duyğu qoparır.
Əllərini, tellərini astaca,
Gözlərini qorxa-qorxa qoparır.

**Vaxtın qızıl dövranı**

Dinlədiyimiz musiqilər, oxuduğumuz şeirlər, bədii əsərlər ovqatımızı dəyişdirərək bizi dərindən düşündürür, bəzən təsirləndirir, ağrıdır. Onlar məhz buna görə sevilmirmi? R. Məcid bu nəğmələrin bir az da ağır, təsirli aurasından bəhs edir:

Hələ çoxdur səndən məndə qalanlar,
Hələ nələr yazmalıyam mən, nələr…
Ağrı dolu, əzab dolu romanlar,
İnildəyən, sızıldayan nəğmələr.

Müasir dövrdə baş verənlərin inikasının poetik ovqatla ifadəsi ədəbi tələbatdır. Poeziyada müasir ifadələrdən, epitetlərdən istifadə edilməsi həmişə maraqla qarşılanıb. Rəşad Məcid də bunu unutmur:

Gərək hələ səni gün-gün itirib,
Görüşləri bir-bir sayıb çıxarım.
Hüceyrəmdən pinset ilə götürüb,
Ürəyimdən qaşıqlayıb çıxarım.

Son şeirinin yazıldığı son səhərdə o, qəhrəmanının necə uzaqlaşmasını da poetik kədərlə ifadə edir: bu, son baxışda da təcəssümünü taparsa, o, müəllifin gözündəki son damlayla bitməzmi?

Son şeirimi yazdığım gün-son səhər,
Yaddaşımdan uzaqlaşıb itərsən.
Son baxışın bədənimi titrədər,
Gözümdəki son damlayla bitərsən.

O, "Mən elə bilirdim" şeirində sevgisinin dərinliyinə münasibət bildirərək yanılmasından poetik əhvalla söz açır. Həyatın ən böyük yanlışlarından biri də "mən elə bilirdim" ifadəsi deyilmi?

Mən elə bilirdim, sənə doğmayam,
Dünyaya gəlmisən çağırışımla.
Mən elə bilirdim, hər səhər-axşam
Duyursan qəlbimi bir baxışımla.

Bir sirli gülüşün nələri ifadə etməsini misralarla bildirmək də oxucuda başqa təəssürat yaradır:

Mən elə bilirdim, sirli gülüşün
Bəxtimin ömrünə işıq payıdır.
Mən elə bilirdim, qəfil gəlişim
Səndən ötəri də qəlb harayıdır.

Bu gülüş bəxtin ömrünün işıq payı olarsa və qəfil gəliş qəlb harayı kimi düşünülərsə, bunlar sevginin rəngarəng bir hiss kimi poeziyada yer tapmasını təsdiqləmirmi?

İnsan gördüklərindən, yaşadıqlarından sonra, adətən, oyanır və çox vaxt bu, sublimasiyaya çevrilir. R. Məcid də sonda ürəklərin uzaq olmasının gerçəyi izah etdiyini bildirir. Göründüyü kimi, nəyi isə doğru təsəvvür etməmək, yanılmaq insanın əhval-ruhiyyəsinə də yaxşı təsir etmir. Rəşad Məcid bu haqda düşündüklərini də oxucularla bölüşür:

Demə, uzaq imiş ürəklərimiz
Dünyanın müxtəlif qütbləriymişik.
Aldanan ürəyim,
Yuxulu gözüm
Səni kiminləsə salıb dəyişik.

"Sənə görədir" şeirində sevginin necə bəşəri, gözəl bir hiss olduğu vurğulanır. Dünya yaranandan var olan bu gözəl hiss haqda nə qədər gözəl sözlər desək, yenə azdır. İnsan, sevgisi üçün nələr etməz:

Özümü hamıdan güclü sanmağım,
Durduğum yerdəcə qanadlanmağım,
Mənim sevinməyim, ya şadlanmağım
Hamısı, hamısı sənə görədir.

Somerset Moem poeziyanın ədəbiyyatın tacı olduğunu deyirdi. Ədəbiyyatın tacını şeirləri ilə bəzəyən R. Məcid ümid işartısı kimi gördüyü sevginin gözəlliyi haqda düşündüklərini yazır:

İndi ucadadır yeri taxtımın,
Qızıl dövranıdır indi vaxtımın,
Sınıq taleyimin, bağlı baxtımın
Açılan qapısı sənə görədir.

Payızın insana bahar havası gətirəcəyi ilə bağlı sətiraltı mesajlar da bəşəriliyini bir daha göstərir:

Qalmayıb qəlbimin daha gileyi,
Qəmli çəmənimin açıb çiçəyi.
Payızın ortası yazın gəlməyi –
Bu bahar havası sənə görədir.

**Ömrə söz dağı çəkiləndə...**

Lord Bayron deyirdi ki, ulduzlar göylərin poeziyasıdır. Bu, poeziyanın gözəlliyinə dəlalət etmirmi? Ürəyimizdən keçənləri, demək istədiklərimizi sözə büküb poeziyaya çeviririksə, bundan gözəl nə isə ola bilərmi?

Rəşad Məcidin şeirlərində poeziyanın əsas sütunlarından olan sevgi mövzusunun qabardılması oxucunu bu hissin dünyanı xilas edəcəyinə bir daha inandırır. "Bilmədim" şeirində o, sevginin başının üstünü qəfil qara buludların almasından gileylənir. Sevgi ən gözəl duyğu, qəlbin atəşi və fərəhi deyilmi? Təəssüf ki, o gözəl hisslərə qarşı çıxanlar da olur. Onun sevənləri ayırmağa çalışanların necə günah iş görməsi haqda fikirlərini poetik gileylə ifadə etməsi oxucunu düşündürür:

Gizli-gizli gileylərə qarışıb,
Qəfil gəldi sevgimizin qar-qışı.
Kim bələdi bu sevincə qarğışı,
Qəzəbini kim sıyırdı, bilmədim.

İki ürək sevməkdən başqa nə edə bilər?

Ömrümüzün günlü günü, yaz çağı,
Ömrümüzə çox çəkdilər söz dağı.
İki ürək bir şübhənin dustağı,
Yalanları kim hayqırdı, bilmədim.

Skeptik düşüncələrə rəvac verən, ömrə dağ çəkənlər, yalanlar uyduranlar haqda danışır şair. Elələri olmasaydı, sevgini həyatının simvoluna, düsturuna çevirənlər də xoşbəxt olardı. R. Məcid də sevənləri ayıran namərdlər haqda fikirlərini misralara etibar edir:

İlan dillər şimşək kimi çaxanda
Odumuza su çiləndi bir anda.
Tale belə yandıranda, yaxanda,
Bəlkə, bizi sınayırdı, bilmədim.

Sevgidən danışan zaman antiteza məqamı olan ayrılığı, onun əzablarını da unutmaq olmur. Rəşad Məcid poeziyanın əsas mövzularından biri olan ayrılığın necə əzablı hiss olduğuna münasibətini bu misralarla bildirir:

Bu ömürdü, yaşamağa qəlb gərək,
Kin bürüyən qəlb-bataqlıq, qəlb-dərə.
Namərd dili bütövləşən qəlblərə
Necə qıydı, niyə qıydı, bilmədim.
Səni məndən kim ayırdı, bilmədim.

"Bilmədim" şeirində R. Məcid yaşamağa qəlbin gərək olması haqda düşüncələrini poeziya ovqatı ilə ifadə edir. Bu yaşantı bir anda gəlib keçərsə, ondan bir iz qalmaz, unudular. Oxucunu düşündürərsə, ona nələrisə xatırladarsa, poetik lövhəyə çevrilə bilər. Bu lövhədə də oxucu ayrılıq ağrısının, onun gətirdiyi kədərin nə olduğunu görür.

**"Qoşundur, əsgərdir, ordudur Şuşa"**

30 ilə yaxın erməni əsarətində olan Qarabağ, nəhayət, azad edildi. Bu illər ərzində nə qədər şəhidimiz, əsirimiz oldu, yurd-yuvası işğal edilən didərgin soydaşlarımız nələr yaşamadı, nələr görmədi? Nəhayət, Ali Baş Komandan İlham Əliyevin və igid, qorxmaz əsgərlərimizin, hərbçilərimizin sayəsində Qarabağımız erməni işğalından azad olundu. Xalqımız üçün bundan gözəl, qürurlu nə ola bilərdi ki? Torpaqlarımız işğalda olan zamanlar söz adamları öz hiss və həyəcanlarını yaradıcılıqları ilə bildirdilər. Artıq elə bir dövr gəldi ki, yaradıcılığa könül verənlər qələbə haqqında düşündüklərini, arzu və sevinclərini ədəbi nümunələrlə – poeziya ilə, nəsrlə ifadə etdilər və hələ edəcəklər. Bizim Vətən eşqimiz, torpaq sevgimiz tükənməzdir...

Xalqımızın Vətən sevgisi özünü layiqincə göstərməkdədir. Qarabağ sevgisini yaradıcılığında da bildirən Rəşad Məcid üçün də o yerlərimiz çox əzizdir. Onun bu sevgisi və sevinci Şuşa haqqında yazdığı şeirdə bir daha görünür:

Bir şəhər adı var, dillər əzbəri,
Adların ən üstün adıdır Şuşa.
Musiqi notudur cüt hecasıyla: Şuşa!
Dilimin şəhdidir, dadıdır Şuşa.

Cıdır düzü, Topxana meşəsi, Daşaltısı, İsa bulağı, xarıbülbülü, saf havası, buz bulaqları ilə cənnət olan Şuşanı kim sevməz ki? Belə

bir diyarın Azərbaycana məxsus olması da ölkəmizin gözəlliyinin sübutu deyilmi?

R. Məcid də bu gözəl diyarın əsrarəngiz olması haqda fikirlərini poetik ovqatının daha canlı, estetik çalarları ilə ifadə edir:

Ciyərdə nəfəsdir, damarda qandır,
Ruha qanad verən sirli məkandır,
Bilib eşidəndir, güc artırandır,
Qoşundur, əsgərdir, ordudur Şuşa.

"Şuşa" şeiri Qarabağın bu əsrarəngiz diyarının gözəlliyini tərənnüm edir. Rəşad Məcidin Şuşanın tilsim, ovsun, cadu olduğunu bildirməsinin də səbəbi bu misilsiz gözəllikdir:

Qoynuna hər gələn yüz xəyal eylər,
Uzaqda qalanlar qeylü-qal eylər,
Birini coşdurar, birin lal eylər,
Tilsimdir, ovsundur, cadudur Şuşa.

R. Məcidin şeirlərində hamının yaşadığı, gördüyü, yaşamaq və görmək istədiyi həyat eskizləri poetik müstəvidə cızılır. Düşünülmüş, yaxud spontan yazılan şeirlərin oxucu qəlbinə yol tapması onu yazanın sözə bağlı olmasından və dəyər verməsindən asılıdır...

Virciniya Vulf deyirdi: "Poeziya gözəldir. Ən gözəl nəsr də poeziya ilə dolu olandır". Poeziyanın ifadə etməkdə aciz qaldığı nə isə ola bilərmi? İnsanın düşündükləri, yaşadıqları ilə oxucunun qəlbini riqqətə gətirməsinə vəsilə olan poeziyanın söz adamı Rəşad Məcidin yaradıcılığına təsirini də nəzərdən keçirərək onun poetik aləminə səyahət etdik...





## Cəmil CƏMİLBƏYLİ

***
Həm öyrətdik, həm öyrənib dərs aldıq,
Gedənlər də, qalanlar da sağ olsun.
Şirin-şəkər nağıllara inandıq,
Doğrular da, yalanlar da sağ olsun.

Gül arzular, gül ümidin üzən çox,
Gül üstündə titrəyən çox, əsən çox.
Taledi də, inciyən çox, küsən çox,
Açanlar da, solanlar da sağ olsun.

Kim nə bilir, nə yolunuq, nə köçün,
Ya savabın, ya xeyirin, ya suçun.
O dünyada bizə düşən pay üçün
"Xeyir-dua qılanlar da sağ olsun".

***
Dərdin alım, gileylənsə, incimə,
Ürəyimdə nə qəmlərim ağrıyır.
Həsrətinlə toxuduğun, hördüyün
Naxışlarım, ilmələrim ağrıyır.

Ha axtarsın, ha arasın gözlərim,
Öz yolunda itkin düşüb izlərim.
Dodağımda köz-köz olmuş sözlərim,
Külə dönmüş kəlmələrim ağrıyır.

Bir zamanlar şən səsinlə güllənən,
Gahdan coşub, gah durulub lillənən,
Gah kamanda, gah da tarda dillənən
Perik düşmüş nəğmələrim ağrıyır.

# RƏNGLƏRDƏ GİZLƏNƏN DİL



**GÜLTURAN**

*sənətşünas*

Rənglərin həyatımızdakı əhəmiyyəti düşündüyümüzdən daha böyük, rolu və təsiri daha qüvvətlidir. Təəssüflər olsun ki, insanlar rəngləri çox vaxt yalnız rəng olaraq görüb, görüntü fərqliliyi kimi çeşidləndirirlər. Halbuki həyatımızın hər addımında istifadə etdiyimiz bu möhtəşəm palitranın daha vacib özəllikləri var. Bir az diqqət etsək, görərik ki, gündəlik həyatımızda sevdiklərimizdən belə daha çox minlərlə rəng tonunu görürük. Gördüyümüz rənglər təkcə bizim gündəlik həyatımızda rol oynamır, hətta taleyimizə də təsirini göstərir və bu təsir danışdıqca bitməyəcək qədər çoxdur.

Rəng elə bir anlayışdır ki, istər uşaq olsun, istərsə yaşlı, fərq etməz, hər kəsdə müxtəlif duyğular, hisslər oyadır. Bu hisslər sənin özəl rənginin hansı olduğunu deyir, hansı rəngə bürünməli olduğunu duyğular diktə edir.

Rənglərin həyatımızdakı ən böyük təsir dairəsi, şübhəsiz, geyimlərdir. Əgər bu gün nikbin əhval-ruhiyyədəyiksə, onda, heç şübhəsiz, əlvan rənglərə üstünlük veririk, ancaq təəssüf ki, bu üstünlüyə yalnız içimizdə əməl edirik. Ətrafa yansıtdığımız rəng tonları bizi, iç dünyamızı, hiss etdiklərimizi ifadə etmir. Bunun ən bəsit nümunəsi kimi gündəlik geyimlərimizdə istifadə etdiyimiz rəngləri göstərə bilərik. Kim, həqiqətən, içindən keçirdiyi, sevdiyi rəngi hər gün üzərində daşıyaraq geyimində göstərir, özünü ifadə edir? Məncə, heç kim...

Gəlin belə bir suala cavab verək, qarderobumuzda ən çox üstünlük verdiyimiz rənglər bizim ruhumuzun seçimidir, yoxsa adına dəb dediyimiz, arxasınca getdiyimiz, heç bilmədiyimiz bir kütlənin, fərqli toplumların seçimi? Gəlin bunu da etiraf edək, sırf dəbdir deyə, heç sevmədiyimiz rəngləri hər gün üzərimizdə daşıyırıq. Bunu hər birimiz bilirik. Ancaq biz bu rəngin ruh aləmimizə necə təsir etdiyi barəsində düşünmürük.

Təsəvvür edin ki, bu gün çox gözəl hava var. Kefimizi poza biləcək heç bir ünsür yoxdur. Dostlarımızla zaman keçirmək üçün təcili hazırlaşıb evdən çıxmalıyıq. İlk ağlımıza gələn "bu gün hansı rəngi geyinsəm, özümü daha yaxşı hiss edərəm", düşüncəsimi olacaq, yoxsa kənardan məni görənlər necə "cool" qızdır, deyəcəkləri fikrimi? Əlbəttə, çox vaxt ikinci variantı düşünüb, heç şübhəsiz, başqaları üçün rəng seçimi edirik. Bu rəng də bizi heç istəmədiyimiz bir auraya salır, büründüyümüz rəng bizim bugünkü əhvalımızı öz tonuna uyğun dəyişir.

Çox güman ki, çoxluq tünd və solğun rənglərə üstünlük verir. Lakin bu rənglərin bizim içimizi də soldurduğunu, özü kimi ruhumuzu da soyuqlaşdırdığını düşünməyəcək qədər başqalarının düşüncələrinə

önəm veririk. Üzərimizdə daşıdığımız bu rəng ruhumuzu özünə bənzədəcək, bu bənzəmə bizim davranışlarımızdan da yan keçməyəcək. Sadəcə, bir rəng belə bizim davranışlarımızda özünəməxsus böyük əhəmiyyət daşıyır. Bu gün geyindiyin qara və ya boz, tünd və ya solğun geyim üzərində, sadəcə, rəng olaraq qalmaqla kifayətlənməyib daxilinə təzahür edir, hərəkətlərinə, düşüncələrinə, hətta dediyin sözlərə belə öz təsir gücünü göstərir. Onu da anlamalısan ki,  belə rəng günün sonunda artıq səni bədbin ruh halında olan birinə çevirir. Halbuki bayaq hava çox gözəl idi, kefini pozacaq heç bir ünsür, hadisə yox idi. Bəs nə baş verdi, əhvalın niyə dəyişdi?

Gəlin bir də belə düşünək, müəyyən yaş kateqoriyası olan insanlar, sadəcə, bəlli rənglərə üstünlük verirlər. Kiçik yaşlı uşaqlara rəngbərəng, al-əlvan, parlaq, gözoxşayan rənglərdə paltar geyindirilir. Lakin bu uşaqlar böyüdükcə rəngarənglik aradan qalxır, onun yerini tünd, soyuq rənglər alır. Daha da yaşa dolduqca gördüyümüz tək rəng əsasən qaradan başqası deyil.

Nəyə görə dünyaya gözümüzü açdığımız anlardakı o rəngarənglik yaşam boyunca yerini solğunluqla dəyişir, ən sonunda qaraya bürünür... Bəlkə də, bu dəyişikliyə uşaqkən sahib olduğumuz məsumiyyətin yaşlandıqca itməsi səbəb olur. Uşaqkən içimizdən gəldiyi kimi, doğrunu, yanlışı düşünmədən davranırdıq, ətrafın, insanların təzyiqi, onların nə düşündüyü bizim üçün heç bir önəm kəsb etmədiyi üçün çox məsum bir həyat yaşayırdıq. Bu məsumluğu səmimi davranışlarımız kimi geyimlərimizdəki çəhrayılarda, sarılarda, mavilərdə, yaşıllarda göstərirdik. Yaşımız artdıqca uşaqkən sevdiyimiz, istifadə etdiyimiz rəngləri indi böyüyəndə də geyimlərimizdə büruzə vermək sanki ayıb halını aldı.

Gəlin bunu da etiraf edək: küçədə 70 yaşlı bir qadını sarı, qırmızı, çəhrayı, yaşıl paltarda görsək, içimizdən “heç yaşına yaraşırmı? – deyə düşünərik. Buna səbəb nədir?

Hər hadisənin, baş verən olayın hansısa bir rənglə əlaqədar adı vardır. Ölümün rənginin qara, xoşbəxtliyin ağ və ya qırmızı olması kimi... Eynən yaşamın, yenidən doğulmanın rənginin çəhrayı və mavi olması kimi. Bəlkə də, yaşlandıqca insanların qara rəngə bürünməsi özlərini ölümə, həyatlarının sonuna yaxınlaşmağa hazırlamaqdan başqa bir şey deyil. İnsanlar özünə (qarşı) bu haqsızlığı etməməlidir. Xüsusən də bizim yaşlılarımızın anlaya bilmədiyim bəzi xüsusiyyətləri var. Bunların ən başında, təbii ki, özlərinə qara libaslarla bədbinlik aşılaması, çətin anlarda belə həkimə üz tutmaması və s.-dir. Səbəb isə utanmaqdır. Yaşlı olduqlarına görə həkimə getməkdən, həkimin reaksiyasından utandıqları kimi, eynilə yaşlı olduqlarına görə rəngli geyimləri də özlərinə eyib bilib utanırlar. Təəssüflər olsun ki, bu artıq cəmiyyətdə bir norma olaraq qəbul olunub. Bu baxımdan əvvəlcə düşüncəmizi dəyişməli, düzəltməliyik ki, uşaqlığımızdan bizə miras qalan rəngləri, elə körpəlik məsumiyyəti kimi qoruya bilək, bunu özümüz üçün edək.

Ətrafımızda hər şeyin, bizi əhatə edən, sahib olduğumuz əşyaların, hətta saçımızın, makyajımzın belə rəngini özümüz seçirik. Bu həm zövqverici bir prosesdir,  həm də bizim xarakterimizi idadə edən bir təzahürdür. Bayaq dediyimiz kimi, hər şeyin bir rəngi var.

Həyata gəlmənin, dünyaya gözlərimizi açmanın bir rəngi var: bu, ağ-bəyazdır.   Dünyaya gözünü yeni açmış körpəni gözləyən gələcək heç bir rənglə qarışmamış saf bəyaz rəngi təmsil edir. Hər körpə bəmbəyaz bir gələcəklə doğulur. Bu körpəni gözləyən həyat, yaşamı boyunca başına gələcək müsbət və ya mənfi hadisələr bəyazına əlavə ediləcək digər rənglərdən asılıdır. Bəyaza hansı rəngi əlavə etsən, bəyaz həmin rəngə boyanacaq, daha çox əlavə etsən isə, həmin rəngin tam özü olacaq.

Bizə, sadəcə, seçimlər qalır. Seçimlərimiz formalaşan gələcəyimizin  xəbərçisidir. Rənglərin bizə ifadə etdiyi anlamları nəzərə alıb seçim edəriksə, yanılmarıq. Bizi

rahatladan, hüzur dolu bir çevrə yaratmaq bu seçimlərdən çox asılıdır. Yeni bir ev aldığımız zaman ilk düşündüyümüz içindəki əşyaların, divarların və s. rəng seçimidir. Evimizin dizaynına önəm verdiyimiz, bunun uzun müddətli bir dəyişiklik olacağını, hər gün bu seçimlə üz-üzə gələcəyimizi bildiyimiz üçün çox diqqətli oluruq. Hər şeyi ən incə detalına qədər düşünürük. Nəhayət, bizə xoş aura bəxş edəcək tonları seçib evimizi bəzəyirik. Evimizin cansız divarlarını, cansız əşyalarımızı çox düşünürük. Bəs bu əşyaların kölgəsində qalan ruhumuzu düşünüb məmnun edirikmi, ediriksə, bu gün daha xoşbəxt olmalıyıq.

Bu gün qısa müddətlidir deyə, seçimlərimizə önəm vermirik. Lakin unuduruq, bir gün də ömürdür, hər gün elə bir gündür. O önəm vermədiyimiz bir günlər çoxalır və geri dönüb baxanda uzun bir zaman keçmiş olur. Seçdiyimiz rəngləri sırf özümüz üçün seçək, hisslərimizin bizə pıçıldadığı tonlarda hərəkət edək, insanlarla münasibətimizdə uşaqlığımızdakı məsumiyyət bəyazlığını qoruyub saxlayaq.



***

Hər hadisənin, baş verən olayın hansısa bir rənglə əlaqədar adı vardır. Ölümün rənginin qara, xoşbəxtliyin ağ və ya qırmızı olması misalı... Eynən yaşamın, yenidən doğulmanın rənginin çəhrayı və mavi olması kimi.

TƏNQİD

# GƏNC ŞAİRLƏR, SÖZÜM SİZƏDİR



**Vaqif YUSİFLİ**

"Ulduz" jurnalının hər sayında gənc şairlərin şeirləri ilə tanış olur, onların yaradıcılıq uğurlarına sevinirəm.

Bu gün ədəbi gəncliyin sıraları genişdir və "Ulduz"dan başqa heç bir ədəbi dərgidə çap olunmayan, ilk dəfə "Ulduz"un səhifələrində üzünü gördüyümüz cavan şairlərin şeirləri ilə tanışlıq məndə müxtəlif fikirlər doğurur, bu yeni nəsil əsasən iki mininci illərin birinci onilliyində öz imzaları ilə "Ulduz"a ayaq açıb. Onların ilk yazıları nələr vəd edir? Təklərin yox, ümumən yeni bir nəslin SƏSİ müasir poeziyamızda hamının aydın eşidəcəyi bir SƏSƏ çevrilirmi? Yeni bir poetik nəslin formalaşması üçün hansı ümumi meyarlar yaranır? Bu suallara haçansa cavab veriləcək. Amma indi gələcəyinə ümidlər bəslədiyim gənc şairlərin şeirləri barədə söz açmaq istəyirəm.

**Elvin İntiqamoğlunun "On dördüncü qızılgül"ü**

Elvin İntiqamoğlu yeni nəsil gənc şairləri içərisində artıq yetkinliyə doğru can atan və fərdi üslubu da müəyyənləşməkdə olan şairdir. İyirmi altı yaşı var və "On dördüncü qızılgül" ilk şeirlər kitabı da işıq üzü görüb. Xalq şairi Sabir Rüstəmxanlı onun bu kitabına "Poeziya təkcə qızılgüllərdən ibarət deyil" adlı səmimi bir ön söz də yazıb. Sabir müəllmin ön sözündə oxuyuram: "İlk növbədə, Elvinin şeirlərinin yığcamlığını, sözçülükdən uzaq olmasını bəyəndim. Gəlişigözəl, qafiyə havasına uzanan yazısı yoxdur. Təqdim olunan yazıların, demək olar ki, hamısında irili-xırdalı bir poetik yük, bədii maya var". Bir gənc şairin yaradıcıq yolunun başlanğıcında tanınmış Xalq şairinin işıqlı ön sözü gəlirsə, bunu doğrultmaq gərək, tərifdən baş gicəllənməsin.

Elvin İntiqamoğlu II Qarabağ müharibəsinin iştirakçısıdır. Qazi şairdir. Onun "Müharibə xatirələri" silsiləsindən olan şeirlərində müharibə ab-havası yetərincədir. Müharibədə təkcə döyüşmək, qan tökmək azdır, onu içində yaşatmalısan – bu yaşantılar Elvini mühasirə zamanı əsgərlərin keçirdiyi hisslərə sarı aparır, bir şəhid anasının "övlad qəmi"nə, səssiz harayına doğru səsləyir, bir şəhid qızının atasızlıq həsrətinə qovuşdurur, taqım komandiri baş leytenant Emil Əsədovun qəhrəmanlıq və şəhidlik səhnəsinə çəkir, ümidin, inamın heç bir vaxt sönməyəcəyinə inandırır. Hətta yağış suyunda da bir məna axtarır:

Axır düşmənin qanı
Vətənin can yerinə –
Yerdən narahat olma,
sən su tök göydən yerə
qan yerinə.

Həsrətində olduğumuz torpağı
daddırdı bizə
palçıqlı gölməçələr,
qoyma yağış dayansın
Qarabağ suyunu içənə qədər.

Ümumiyyətlə, Elvin İntiqamoğlunun müharibə ilə bağlı seçdiyi detallar uğurludur. Məsələn; "Bəlkə, uzaq dəhlizlərdən görünmür Laçın pəncərələri-Havası çatmır Vətənin, boğulur, açın pəncərələri". O, müharibədə odlar-alovlar ilə üzləşib, şəhidlik nədir ("Şəhid rəsmi gördüm, ürək dözmədi dərdə, ağladım") və bunun ağrısı ürəyi necə parçalayır, hamımızdan yaxşı bilir.

Elvin İntiqamoğlu əksər şeirlərində yaşının bu çağınacan həyatda, gerçəklikdə müşahidə etdiyi hadisələri, insanlarla münasibətlərini, dünya və cəmiyyət haqqında düşündüklərini bizə çatdırır. Hiss edirsən ki, qarşımızda həyatı dərindən duymağa çan atan bir cavan şair əyləşib. Çünki "Həyat haradadırsa, poeziya da oradadır" (V.Q.Belinski). O, müəllimi olan Həyat qarşısında imtahan verir. Birinci sual Dünya və İnsan haqqındadır.

Təsəvvür et:
Yer qatı var, göy qatı var,
insan adlı canlı yoxdu…
Təsəvvür et:
dünyanı yoxdan yaradan Tanrı var,
palçıqdan insan düzəltmək istəyən Tanrı yoxdu.
Təsəvvür et:
nə savab var, nə günah var,
nə cənnət var, nə cəhənnəm.
Təsəvvür et:
insan əliylə qurulan bina yoxdu,
insan əliylə salınan meşə yoxdu.
Sənət yoxdu, peşə yoxdu…
dünya çılpaqdı,
ona paltar tikən yoxdu…
Boş dünyanın boşluqların
karandaşla çəkən yoxdu.

Elvinin dünya ilə bağlı digər şeirləri də var, bu şeirlərdə o özü üçün müəyyənləşdirmək istədiyi bir çox mətləblərə toxunur. Təbii ki, İntiqamoğlu dünya haqqında söz açanda məlum stereotiplərdən uzaqlaşmağa çalışır, dünyanın əbədiliyindən, vəfasızlığından, gəldi-gedərliyindən, ya da dünyanı bürüyən faciələrdən danışmağı sevmir, Dünya gedişatına İnsan münasibətini ortaya qoyur. "Dünya yüz don geyinir, zəif, güclü bilinir" – bu şeirdə təzadlar bir-birini əvəz edir "Qışla dağ yola getmir, başında qar var axı. Necə xoşbəxt yaşayaq, mərdimazar var axı". Bu təzadlar silsiləsi onun başqa şeirlərində də diqqəti cəlb edir: "Asılqan" şeirində: "Aman Allah, dünya yaman dəyişib, söyüd ağacından bəhər asılıb". "Göydən yerə dərd tökülür, deyəsən, ekvator xəttindən kədər asılıb"."Dünya intihara çoxdan əl atıb, göyün dirəyindən kəmər asılıb". XXI əsrdir, biz dünyanın necə çalxalandığını, lokal və qlobal müharibələrin necə baş verdiyini görmürükmü, eşitmirikmi? Ona görə də ilk növbədə, dünyanı dərk etməyə çalışırıq və haqqında söz açdığım İntiqamoğlu da bu yolda ilk addımlarını atır.

Elvin İntiqamoğlu ilk şeir kitabına "On dördüncü qızılgül" adını seçib. Bəlkə, bu səbəbdən Sabir müəllim də "Poeziya təkcə qızılgüllərdən ibarət deyil" adlı ön söz yazıb kitaba. Amma mən Elvin İntiqamoğlunun bütün şeirlərini diqqətlə oxudum. Bəs hanı qızılgüllər?

Şair qızılgül əkir
sözün bitdiyi yerə.

İntiqamoğlu yalnız bir şeirində ("Gül kimi sevmək") qızılgülün adın çəkir:

Düzün qızılgülləri,
solanların verin mənə –
təravətli olanların yar aparsın,
qalanların verin mənə.

"Gül qoxuyan zamanları" arzulayır İntiqamoğlu. Təbii ki, bu da o qızılgüllər kimi solub-saralmış xatirələrlə bağlıdır. "Nişanlı qız" şeirində yazır: "Bizdən başqa sevənlər xoşbəxt olub, bilirəm, On dördüncü qızılgül çoxdan solub, bilirəm".

Bu qızılgül söhbətini bir qədər başqa səmtə yönəltmək istəyirəm. Şah İsmayıl Xətai deyirdi: "Qızılgül, bağü-bustanım, nə dersən, fəda olsun sənə canım, nə dersən?". Şair sevdiyi qızı qızılgülə bənzədir. Bizim klassik poeziyadan üzü bəri qızılgül gözəllik və həyat rəmzi kimi mənalanıb. Əlbəttə, dünyamız və gerçək həyatımız ziddiyyətlər içində keçir. Bəlkə, həyat və gözəllik simvolu olan qızılgüllər unudulur? Amma yox! Gözləyirəm ki, Elvin İntiqamoğlu da yeni şeirlərində "Sözün bitdiyi yerə" öz qızılgüllərini əksin. Həyatımız təkcə ağrılardan, qəmlərdən ibarət deyil.

Mənə ən çox xoş gələn Elvinin "Təkbəndli şeirlər"i oldu.Bu şeirlərdə Elvin üç-dörd, beş-altı misrada az sözlə dərinliyə – fikrin lakonik və mənalı ifadəsinə can atır və buna nail olur. Baxın:

Hamını ağladan dünya
özü də
haçansa ağlayacaq –
səs salmayın, dünya yatır,
oyansa, ağlayacaq.

Elvin İntiqamoğluna nə arzulaya bilərəm? Axtarışlarında daha inadlı olsun, şeir dilindəki saflığı qoruyub saxlasın, şeirlərində işığa, bu dünyanın gözəlliklərinə şövqü, meyli artsın, çoxalsın, ruhunu, qəlbini əzən dərdlərə pessimist yox, nikbin nəzərlərlə boylansın, axı dərdin özünün də gözəlliyi olur. Onun "Yol gəlmişəm" adlı proqram səciyyəli bir şeiri var, bu yolçuluğunu-daş yol-torpaq yol, daha geniş mənada Vətən yol, Cahan yol əbədi səyahətini yeni poetik çalarlarla davam etdirsin.

**Gülay Tahirlinin**
**"14 Aprel şeiri"**

İndi alma çiçəklərinin
Budaqlardan boylanan vaxtıdır.
Yarpızlar nanələrə göz vurur
arxın kənarlarından.
Küləklər yerindən qopara bilmir nərgizləri,
Həyətin gül-çiçək qoxuyan vaxtıdır .

Yazılan hər bir şeirin başlanğıcı həmin şeirin sonrakı bəndləri üçün hazırlıq mərhələsi sayılır. Daha doğrusu, bu başlanğıc şeirin mahiyyətini, şairin demək istədiyi fikrin özəyini təşkil edir. Gülayın şeiri təbiətin ən gözəl fəsli olan baharın "gül-çiçək qoxuyan" vaxtını təsvirlə başlayır. Amma sonra… şeirə bir hüzn – bir qəmli nostalgiya dalğaları axır. 14 aprel günü bir insanın adi ölüm günümü, ya Vətənin azadlığı uğrunda həlak olan Atanın şəhidliyimi? Hər halda, şeirdə buna işarə olmasa da, bunun rəmzi məna daşıdığını qəbul edək. Gülay Tahirli bütün şeir boyu ata yoxluğundan doğan kədəri təbiətin gözəlliyi fonunda təsvir edir, ata yoxdur, amma alça çiçəkləri, qırx ilin əzəmətli armud ağacı gülümsəyir. Bu kontrast-yoxluqla varlığın bir ürəkdə solmayan, unudulmayan xatirələri kimi yaşayır.

Gülay Tahirlinin yeni şeirlərini gözləyirəm…

**Elvin Nurinin**
**çiçək sevgiləri**

"Ulduz" jurnalı 2021-ci il saylarının birində ənənəvi "Debüt" rubrikasında Elvin Nurinin yeddi şeirini oxucuara təqdim edib. Elə "Ulduz"dakı ilk şeirlərindən onun istedadına bələd oldum. Elvin bu yeddi şeirlə "gəlmişəm, məni də oxuyun" – deyir. Gənc şairlərin əksəriyyəti sevgi şeirləri yazır, Elvin də həmçinin. Amma onun "Ulduz"dakı tək bircə sevgi şeiri bu əbədi mövzuda mənə təzə göründü. Təzəliyi ondadır ki, bu şeirdə sevgiliyə xitabən nə yalvarış var, nə də onun gözəlliyinin tərənnümü. Sevən aşiq bu müqəddəs yolu necə başa vuracağı barədə düşünür:

Çəmənlərə elə-belə gəlmirəm,
Çiçək-çiçək sevəcəyəm mən səni.
Hər ürəkdə eşqi bir az öyrənib
Ürək-ürək sevəcəyəm mən səni.

Məhəbbəti ünvanına yetirsin,
Həsrətimi həmişəlik itirsin,
Əsən yelə deyim, səni gətirsin,
Külək-külək sevəcəyəm mən səni.

Hər sözündə ünvanına daş atıb,
Bu eşq məni dəli edib, yaşadıb,
Hər mələyi bir az sənə oxşadıb.
Mələk-mələk sevəcəyəm mən səni.

Şeirdəki "sevəcəyəm mən səni" ifadəsi, məncə, yaşanılacaq gözəl bir sevginin hələ başlanğıcıdır. Bunu həm and kimi, həm də etiraf kimi qəbul edək. Əliağa Vahid demişkən: "Sevmək, sevilmək yaxşıdır bu dünyada".

Elvin Nuri özünün "Mənim ömrüm" şeirində bu şair ömrünü küəklərin, çiçəklərin, bulaqların, söyüdlərin, buludların, zirvələrin, dənizlərin ömrünə bənzədir. Çox gözəl! Hər bir insan ömrünü təbiətin müxtəlif atributlarına bənzətmək olar və Azərbaycan şeirində buna dəfələrlə təsadüf etmişik. Elvinin şeirində bütün bunlar ardıcıllıqla sadalanır, digər bənzətmələr də diqqətdən yayınmır, şair ömrü uşaqların, babaların, nəvələrin ömrünə də qiyas olunur. Beləliklə, bir şair ömrü onun düşüncəsində çoxçalarlı məna kəsb edir. Amma şeirin ikinci hissəsində bu real düşüncəni xəyali bir "gediş" əvəz edir. Elvin deyir: "İnsan ömrü yaşayıram hələ ki, Ruhum uçsa, quş ömrü də olacaq. Yaşadığım şair ömrü öləndə Mənim ömrüm daş ömrü də olacaq. Yaratdığı əsərlərdə, görürəm Sənətkara, deyirlər də, yaşayar". Və sonda: "Dünya, sənə qalmıram, bax, gedirəm, Mənim ömrüm əbədiyyət yolçusu". Cavan bir şairin öz gələcəyi barədə indidən belə düşünməsinə, olumu və ölümü barədə öncəgörməsinə haqq qazandıraqmı? Əlbəttə, hər hansı bir şair öz xəyalının qanadlarında gələcəyə uça bilər, amma bunun üçün mənəvi bir stimul olmalıdır.

Elvin Nurinin "Ölməli havadır", "Ölüb gəlib" şeirlərində ölümdən danışılır, amma qətiyyən pessimizm havası duyulmur bu şeirlərdə. Günəşin güldüyü bir vaxtda lirik qəhrəmanın ovqatı havaya köklənir, onun qəlbi ilə hava arasında bir sinoptik uyarlığı yaranır:

Nə ağlarsan, günəş gülür,
Deyib-gülməli havadır.
Xoşbəxtliyi qarşılayıb
Dərdi silməli havadır.

Günəşin güldüyü bu hava ilə dərdini unutmaq istəyən lirik qəhrəman dərdə, içindəki qəmə, gözlərindəki yaşa "unut getsin" deyir.

Unut getsin dərdi-qəmi,
Ömür-dəniz, arzu-gəmi.
Bəlkə, yetsin vüsal dəmi?
Nə toy çalmalı havadır.

Hər şeyin öz yerini bil,
Dostun dərdi-sərini bil,
Bu sevginin qədrini bil,
Qədir bilməli havadır.

Ürəkdən gülmək istəyir,
Hər şeyi bilmək istəyir,
Adam lap ölmək istəyir,
Əcəb ölməli havadır…

Sonuncu – "Əcəb ölməli havadır" misrası belə lirik qəhrəmanın dərdə üstün gəlməsini kölgələmir. El içində belə ifadə işlənir və bu qətiyyən bədbinliyə dəlalət eləmir.

Elvin Nurinin "Bu gecə yuxuma girmişdi Şuşa", "Əziz Şuşa, biz qayıtdıq" şeirəri isə qələbə sevincimizin gənc bir şairdə doğurduğu yüksək əhvali-ruhiyyənin ifadəsidir. Zəlimxan Yaqubun "Bu gecə yuxuma girmişdi Şuşa, Cabbar ağlayırdı, Xan ağlayırdı" şeirindəki əhvali-ruhiyyədən fərqli olaraq, Elvin əsir Şuşadan deyil, qalib Şuşadan söz açır:

Bu gecə yuxuma girmişdi Şuşa,
Başında nə duman var idi, nə çən.
Allah, bundan gözəl gün olarmı heç? !
Oyanıb gördüm ki, Şuşadayam mən.
Asılmış zirvədən qanadım qoşa,
Şuşada yuxuma girmişdi Şuşa…

Arzum budur ki, Elvin "Bir zaman həsrətə tutulmuşdusa, İndi dörd bir yanı al, gülşən idi" çiçək qoxulu misralarını çiçək sevgilərilə bütün Qarabağa səpsin…

**Valeh Qoca –**
**Kəsilmiş tut ağacının**
**ağrısı ilə yaşayan şair**

Şəxsən tanımadığım, heç üzünü də görmədiyim (bunun elə bir əhəmiyyəti yoxdur) Valeh Qocanın "Ulduz"un 2022-ci il, may sayında "Dərgidə kitab" bölməsində on üç şeirini oxudum. Ədəbiyyata istedadlı bir gənc şairin gəlişini hiss etdim. Dil, ifadə səlisliyi, fikirlə ifadə tərzinin vəhdəti bir çox şeirlərində diqqəti cəlb edən başlıca amildir. Nədən yazırsan-yaz, amma necə yazmaq əsas şərtdir. Biz ən çox hansı şeirləri sevirik? Çox səbəblər göstərə bilərik. Biri budur ki, şeir gərək fikrin obrazlı ifadəsi ilə diqqəti cəlb eləsin. V.Q. Belinski yazırdı: "Şair olmaq – indi o demək deyil ki, quş kimi melodik səslər çıxarıb civildəyəsən, şair olmaq – poetik obrazlarla düşünmək deməkdir". Valeh Qoca "Kəsilmiş tut ağacı" şeirində məhz obrazlı düşüncə tərzini ortaya qoyur. O, yaşıl tut ağacının kəsilməsini hüznlə xatırlayır, bu yoxluğu – bir ağacın qırılıb odun-oduncağa çevrilməsini təkcə bioloji və maddi fəlakət kimi deyil, həm də insani fəlakət kimi düşünür. Baxın:

Sən neçə sərçənin evi-eşiyi,
Neçə gül balanın pənah yeriydin.
Daş atıb qoynunda yuva dağıdan
Neçə Allahsızın günah yeriydin.

Hər səhər havaya təmizlik qatıb,
Hər gecə qəlbimi dilləndirərdin.
Qoşa budağını yelləncək edib,
Körpə qızlarımı yelləndirərdin.

Biz sənin ömrünü alıb əlindən,
Qızındıq oduna, ömür eylədik.
Sən bizi istidən qorudun, ancaq
Biz səni yandırıb kömür eylədik.

Valeh Qocanın "Gedirəm" şeiri də bu on üç şeirin içində seçilir. Öz doğma yurd-yuvasından ayrılan, uşaqlığını, gəncliyini orada keçirməyib həsrətlər içində yaşayan yüzlərlə otuz yaşlıların kədəri ilk dəfə bu şeirdə öz əksini tapır. Valeh Qoca işğaldan azad olunmuş kəndinə gedir, çünki "Yol gözləyir talan evim, aynası daş olan evim, üşüyür lüt qalan evim, ocaq olmağa gedirəm". Və sonda: İlahi, ata yaşımda Uşaq olmağa gedirəm". Bu, Şuşa ilinin poeziyasında ümidsizliyə son qoyan, böyük qayıdışı əks etdirən şeirlərdən biridir.

Valeh Qocanın "Saat şəkil", "Darıxa", "Qızım elə bilir, atalar ölmür", "Kölgələr sevdiyi yerə düşərlər", "Səhərim" şeirlərində poeziyamızın yaşarı ənənələri ilə müasir şeirin çalarları birləşir. Yəni Valeh Qoca "köhnə havalarda" təzə notlar səsləndirə bilir. Məsələn, bugünkü gənc şairlərin şeirlərində "darıxmaq" sözünə tez-tez rast gəlirik. Onlar həm özləri darıxırlar, həm də bu darıxmağı az qala rəmzə çevirirlər. Valehin darıxmağı isə rəmzdən uzaqdı, bir insanın darıxmaq təşnəsini ifadə eləmir, amma darıxmağa yeni məna verməyə çalışır. "Ömründə bir dənə gecən olmaya, Səninçün ay ötə, ulduz darıxa… Bir tək sən olasan, bir də bu dünya, Qoyasan dünyanı yalqız darıxa… Bir qızın qəlbini dəftər edəsən, Bir az qələminçün kağız darıxa". "Saat şəkli" şeirində Valeh Qoca divardan asılmış, başının üstündə "oxuyan" saatın yerinə sevdiyi qızın şəklini asır. Çünki bu saat gedənləri qaytara bilmir, hicran – ayrılıq yaradıb, qoy onun yerində qızın şəkli asılsın, çünki "Mənim öz zamanım öz nəfəsimdir". Əlbəttə, bu "dəyişmə" onun ürəyincədir – qoy bütün ömrü boyu, saatın yerində asılan o şəklə doyunca baxsın. Məsələ bunda deyil, şeirdə müəllif fikri inandırıcıdır, çünki burada hər misra o fikri bizə çatdıra bilir. Valeh Qoca danışıq qüsurlu lal bir gəncin ürəyindən keçənləri də belə inandırıcılıqla ifadə edə bilib.

Mən də inanıram ki, Valeh Qoca şeirdə YÜKSƏLİŞ dövrünə yetəcək, axtarışları yeni poetik tapıntılarla diqqəti cəlb edəcək.



**Müxəmməd HAQVERDİ**

# Etüd

Mayın ortasında,
Təəccüblü olsa da,
Qızmar istinin izi ilə
Soyudu hava.
Bir azdan külək əsdi,
əsdi, əsdi...
Qara-boz hava
Bir az da
Qaraldı.
Axşam yağış yağdı,
O da çox yox ha,
Bir az,
Dəqiqə olmaz.
Göydən ay gülümsədi
Yağışdan sonra
Sakitləşdi gecə...
Elə bil ağappaq sükut
Uddu gecəni.

***

Bulud kimi dolanda
Yağmağa yerin ola.
Yağasan, yağasan...
Boşalanacan.
Sonra da uçmağa
Göylərin ola,
Uçasan, uçasan...
Quş olanacan.
Nəfəs dərməyə
Otağın ola,
Şeir yazmağa
Hücrən.
Çiçək açmağa
Budağın ola,
Xoşbəxt olmağa
Gecən.

# Yaşantı

Bir az saçımın
Ağlığına,
Bir az alnımın
Qırışlarının sıxlığına,
Atamın yoxluğuna da
Alışdım.
Hərdən
Məndən kiçiklər
Qoca deyəndə
Acığım qaynardı,
Yavaş- yavaş
Daha acığım soyudu,
Alışdım,
Dözə-dözə,
Ümidimə dirsəklənə-dirsəklənə,
Ömür yaşayıram
Üzü sabaha.

# Sübh çağı

Gecənin ulduz naxışlı
Köynəyi,
Didilər, süzülər...
Anların axarında.
Çılpaqlaşan gecə,

Mürgülü səma
Sübhü eynək kimi
Gözünə taxar...
Bu gözəlliyə,
Bu ilahi ana
Mən baxaram,
Bir də göydən Allah baxar.
Qalmışam gözləyə-gözləyə –
Bəxtimin,
Həsrətimin
Səhəri açılsın deyə.

## Həqiqət və yalan

Həbsdən çıxan
İnsan kimi
Həqiqət sısqa,
Üzgün.
Yalan isə
Şişmiş
Qabaritini
İtirmiş birisi.
Tərəfdaşı çox,
Gileyi yox...
Təpkisi az...
Yaşayır kefli-kefli –
Həqiqətin təzyiqini,
Şəkərini
Artıra-artıra.

## Hər gün

Günümüzün
Neçə saatı
Saata baxmaqla
Keçir, görən?
Neçə saat sərf edirik
Darıxmağa,
Tələsməyə,
Dözməyə...
Dəqiqələri az qala
Gözümüzlə çəkirik
İrəli.
Tez "aparsın" deyə bizi...
Beləcə,
Hər gün saat-saat enirik axşama
Və
Saat- saat qalxırıq
Ömrümüzü.

## Lirik etüd

Günəş günün sahilində
Qərib çağı,
Qürub çağı...
Üfüqə boylanan
Nəhəng
Al – qırmızı kürənin
Qırmızı təbəssüm
ələyən şüaları
közərdib əridəcək,
itəcək üfüq,
sozalacaq işıq...
Tünd  – qara səma
Sakit-sakit
Göyün nur çiçəklərini –
Ulduzları bitirəcək.

***

Səmada buludların
Naxışı
Təzələnir hər gün,
Bir- birinə bənzəmir
Göylərin təbii ekranı.
İnsana sevgidir
İlahinin rənglədiyi
Göylərin hər anı.
Tanrı düşündürür bizi,
Özünün
Üfüqdən-üfüqə  uzanan
Azman tablosuyla.





**39.Yohannes YENSEN**

# BƏDİİ DÜŞÜNCƏ İLƏ ELMİ TƏFƏKKÜRÜN SİNTEZİ

1944-cü ildə Nobel Mükafatları Komitəsinin qərarına əsasən, mükafatların verilməsində İkinci Dünya müharibəsi ilə əlaqədar yaranmış fasilə sona yetdi və həmin il bütün sahələr üzrə mükafatçılar müəyyən edildi. Bəşər salnaməsinə ən qanlı hadisə kimi daxil olmuş bu savaşın antifaşist qüvvələrin qələbəsi ilə başa çatması dünya tarixində, həqiqətən, yeni bir mərhələnin başlanğıcını qoydu. Siyasi və ideoloji mənsubiyyətindən asılı olmayaraq, bütün ölkələrin vətəndaşları gələcəyə işıqlı ümidlərlə baxmağa başladılar. Bu faktor dünyanın ən nüfuzlu beynəlxalq mükafatı laureatlarının seçilməsinə də öz təsirini göstərdi. Bundan sonra Nobel Komitəsi mükafatçıların fəaliyyətində humanitar amilin dərəcəsinə daha çox önəm verməyə başladı. Onu da qeyd etmək lazımdır ki, müharibə illərində Nobel mükafatları verilməsə də, namizədlərin adları qəbul edilir və rəsmi siyahı tərtib olunurdu. 1940, 41, 42, 43-cü illərdə ədəiyyat üzrə mükafata namizədlərin sırasında sonrakı illərdə Nobel mükafatına layiq görüləcək H.Hesse, Q.Mistral, K.Sendberq, C.Steynbeq, T.Eliot, B.Pasternak, M.Şoloxov kimi görkəmli yazıçıların adları da vardı.

1944-cü ildə ədəbiyyat üzrə Nobel mükafatı "intellektual biliyə həvəsi və bənzərsiz yaradıcılıq üslubu ilə birləşdirmiş olduğu müstəsna poetik təxəyyülünün gücü və zənginliyinə görə" Danimarka yazıçısı – görkəmli şair, nasir, publisist, təbiətşünas, səyyah Yohannes Yensenə verildi. Danimarka ədəbiyyatı ayrı-ayrı müəlliflərin və əsərlərin ədəbiyyat tarixində müstəsna yer tutması ilə xüsusi fərqlənməsə də, o vaxta qədər ən prestijli mükafata layiq görülmüş yazıçıların sayına görə bir çox "ədəbiyyat ölkələri"ni qabaqlayırdı. Y.Yensen bu siyahıda Danimarkanın üçüncü nümayəndəsi idi. Ədəbi yaradıcılıq sahəsində elə bir fövqəladə nailiyyəti ilə seçilməyən Danimarka ədəbiyyatı üçün bu, çox yüksək göstərici idi. Xüsusi olaraq vurğulamağı lazım bilirik ki, bütün dünyada Skandinaviya ölkələrindən biri sayılan, daha doğrusu, bu cür qələmə verilən Danimarka coğrafi cəhətdən Skandinaviya yarımadasında yox, ona qonşu olan Yutlandiya yarımadasında yerləşir. Onu yalnız tarixi-mədəni (həm də ədəbi) mənada Skandinaviya ölkəsi hesab etmək olar. Qonşu xalqların ədəbi mühitində Y.Yensenin mövqeyini Norveçdə S.İbsenin, İsveçdə S.Lagerlöfün mövqeləri ilə yanaşı qoymaq olar. O, XX əsr Danimarka ədəbiyyatının ən dəyərli

nümayəndələrindən biri sayılır və ölkəsində milli ədəbi düşüncənin simvolu kimi qəbul edilir. Bu gün dünya ədəbiyyat aləmində populyar olmasa da, ədəbiyyatın yaddaşında qalan əsərləri ona belə bir məşhurluq haqqını verir.

(Yeri gəlmişkən, belə bir maraqlı faktı qeyd etmək yerinə düşər ki, Y.Yensenin adaşı – görkəmli alman alimi Yohannes Yensen 1963-cü ildə kvant mexanikası sahəsində elmi araşdırmalarına görə fizika üzrə Nobel mükafatına layiq görülmüşdür).

1944-cü ilin Nobel mükafatlarının təqdimat mərasimi yalnız 1945-ci ildə – Dünya müharibəsi başa çatandan sonra keçirildi. Mərasimdə İsveç Akademiyasının üzvü Andres Esterlinq Y.Yensenin sənətini yüksək qiymətləndirərək onun ədəbi yaradıcılığının "ən müxtəlif epik və lirik, romantik və realistik əsərləri, habelə tarixi və fəlsəfi esseləri ehtiva etdiyini bildirmişdi. Yeni laureatın Nobel nitqi onun yaradıcılığının ümumi ruhu ilə həmahəng səslənirdi. O, çıxışının böyük bir hissəsini Alfred Nobelin və görkəmli Danimarka təbiətşünası, Çarlz Darvinin ən nüfuzlu davamçısı Karl Linneyin elmi fəaliyyətinin dəyərləndirilməsinə həsr etmişdi. Y.Yensenin yaradıcılığının ümumən çox geniş əhatə dairəsinə baxmayaraq, onun ədəbiyyat üzrə mükafata layiq görülməsini Nobel Komitəsinin tələsik qərarı kimi qiymətləndirənlər də vardı. Məsələn, ABŞ jurnallarindan biri Y.Yensenin əsərlərinin böyük ədəbiyyat nümunəsi olmadığını vurğulayaraq onun ən nüfuzlu ədəbi mükafata layiq görülməsini aşağı liqaya məxsus beysbolçunun yüksək liqada çıxış etməsinə bənzətmişdi.

Yohannes Vilhelm Yensen 1873-cü il yanvarın 20-də Danimarkanın şimalında yerləşən Himmerlənd əyalətində, Farsye şəhərində baytar ailəsində doğulmuş, ömrü boyu ölkənin paytaxtı Kopenhagendə yaşamışdı. Atası peşəsinə görə ədəbiyyatdan uzaq adam olmasına baxmayaraq, ciddi şəkildə milli folklorun toplanması və öyrənilməsi ilə də məşğul olurdu. Övladlarında da ədəbi yaradıcılığa maraq oyada bilmişdi. Təsadüfi deyil ki, ailənin on bir uşağından dördü sonralar peşəkar yazıçı olmuşdu. Yohannesin kiçik bacısı Tit Yensen ölkəsində tarixi romanlar müəllifi kimi tanınmışdı, eyni zamanda Danimarka qadın hərəkatının öncüllərindən idi.

İlk təlim pilləsini ev şəraitində keçən Yohannes orta təhsilini dini təmayüllü kafedral məktəbdə almışdı. Kopenhagen Universitetinin tibb və təbiət elmləri fakültəsinin tələbəsi olan Y.Yensen hələ gənclik çağlarından ədəbiyyatla dərindən maraqlanmış, öz ölkəsinin yazıçıları ilə yanaşı, U.Şekspir, H.Heyne, E.Zolya, K.Hamsun, R.Kiplinq kimi görkəmli sənətkarların da yaradıcılığını dərindən öyrənmişdi. Ümumiyyətlə, onun bütün yaradıcılıq fəaliyyətində ən çox heyrət doğuran cəhət mütaliə dairəsinin fantastik dərəcədə geniş olması idi.

Praktik yaradıcılığının ilk dövründə bir neçə detektiv roman yazaraq onları İvar Lvekke imzası ilə nəşr etdirən gənc yazıçı xeyli populyarlıq qazanır və bundan sonra çap etdirdiyi avtobioqrafik xarakterli "Eynar Elker" və "Danimarkalılar" romanları ilə ciddi yaradıcılıq yoluna qədəm qoyur. Yazıçı "Danimarkalılar" romanının personajları nümunəsində Danimarka gənclərinin qəlb ağrılarını, ümidsizlik, çıxılmazlıq girdabından xilas olaraq həyat eşqi, yaşamaq uğrunda mübarizə əzmi qazanacaqlarına inamını əks etdirməyə çalışır. Hərçənd ki, yazıçı özü gəncliyin qələm təcrübəsi saydığı bu əsərləri yaradıcılıq nailiyyəti saymır və yetkinlik dövründə çap olunan kitablarına daxil etmirdi.

Bu əsərlərin nəşrindən əldə etdiyi qazancla ABŞ-a səyahət edən Yohannes Amerika cəmiyyətinin həyat prinsiplərini ideal nümunə kimi qəbul edir və ömrü boyu bu mövqedə qalır. 1902-1903-cü illərdə bir daha ABŞ-a səfər edən yazıçı bir ildən artıq orada yaşayır. ABŞ səfərindən sonra Y.Yensen universitet təhsilini yarımçıq qoyaraq o vaxta qədər əməkdaşlıq etdiyi "Politika" qəzetində

rəsmi işə qəbul edilir. Bir neçə il davam edən müxbirlik fəaliyyəti onun yazı manerasının püxtələşməsinə və bədii yazılarında publisistik motivlərin güclənməsinə səbəb olur. Qəzetin müxbiri kimi bütün Avropa ölkələrində olur, 1901-ci ildə Parisdə keçirilən ümumdünya sərgisinin fəaliyyətini işıqlandırır, İspaniyaya ezamiyyətə göndərilən yazıçı burada cərəyan edən vətəndaş müharibəsinin hadisələrini 1902-1903-cü illərdə "Politika"nın səhifələrində dərc etdirdiyi silsilə məqalələrdə şərh edir. Həmin dövrdə yenidən dünya ölkələrini səyahətə çıxan Y.Yensenin gördüyü yeni ölkələr, müşahidə etdiyi insan xarakterləri onun yaradıcılığına yeni enerji, yeni süjet motivləri verir. Səyahətlər əsasında yazdığı əsərlərdə o, görüb-tanıdığı müxtəlif xalqların həyat tərzini, onları təmsil edən insanların xarakterini, psixoloji özəlliklərini əks etdirməyə çalışır. Gəzdiyi ölkələrin nümunəsində dünyaya yüksək mütərəqqi mövqeli ziyalıların təhlili (analitik) baxışları səviyyəsindən dəyər verir.

Y.Yensen peşəkar ədəbiyyata qədəm qoyanda Danimarka və ümumən Avropa ədəbiyyatında aparıcı mövqe tutan neoromantizm ədəbi cərəyanı gənc yazıçının yaradıcılıq manerasının formalaşmasında həlledici rol oynaya bilmədi. Çünki o, həyat gerçəkliklərinə real, şüurlu yanaşmanın tərəfdarı idi. Hələ yetkinkik yaşlarına çatmazdan əvvəl anlamışdı ki, həyat reallıqlarına qeyri-rasional mövqedən yanaşma insanı və bütövlükdə cəmiyyəti ictimai tərəqqi yolundan uzaqlaşdırır.

Yaradıcılığının həmin dövründə yazdığı hekayələrdə gənc yazıçı mühafizəkar xalq həyatının özəlliklərindən doğan dünyagörüşünün əsrlər boyu yaşatmış olduğu ənənəvi təsəvvürlərin köklərini araşdırmağa çalışırdı. 1898-ci ildə nəşr etdirdiyi "Himmerləndin insanları" kitabı Yutlandiya sakinlərinin adət-ənənələrindən, yaşam tərzindən bəhs edən realist hekayələr toplusu idi. Həmin mövzunu davam etdirən yazıçı 1904-cü ildə "Yeni Himmerlənd əhvalatları", 1910-cu ildə isə "Himmerlənd tarixçələri" kitablarını oxuculara təqdim edir. Ədəbiyyat dairələri və ədəbi tənqid bu kitabları yüksək qiymətləndirir.

Əsasən bədii təxəyyül məhsulu kimi meydana çıxan bu əsərlərlə paralel olaraq yazıçı Danimarka tarixində önəmli rol oynamış kral II Kristianın həyatından, faciəvi taleyindən bəhs edən və real hadisələrə əsaslanan üç cildlik "Kralın süqutu" tarixi romanını yazır. Əsər hər biri ölkənin tarixində ayrıca mərhələni əhatə edən üç hissədən ibarətdir. "Baharın ölümü" adlı birinci kitabda 1490-cı ildə İsveçə qarşı azadlıq müharibəsinə hazırlıq mərhələsinin hadisələrindən, "Möhtəşəm yay" adlı ikinci kitabda İsveç krallığı üzərində qazanılmış şanlı zəfərdən, "Qış" adlı üçüncü kitabda isə 1523-cü ilin kəndli üsyanı nəticəsində kral II Kristianın hakimiyyətdən salınaraq qətlə yetirilməsindən bəhs olunur. Müəllif baş qəhrəmanını ölkəsini azad, çiçəklənən bir diyara, əhalisini isə xoşbəxt bir xalqa çevirmək istəyən mütərəqqi insan kimi təsvir edir. Fəqət arzuların zamanı gəlməyib və bu şəxsiyyət işıqlı gələcəyi yox, qaranlıq mühiti seçmiş cahil kütlənin əlində məhv olur. Kral tarixi fiqur kimi tənha olsa da, ədəbi qəhrəman kimi tək deyil. Yazıçı Kristianı bütün həyatı boyu xaraktercə onun əksi – antipodu olan əkiz qardaşı Mikkey ilə paralel təqdim edir. Kraldan fərqli olaraq, qardaşı sanki real dünyada yox, uydurma xülyalar aləmində yaşayır. Müəllif Mikkeyi yalan, saxta düşüncələrlə ömür sürən, xəyanət yolu seçərək özünə və ətrafına, son nəticədə bütün xalqına, vətəninə bədbəxtlik gətirən mənfur bir insan kimi təqdim edir. Bədii əsər olaraq, romanın ən əlamətdar və orijinal cəhəti odur ki, bütün süjet boyu qəhrəmanını sanki ikili həyat sürən, xeyirlə şər arasında tərəddüd edən bir insan kimi göstərən müəllif bütün bu fantastik həyat gerçəkliyini – hadisələrin mərkəzində bir yox, iki surətin dayandığını, ziddiyyətli xarakterli bir qəhrəmanın yox, bir-birinə zidd olan iki qəhrəmanın mövcudluğunu

oxucuya yalnız əsərin finalında – qəhrəmanın ölüm anında açıb göstərir. Bu trilogiyanı indiyə qədər də Danimarka ədəbiyyatında tarixi mövzuda yazılmış ən dəyərli əsər kimi qiymətləndirirlər. Yeri gəlmişkən, "Kralın süqutu" çap olunduqdan sonra Y.Yensenin əsərlərini bir çox Avropa xalqlarının dillərinə tərcümə etməyə başladılar.

1904-cü il Y.Yensenin şəxsi həyatı üçün də əlamətdar olur. Gənc yazıçı Elza Mariya Ulrik adlı xanımla ailə qurur və yenidən Kopenhagendə yaşamağa başlayır. Bu evlilikdən onların iki oğlu dünyaya gəlir.

Nəsr əsərləri ilə yanaşı, məhsuldar poeziya yaradıcılığını da davam etdirən Y.Yensen 1906-cı ildə "Şeirlər" adlı ilk poetik toplusunu nəşr etdirir. Danimarka ədəbiyyatı mütəxəssisləri onun həm şeir, həm də nəsr əsərlərinin bədii-üslubi xüsusiyyətlərindən bəhs edərkən yazıçının son dərəcə zərif və həssas söz xiridarı olduğunu xüsusi qeyd edərək bu əsərləri dil və ifadə baxımından yüksək sənətkarlıq nümunəsi kimi dəyərləndirirlər.

Y.Yensenin həyat mövqeyindən söz açarkən onu da əlavə etmək lazımdır ki, dərin əqidəli ateist olan yazıçı dini görüşləri xalqın ictimai tərəqqisi üçün maneə sayırdı. Onun fikrincə, ictimai tərəqqinin hərəkətverici qüvvəsi insanı cəhalətdən xilas edib elmi düşüncə yoluna gətirməkdir. Bədii yaradıcılıqla paralel, həm də insanı yalnız ictimai deyil, eyni zamanda bioloji varlıq olaraq götürən təbiət fəlsəfəsinin – natural fəlsəfənin görkəmli nümayəndəsi kimi tanınan Y.Yensenin elmi mülahizələri bu sahədəki həmkarlarından fərqli olaraq, yüksək yaradıcılıq fantaziyası və bədii təxəyyül elementləri ilə zəngindir. Bir təkamülçü kimi o yalnız bioloji varlıqların deyil, insan cəmiyyətinin də tərəqqisinə inanırdı.

1912-ci ildə Y.Yensen ikinci dəfə böyük səyahətə çıxır. Səyahət zamanı avropalılar üçün əlçatmaz sayılan Monqolustan, Çin, Sinqapur, Seylon kimi ölkələrlə tanış olur. Şərqdən qərbə doğru bütün Rusiya ərazisini qatarla keçir. Bu tanışlıqdan aldığı təəssüratı 1915-ci ildə nəşr etdirdiyi "Zəmanəmizə giriş" adlı publisistik kitabında əks etdirir. Dünya səyahətləri zamanı üzləşdiyi və yaddaşında qoruduğu yaşantıları Y.Yensen 1922-1924-cü illərdə oxuculara təqdim etdiyi altı cildlik "Uzun sürən səyahət" əsərində geniş təfərrüatı ilə əks etdirir. Bu dövrdən başlayaraq ədib qələmə aldığı həm publisistik, həm də bədii əsərlərində obrazlılıqla elmiliyi, bədiyyatla intellektuallığı üzvi şəkildə əlaqələndirməyə, uzlaşdırmağa can atır və çox zaman buna nail olur. Elmi baxışlarında təkamül nəzəriyyəsinin banisi, böyük təbiətşünas və mütəfəkkir Çarlz Darvinin davamçısı kimi çıxış edən Y.Yensen öz əsərlərində bu elmi nəzəriyyənin ideyalarını bədii inikas metodları ilə ifadə edərək göstərir ki, insanı kamil bir varlıq kimi yetişdirən cəmiyyətin ictimai mövcudluq qanunları ilə yanaşı, həm də həyatın təbii inkişaf prinsipləri olmuşdur.

Yazıçının bu problemin konkret elmi və fəlsəfi cəhətlərinin bədii metodlarla şərhinə həsr olunmuş on iki cildlik ayrıca külliyyatı vardır. Onun ali ədəbi mükafata layiq görülməsində bu amil də mühüm rol oynamışdı. Təsadüfi deyil ki, Nobel Komitəsi Y.Yensendən başqa heç bir yazıçının mükafata layiq görülməsi barədə qərarında ədəbi istedadla yanaşı, "intellektual bilik" faktorunu xüsusi vurğulamamışdı.

1920-ci illərdə Y.Yensenin yaradıcılığı həmin dövrdə ədəbiyyata gələn gənclərin yaradıcılıq profilinin formalaşmasına güclü təsir göstərir. Əsasən xalq həyatının mənəvi panoramını əks etdirən və xalq ədəbiyyatının üslub-ifadə formalarına əsaslanan bu ədəbiyyat həm də Y.Yensenin bilavasitə təsiri altında Danimarka tarixinin keçdiyi keşməkeşli inkişaf yolunun ən mühüm hadisələrini diqqət mərkəzində saxlamağa və onları müasir dövrün tələb etdiyi yanaşma meyarları baxımından dəyərləndirməyə çalışır. Demək lazımdır ki, yazıçı bu mövzuya və onun ifadə tərzinə bir sıra prinsipial yeniliklər gətirə bilir. Müasiri olan digər qələm adamları əsas diqqəti sosial ədalət

məsələlərinə yönəltdikləri halda, Y.Yensen çağdaş insanın itirmiş olduğu mənəvi enerji mənbələrini tapmağın və bərpa etməyin yollarını axtarırdı. Bu zaman yazıçı insanlığın həyat yoluna ədib kimi yox, daha çox mütəfəkkir kimi yanaşırdı.

1925-ci ildə üçüncü dəfə dünya səyahətinə çıxan yazıçı Fələstin, Misir, Şimali Afrikanı gəzdikdən sonra 1927-ci ildə təbiət və insan varlığı haqqında düşüncələrinin yekununa həsr olunmuş "Şüurun əsas cizgiləri" adlı elmi-fəlsəfi kitabını nəşr etdirir. Sonuncu dəfə 1939-cu ildə ABŞ-a səfər edir.

Həyat və yaradıcılıq fəaliyyətinin bütün məqamlarında siyasətdən kənar, daha doğrusu, onun fövqündə durmağa çalışan Y.Yensen zamanın acı rüzgarlarından tam təcrid oluna bilmir. Almanlar Danimarkanı işğal edəndə vətənpərvər yazıçı onlara qarşı mübarizə yolunu seçərək faşist rejiminin və şəxsən A.Hitlerin əleyhinə fikirlərini söyləməkdən çəkinmir. Onun adı Avropada antifaşist müqavimət hərəkatının simvollarından birinə çevrilir. Bəşər sivilizasiyasının qanlı faşizm bəlasına qarşı apardığı əzmkar mübarizənin həlledici məqamında Danimarka yazıçısının ən nüfuzlu beynəlxalq mükafata layq görülməsində, heç şübhəsiz, bu amilin həlledici rolu vardı.

Nobel mükafatından sonra yazıçı əsas diqqət və yaradıcılıq enerjisini xalqının dünyagörüşünün, həyat fəlsəfəsinin əsasını təşkil edən Danimarka mifologiyasının toplanmasına, nəşrinə və araşdırılmasına həsr etmişdir. Bu zaman onun gəldiyi ən maraqlı və orijinal qənaətlərdən biri müasir dünya sivilizasiyasının köklərini Avropanın şimal xalqlarının mədəniyyətində görməsi idi. Bu mövzu daxilində də ilk növbədə yazıçı olaraq qalan Y.Yensen ənənəvi mif mətnlərinin poetikası əsasında yeni miflər yazmağa başlayır. Bu yazıları o, mifoloji təfəkkür məhsulu olan klassik miflərin imitasiyası kimi yox, müasir bədii düşüncəyə əsaslanan yeni ədəbi janr olaraq meydana çıxarırdı. Bu məzmunlu yazı prosesi onun bədiyyatla intellektin sintezindən törəyən yaradıcılıq stixiyasına daha uyğun idi. Buna görə də Nobel mükafatçısı qısa zaman ərzində geniş oxucu kütləsinin diqqəti cəlb edən bu unikal əsərlərin yeddi cildlik külliyyatını nəşr etdirə bildi.

77 illik məhsuldar yazıçı və orijinal tədqiqatçı ömrü sürən Y.Yensen 1950-ci ildə Kopenhagen şəhərində vəfat etdi və burada dəfn olundu. 1991-ci ildə anadan olduğu Farsye şəhərində görkəmli yazıçının ev muzeyi açılıb.

**Y.Yensenin aforizmlərindən seçmələr**

- Yalnız bəslədiyi köhnə ümidlər puça çıxandan sonra insanın həyatında yeni mərhələ başlayır.
- Ağac torpaqda kök atıb böyüdüyü kimi, xatirələr də ötən günlərin yaddaşında kök atıb yaşayır.
- İnsanları xeyir əməllərə səsləmək mənasında müasir dövrdə kilsəni teatr əvəz edir.
- Sirkdə çıxış edən aslanlara tamaşa etdikcə vəhşiliklə mədəniyyətin kəsişməsinin nəticələrini görürsən.
- İnsanın daxilindəki insanı görmək çox çətindir.
- Mənəvi ucalıq çox zaman insanın başından yuxarı yüksəlmir, əksinə, içinə çökür.
- Həyatda ətrafa baxdıqca üzlərdən daha çox ikiüzlülər görürsən.
- Hamımız günahkarıq, ancaq bunun cəzasını hamı çəkmir.
- Torpağa bircə il qulluq eləməsən, yüz ilin yiyəsizinə çevrilir.
- Hər bir ağ avropalının qanında vəhşi afrikalının qanından damlalar var.
- X.Kolumb dünyadan insanlara bəxş etdiyi böyük kəşfi anlamadan köçdü – budur onun faciəsi.



# Qabriel QARSİA MARKES

# QARDA SƏNİN QAN LƏKƏN

Axşamtərəfi sərhədə çatanda Nena Dakonte gördü ki, toyda barmağına taxdığı nişan üzüyü qana bulaşıb. Yun odeyala bürünmüş jandarm Pireney dağlarından əsən güclü küləyə sinə gərərək bir əlində fənər yırğalana-yırğalana gələnlərin pasportlarını yoxlayırdı. İkisinin də pasportu diplomatik idi. Sənədlərin qaydasında olduğuna baxmayaraq, o, fənərin işığını gənclərin üzünə salıb şəkillə tutuşdurdu. Nena Dakonte balaca bir qızcığaza bənzəyirdi. Bal rəngində şəffaf dərisi tutqun, darıxdırıcı yanvar axşamında hələ də Karib günəşini əks etdirir, gözləri isə xoşbəxt quş gözlərinə bənzəyirdi. Əynində bütün sərhəd qarnizonunun bir illik maaşına belə alınması mümkün olmayan, boynuna qədər büründüyü xəz dərili palto vardı. Sükan arxasında olan həyat yoldaşı Billi Sançes qızdan bir yaş kiçik idi, həm də çox yaraşıqlı görünürdü. Əynində dama-dama şotland gödəkcəsi, başında beysbolçu papağı vardı. Yoldaşından fərqli olaraq, hündürboy idi və idmançılara xas bədən quruluşu vardı. Möhkəm çənəsi elə bil dəmirdən tökülmüşdü. İlk baxışda dalaşqan adam təəssüratı bağışlayır, eyni zamanda utancaq görünürdü. Hər ikisinin imkanlı olduğunu təsdiqləyən isə kapotundan bəbir mırıltısı gələn metal rəngli, bahalı maşın idi. Belə maşın sərhəd məntəqəsində hər vaxt görünməzdi. Arxa oturacaqlar təzə çamadanlarla və hələ də açılmayan hədiyyə qutuları ilə dolu idi. Orada həmçinin kurortların birində nəzakətli quldura rast gəlməzdən əvvəl onu ehtizaza gətirən Nena Dakontenin tenor saksafonu da vardı.

Jandarm möhürlənmiş pasportları ona qaytaranda Billi Sançes yoldaşının yaralı barmağına işarə edərək əczaxananın harada olduğunu soruşdu. O da küləyin vıyıltısında güclə eşidiləcək səslə qışqırdı ki, əczaxananı Hendayedə soruşun, Fransa tərəfdə... Məntəqədə masa arxasında oturan Hendaye jandarmları da kart oynaya-oynaya, çörəyi yetimdoyduran stəkana süzdükləri çaxırda isladaraq hoppuldatmaqlarında idilər. Oturduqları yer isti və işıqlı olduğundan burunlarının ucunu belə bayıra çıxarmağa tənbəllik edirdilər. Ancaq bahalı maşını görən kimi pəncərədən əllərilə Fransaya keçməyi işarə etdilər. Billi Sançes bir neçə dəfə siqnal versə də, jandarmlar heç nə başa düşmədilər və onlardan biri pəncərəni açıb üstünə elə qışqırdı ki, vıyıldayan külək ona muştuluq oldu:

– Merde! Allez-vous-en! (Zibil! Rədd ol burdan!)

Vəziyyəti belə görən Nena Dakonte paltonun yaxalığını qulağına qədər qaldırıb maşından düşdü və təmiz fransız dilində əczaxananın yerini soruşdu. Jandarm nəfəri isə ordundakı çörəyi çeynəyə-çeynəyə yolu göstərməyin onun işi olmadığını deyib tez də pəncərəni bağladı. Ancaq xəz dərili, gözqamaşdırıcı paltoya bürünən qızın yaralı barmağını sorduğunu görəndə onu vəhşətli

gecənin mələkəsi sayıb dediyi sözdən peşman oldu və bundan sonra onlara izah etdi ki, ən yaxın şəhər Biarritsdir. Ancaq qışın belə oğlan çağı canavartək ulayan küləkdə düşündü ki, açıq əczaxana, bəlkə də, bir az irəlidə, Bayonnada tapıla.

– Bu, çox ciddidir? – deyə xəbər aldı.

– Heç. – Nena Dakonte brilyant üzüklü barmağını ona göstərərək güldü. – Sadəcə, tikan batıb.

Bayonnaya çatmamış yenidən qar yağmağa başladı. Hələ saat yeddi tamam deyildi, amma çovğun olduğundan küçələr boş, qapılar bağlı idi. Heç yerdə əczaxana tapmadıqlarından yollarına davam etməyə qərar verdilər. Bu qərar, deyəsən, Billi Sançesin xoşuna gəldi. Onun nadir avtomobillərə dəli bir sevgisi vardı. Heç vaxt Bentli markalı maşın sürməmişdi. Bu maşını özünü oğlunun qarşısında günahkar sayan imkanlı atası onu sevindirmək üçün toy günündə sürpriz olaraq hədiyyə etmişdi. Sükan arxasında özünü o qədər rahat və bəxtiyar hiss edirdi ki, nə qədər sürsə də, yoruldum demirdi. Bu gecə Bordo şəhərinə çatacağına əmin idi. Şəhərin Splendid mehmanxanasında yeni evlənənlər üçün nömrə kirayələmişdilər və heç bir külək-çovğun onların istəyinə mane ola bilməzdi. Amma Nena Dakonte Madriddən bəri saqqız kimi uzanan yolda çox yorğun görünürdü. Elə bil qarın üzərində keçi ləpirinin açdığı cığırla irəliləyirdilər. Bayonnadan çıxandan axan qanı dayandırmaq üçün baş barmağını dəsmalla yaxşıca sıxıb bağlayandan sonra maşının arxa oturacağında yuxuya getdi. Billi Sançes bundan yalnız gecə yarısı qarın kəsdiyini, şam ağacları arasında küləyin səngidiyini və kolluqların başı üstündə asılmış səmada buzlu ulduzların sayrışdığını görəndə xəbər tutdu. O, Bordonun yuxuya dalmış küçələrilə ötüb keçdi və yanacaq doldurmaq üçün maşını yalnız yolun qırağındakı məntəqədə saxladı, çünki Parisə qədər birnəfəsə sürmək həvəsində idi. 25 min funt sterlinq dəyərində olan "oyuncağına" o qədər aludəydi ki, yanında barmağı qan içində, üzü şəfəq saçan və məsum uşaq kimi yuxuya gedən xanımının da onun kimi xoşbəxt olub-olmadığını heç düşünmədi.

Onlar üç gün əvvəl buradan 10 min km uzaqda, Kartaxena de İndiasda ailə həyatı qurmuşdular. Gənclərin evliliyinə oğlanın atası təəccüblənmiş, qızın valideynləri isə heç sevinməmişdilər. Özü də gənclərin xeyir-duasını ölkənin baş arxiyepiskopu vermişdi. Onlardan savayı heç kim bu gözlənilməz məhəbbətin təməlinin necə və harda qoyulduğunu bilmirdi. Bu sevgi münasibətləri toydan üç ay əvvəl, bazar günlərinin birində, Marbelya çimərliyində qadınların soyunma otağına Billi Sançesin quldur dəstəsinin hücumu zamanı başlamışdı. Nena Dakontenin 18 yaşı təzəcə tamam olmuşdu. İşveçrədə oxuduğu mək-



təbdən yenicə qayıtmışdı. Dörd dildə səlis danışır, tenor saksafonunda məharətlə ifa edirdi. Həmin gün dənizə, çimərliyə gəlmişdi. Çimərlik paltarını geyinmək üçün əynini təzəcə soyunmuşdu ki, birdən qonşu kabinələrdə çaxnaşma düşdü. Yan otaqlarda qışqırıq səsləri eşitsə də, nə baş verdiyini anlamadı. Qapısının cəftəsi qopub bir tərəfə düşəndə qarşısında gözəl bir dələduzun dayandığını gördü. Əynində tək leopard dərisinə bənzər qısa şort vardı. Bədəni isə elastik, incə və sahildə yaşayanlarda olduğu kimi gündən qaralmışdı. Sağ biləyinə Roma qladiatorlarının taxdığı metal bilərzikdən keçirmişdi, qoluna da onu ölümcül bir silaha çevirən zəncir dolamışdı. Boynundan asdığı dini medalyon isə hər dəfə nəfəs aldıqca səssizlikdə qorxmuş ürəyin döyüntülərinə qoşulurdu. Məktəbin aşağı siniflərində bir yerdə oxumuşdular, birlikdə ad günlərində neçə-neçə pinyata (içi dolu şirniyyat qabları – red.) sındırmışdılar. İkisi də hələ kolonializm dövründən şəhərin vəziyyətinə baxan bir əyalətin tanınmış sülalələrindən idilər. Ancaq aradan illər keçdiyindən ilk baxışdan bir-birini tanımamışdılar. Nena Dakonte özünü itirdiyindən çılpaq bədənini belə gizlətməyə macal tapmamışdı. Billi Sançes özünü lap uşaq kimi apardı: əynindəki qısa şortu dizinə qədər aşağı salıb qalxmış vəhşi ilanını ona göstərdi. Qız təəccüb etmədən oğlanın gözlərinin içinə baxdı.

– Mən ondan daha bərkini və böyüklərini görmüşəm, – içindəki qorxusuna qalib gələrək, – özünü yığışdır, mən sənin üçün qaradərili deyiləm.

Düzünə qalsa, Nena Dakonte bakirə idi, özü də həyatında bir dəfə də olsun çılpaq kişi görməmişdi. Bu vaxt Billi Sançes hirsindən barmaqlarını sıxaraq əlinə doladığı zəncirlə divara yumruq vurdu. Güclü zərbədən əli zədələndi. Nena Dakonte onu öz maşınında xəstəxanaya çatdırdı, əli sağalanacan ona kömək etdi, sonda isə odlu məhəbbətlə "məşğul olmağa" başladılar. Bütün cansıxıcı iyun ayını dörd Dakonte nəslinin yaşadığı evin daxili terrasında keçirdilər. Qız saksafonda dəbdə olan mahnılar çalır, qolu gipsə salınmış sevgilisi isə hamakda uzanaraq yellənə-yellənə onu izləyirdi. Evin körfəzdəki iylənmiş su anbarına açılan iri pəncərələri vardı. Bu, La Manqa məhəlləsində ən köhnə, ən böyük və şübhəsiz, ən səliqəsiz evlərdən biriydi. Ancaq Nena Dakontenin saksafon çaldığı, şahmat formasında plitələr düzülmüş terras saat dörddən sonra cənnətməkana çevrilirdi. Terrasın qarşısında, manqo və banan ağacları olan kölgəli həyətdə evdən də qədim, ailə üzvlərindən xatirə qalan adsız bir qəbir vardı. Hətta belə bir ziyalı ailədə musiqidən başı çıxanlar saksafonu anoxronik bir alət sayırdı. Qızın nənəsi saksafonu ilk dəfə eşidəndə: “elə bil gəmi fit verir”, – demişdi. Anası hey çalışırdı ki, qızı saksafonu bu cürə çalmasın, belə hesab edirdi ki, musiqidə hissiyyatlı çalğı vacib deyil, amma qız rahat olsun deyə, ayaqlarını aralayır, ətəyini dizindən yuxarıya qədər qaldırırdı. Anası: “Mənə maraqlı deyil hansı alətdə çalırsan, əsas odur ki, ayaqlarını aralamayasan”, – deyirdi. Ancaq "gəmidən gələn səs" Billi Sançesin çöhrəsindəki kədərə qalib gəlirdi. Nena Dakonte vəhşi ad qazanmış, varlı ailədən çıxan bu kobud oğlanın arxasında qorxaq bir yetimi kəşf etmişdi. Əli sağaldıqca bir-birlərinə elə öyrəşdilər ki, yağışlı axşamların birində qız onu yatağına dartanda bu yaxınlığın çılğın məhəbbətə keçməsi oğlanı heyran etdi. Bütün gecəni evdə tək qaldılar. Hər gün bu saatlarda, demək olar ki, iki həftə ərzində divardan asılmış hərbçi portretlərinin önündə, vaxtilə cənnət görmüş, sevgidən doymayan nənələrin yatdığı bu əfsanəvi çarpayıda lüt-üryan uzanaraq oynaşırdılar. Sevişməyə ara verəndə isə çılpaq haldaca açıq pəncərədən içəri dolan mehin altında körfəzdəki gəmilərin üfunətini iyləyir, bayırdan gələn səsləri

– banan ağacları altında qurbağaların qurultusunu, adsız qəbirdən süzülən damcıların pırıltısını dinləyir və əvvəllər heç vaxt diqqət etmədikləri həyatın təbii gözəlliklərini seyr edirdilər.

Nena Dakontenin valideynləri evə qayıdanadək onlar sevgidə o qədər təcrübə qazandılar ki, dünya onların gözündə bir eşq aləmi olduğundan harda gəldi, istədikləri kimi sevişir, hər dəfə də eşqi sanki yenidən kəşf edirdilər. Əvvəlcə onlar bu işlə atanın oğlu qarşısında günahını yumaq üçün ona bağışladığı idman maşınında məşğul oldular. Maşından bezəndən sonra ilk dəfə tanış olduqları yerdə, Marbelya çimərliklərindəki boş kabinələrdə sevişməyə başladılar. Hətta noyabr karnavalında üzlərinə maska taxıb hələ bir neçə ay əvvəl Billi Sançesə və onun "kadeneros" quldur dəstəsinə dözən mamasantasların köməyilə köhnə Getseman qulları məhəlləsində kirayə götürdükləri boş otaqlarda görüşdülər. Nena Dakonte əvvəllər saksafona bağlandığı kimi, şəhvət dənizinə elə baş vurdu ki, şuluq Billi Sançes qızın "mən sənin üçün qaradərili deyiləm" sözlərini xatırlayanda nə demək istədiyini indi anladı. Billi Sançes hər zaman ona nəvaziş göstərmişdi. Evlənən andan bir-birlərini həmin şövqlə sevməyə davam edirdilər. Təyyarə Atlantik okeanının üzərindən keçdiyi vaxt stüardessalar yuxu bişirəndə özlərini darısqal tualetə verib həzz almaq əvəzinə gülməkdən qarınlarını tuturdular. Onlar yalnız toydan bir gün sonra Nena Dakontenin iki aylıq hamilə olduğundan xəbər tutdular.

Madridə çatanda özlərini heç də sevgidən doymuş hiss etmirdilər, əksinə, yenicə evləndikləri üçün anbarlarında kifayət qədər barıt vardı. İkisinin də valideynləri tədarük görmüşdü. Hələ təyyarədən düşməmiş məmur atasının tapşırığı ilə Nena Dakonte üçün dəridən hazırlanmış ağ rəngli bahalı bir palto ilə pişvazına çıxmışdılar. Billi Sançesə isə toy münasibətilə həmin qışın dəbi olan qoyun dərisindən gödəkcə və hava limanında ona sürpriz edəcəkləri, markası bilinməyən maşının açarlarını gətirmişdilər.

Ölkənin diplomatik nümayəndələri də onları rəsmilər üçün təyin olunan salonda qarşıladı. Səfir və həyat yoldaşı hər iki ailənin çoxdankı tanışları idi. Səfir ixtisasca həkim olduğundan Nena Dakonte dünyaya gələndə doğuşda iştirak etmişdi. O, yenicə evlənənləri elə bir tər qızılgül dəstəsilə qarşıladı ki, onun yanında şeh damcısı belə süni görünürdü. Özünü itirmiş qız səfiri və yoldaşını sevincək salamladı və həddibüluğa çatmamış ərə getdiyi üçün bir az da sıxılantəhər oldu. Gülləri alanda tikanı barmağına batdı. Qız ağrısını güclə udaraq üzünə təbəssüm verdi.

– Mən bunu qəsdən elədim ki, barmağımdakı üzüyü görsünlər, – ərinə tərəf astadan pıçıldadı.

Həqiqətən də, bütün diplomatik heyət üzüyün gözəlliyinə heyran qaldı. Təkcə üzüyün qaşına görə deyil, həm də onun çox qədim və yaxşı qaldığına görə qiymətli olduğunu düşündülər. Qızın barmağından axan qana isə heç kəs fikir vermədi. Sonra ordakıların diqqəti maşına yönəldi. Səfir maşını hava limanına gətirməklə, hətta onu sellofanladıb üstünə də qızılı rəngdə bant bağlatdırmaqla məzəli iş görmüşdü. Ancaq Billi Sançes onun bu incə yumoruna dəyər vermədi. Maşını görmək arzusu ilə alışıbyanan gənc üstünə çəkilmiş örtükdən yapışıb onu bir dartımla kənara elə atdı ki, az qala nəfəsi kəsiləcəkdi. Qarşısında üstüaçıq, dəri salonlu, son model "Bentley" dayanmışdı. Göyün üzü kül rənginə boyanmışdı, sazaq adamı elə kəsirdi ki, havada dayanmaq olmurdu. Ancaq Billi Sançes soyuğu qətiyyən hiss etmirdi. O, maşını tam öyrənənəcən səfirliyin əməkdaşlarını bayırda saxladı. Onlar da nəzakət xatirinə soyuqdan az qala donduqlarını dillərinə belə gətirmədilər. Sonra səfir Billi Sançesin yanında əyləşib

ziyafət zalına gedən yolu onlara göstərdi. Yol boyu onu şəhərin görməli yerlərilə tanış etdi. Lakin maşının sehrinə düşən Billi Sançesin gözü ətrafı görmürdü.

İlk dəfəydi ki, doğma yurdundan kənara çıxmışdı. Vətənində eyni kursu dəfələrlə keçərək bütün özəl və dövlət kolleclərində olmuşdu. Axırda hamının ondan acığı gəlməyə başladı. Şəhərin fərqli görünüşü, günün günorta çağı evlərdə yandırılan çilçıraqlar, yarpaqlarını tökmüş ağaclar, dənizin uzaqda olması – bütün bunlar onda tənhalıq hissi doğururdu. Beləliklə də, özündən xəbərsiz az vaxt içərisində tənhalığın qurbanı oldu. Bu arada qəfil və səssiz gələn bir qasırğa ətrafı caynağına aldı… Fransaya səyahət etmək üçün naharı bitirib səfirin evindən çıxanda şəhəri ağappaq qarla örtülü gördülər. Belə bir şəraitdə Billi Sançes maşını tamamilə unutmuşdu. Sevindiyindən hamının gözü qarşısında qışqırıb qarı üzünə sürtməyə başladı, hətta yerə də sərələndi.

Nena Dakonte yaralı barmağından qan açıldığını ilk dəfə Madriddəki qasırğadan sonra gördü. Qız təəccübləndi, çünki rəsmi ziyafətlərdən sonra italyanca ariya oxumağı sevən səfirin xanımını saksafonla müşayiət etdiyindən barmağından axan qandan xəbəri olmamışdı. Sərhədə gedən ən yaxın yolu ərinə göstərdikcə elə hey qanayan barmağını özündən ixtiyarsız sorurdu. Yalnız Piriney dağlarına çatanda əczaxana axtarmaq ağlına gəlmişdi. Son günlərin yorğunluğuna təslim olaraq yuxuya gedəndə maşının suyun üstü ilə getdiyini gördü, az sonra üzündə ağrılı ifadə ilə oyananda isə barmağına bağladığı dəsmal hələ uzun müddət yadına düşmədi. Maşının panelində işıldayan saata baxdı. Əqrəblər 3-ü göstərirdi. İndi harada olduqlarını xatırlamağa çalışdı. Və başa düşdü ki, Bordo, Anqulem və Puatye şəhərlərini keçiblər, Loira dambası boyu gedirdilər. Ayın şöləsi sanki dumanlıqda boğulur, şam ağaclarının arasından çıxan qəsrlərin silueti isə kabus haqqında olan nağıllara bənzəyirdi. Nena Dakonte ərazini tanıdığından başa düşdü ki, Parisdən üç saatlıq məsafədədilər. Billi Sançes də cəsur bir qəhrəman kimi sürməyinə davam edirdi.

– Sən vəhşisən, – qız dedi. – On bir saatdır heç nə yemədən maşın sürürsən.

Təzə maşın şərab kimi onun ağlını başından almışdı. Özü də təyyarədə az yatmışdı. Səhər tezdən Parisə çatanda da özünü gümrah hiss edirdi.

– Mən hələ də səfirlikdə yediyimin üstündəyəm, – dedi. – Bir də ki camaat Kartaxenada indilərdə kinoteatrdan çıxır. Orda axşam saat 10 olar.

Nena Dakonte ərinin sükan arxasında yuxuya gedəcəyindən qorxurdu. Madriddə onlara hədiyyə verilən qutulardan birini açıb ağzına bir parça şəkər portağalı qoymaq istədi, amma əri əlilə onu rədd etdi:

– Erkəklər şirniyyat yemir, – dedi.

Orleana çataçatda duman çəkildi və ayın işığı üstü qarla örtülü tarlaları aydınlatdı. Ancaq yolda Parisə tərəvəz və şərab daşıyan yük maşınlarının əlindən hərəkət etmək olmurdu. Nena Dakonte ərinə maşını sürməkdə kömək etmək istəsə də, bunu deməyə cürət etmirdi. Çünki səfərə çıxmazdan qabaq Billi Sançes ona demişdi ki, dünyada ən böyük təhqir yanında əri olaola sükanın arvadda olmasıdır. Qız beş saat yatdığı üçün beyni ayıq idi. Hətta Fransa mehmanxanalarında dayanmadıqlarından məmnun idi. O, bu yerləri yaxşı tanıyırdı. Uşaq vaxtı valideynləri ilə Fransanı qarışqarış gəzmişdi. “Buralar dünyanın ən gözəl mənzərəli yerlərindən biridir. Amma ürəyin yansa belə, sənə bir içim su verən adam tapılmaz”, – dedi. Nena Dakonte o qədər ehtiyatlı idi ki, özü ilə sabun və gigiyenik kağız götürmüşdü. Bilirdi ki, Fransa mehmanxanalarında sanuzelə sabun qoymurlar. Gigiyenik kağızlar isə ötən həftə oxuduqları, səliqə ilə kəsərək qarmağa

keçirdikləri qəzetlər idi. Təəssüf ediləsi bir şey də vardı ki, gecəni sevişə bilmədilər. Dərhal ərindən təklif gəldi:

– Elə indi ağlımdan keçdi ki, dəli aşiqlər kimi birbaşa qarın üstünə uzanaq. Elə burada. İstəyirsən?

Nena Dakonte ərinin sözlərini ciddi qəbul etdi. Yol boyu səmadakı ay pambıq kimi torpağı örtən yumşaq qarı işıldadırdı. Lakin Parisə yaxınlaşdıqca hərəkət daha da intensivləşir, işıqlandırılmış zavod kompleksləri görünür və yol qırağında velosiped sürənlərin sayı artırdı. Qış olmasaydı, yəqin, bu vaxtda günəş öz şəfəqlərini çoxdan başlarının üstündən ətrafa səpələmişdi.

– Yaxşı olardı ki, Parisə çatmağımızı gözləyək, – Nena Dakonte dedi. – Orada təmiz mələfələrin üstündə daha isti olar, normal ailələrdə olduğu kimi.

– İlk dəfədir ki, bu təklifimdən imtina edirsən, – əri dedi.

– Bəli, – o, cavabı yubatmadı. – Axı biz təzəcə evlənmişik.

Səhər açılar-açılmaz əl-üzlərini yuyandan sonra yolun qırağındakı kafelərin birində tualetə gedib, sonra orada qırmızı çaxırdan içə-içə səhər yeməyi yeyən tır sürücüləri ilə birlikdə kruasanla kofe içdilər. Nena Dakonte ayaqyolunda köynəklə ətəyinin qana bulaşdığını gördü, ancaq ləkələri təmizləməkdən vaz keçdi. Barmağına sarıdığı qanlı dəsmalı atdı, nişan üzüyünü çıxarıb o biri barmağına taxdı, sonra yaralı barmağını sabunla yumağa başladı. Barmağına batan tikanın izi, demək olar ki, qalmamışdı. Buna baxmayaraq, maşına əyləşəndən sonra qan yenidən açıldı. Nena Dakonte qolunu pəncərədən bayıra çıxardı ki, bəlkə, tarlaların şaxtalı küləyi yaralı barmağına məlhəm ola. Bunun bir köməyi olmasa da, Nena Dakonte hələ ki həyəcan keçirmirdi. “Əgər kimsə bizi tapmaq istəsə, qan ləkələrinin izilə getmək kifayət edər”, – deyib əlini havada saxladı. Bu düşüncədəykən ilıq səhər şəfəqləri sanki çöhrəsində yaranmış təbəssümünə tumar çəkirdi.

– Təsəvvür elə, Madriddən Parisə qədər qarın üstündə qan ləkəsi. Sənə elə gəlmirmi ki, bu, bir mahnının sözlərində gözəl səslənər? – Nena Dakonte dedi.

Artıq bu barədə fikirləşmədi. Parisə çatar-çatmaz onun barmağından açılan qan hələ də kəsmək bilmirdi və qız hiss etdi ki, axan qanla bərabər huşunu da yavaş-yavaş itirir. O, çantasında gəzdirdiyi təmizlik kağızı ilə barmağını sıxmağa çalışdı. Ancaq sıxmağı ilə qanlı kağızı bir-birinin ardınca pəncərədən çölə tullamağı bir oldu. Əynindəki paltar, hətta palto və maşının oturacaqları da qana bulaşmışdı. Bunu görən Billi Sançes, həqiqətən, qorxdu, dərhal əczaxana axtramağa başladı. Ancaq qız bilirdi ki, bu, əczaçı işi deyil.

– Biz, demək olar ki, Orlean Qapısındayıq, – qız dedi. – Leklerk küçəsi ilə düz get, bu küçə ən geniş və ən yaşıl prospektdi, sonra nə edəcəyini sənə deyəcəm.

Bu, səyahət boyu ən çətin yol oldu. Leklerk küçəsində velosipedlərin, minik və mərkəzi bazarlara çatmaq istəyən iri yük maşınlarının əlindən tərpənmək mümkün deyildi. Bura sanki bir cəhənnəm kələfini xatırladırdı. Billi Sançes maşınların boş yerə verdiyi siqnallardan o qədər əsəbiləşdi ki, bir neçə sürücünün ünvanına “kadeneros” dilində yaxşıca söydü, hətta dalaşmaq üçün maşının qapısını açıb düşmək də istədi, ancaq Nena Dakonte izah etdi ki, fransızlar dünyada ən kobud insan olsalar belə, adamı heç vaxt vurmazlar. Ərini bu xoşagəlməz vəziyyətdən qurtarmaq üçün qızın göstərdiyi səy ən düzgün qərar idi və həmin anlar Nena Dakonte huşunu itirməməyə çalışırdı.

Təkcə Leon de Belfort şəhər meydanına çıxmaq üçün onlara bir saatdan çox vaxt lazım idi. Yanvar ayında Parisin kafe və dükanları elə işıqlandırılmışdı ki, elə bil gecə vaxtı idi. Bu, Parisin yanvar ayları üçün tipik

bir çərşənbə axşamıydı, yerdə bərkiməyən sulu qar, çisəkləyən və bədbin ovqat yaradan hava... Ancaq getdikləri küçə boş görünürdü və bir neçə yüz metrdən sonra Nena Dakonte əliylə ərinə işarə etdi ki, sağa dönsün… İrəlidə nəhəng və görünüşündən bədbinlik tökülən bir xəstəxananın giriş qapısında dayandılar.

Qızın maşından düşmək üçün köməyə ehtiyacı olsa da, təmkinli görünür, üzündən hələ də şövqünü itirmədiyi hiss olunurdu. O, növbətçi həkim gələnə kimi uzanıqlı vəziyyətdə tibb bacısına xəstəlik tarixçəsini danışdı və anketi doldurdu. Billi Sançes onun əl çantasını götürdü və toyda barmağına üzük taxdığı əlindən tutdu. Qızın əli soyuq idi, heysiz dodaqları isə təravətini itirmişdi. Növbətçi həkim gəlib qızın yarasını müayinədən keçirənədək Billi Sançes onun əlini buraxmadı. Həkim çox cavan, başı keçəl, dərisi isə qaralmış mis rəngində olan bir kişiydi. Nena Dakonte həkimə heç fikir vermədi, solğun bir təbəssümlə birbaşa ərinə müraciət etdi:

– Qorxma, yalnız o ola bilər ki, bu hannibal əlimi kəsib yesin, – deyərkən yumor hissini itirmədiyi açıq-aydın hiss olundu.

Növbətçi həkim müayinəni bitirdikdən sonra onları təmiz kasteyano ilə təəccübləndirdi. Amma onun ləhcəsindən asiyalı olduğu bilinirdi.

– Yox, – həkim cavabında dedi. – Bu hannibal belə gözəl barmağı kəsməkdənsə ölməyi üstün tutar.

Ər-arvad bir qədər kefsizlədi, amma həkim onlara ürək-dirək verdi. Sonra göstəriş verdi ki, qızı palataya aparsınlar. Billi Sançes yoldaşını müşayiət etmək istəsə də, həkim onun qolundan yapışdı:

– Sizə olmaz, o, intensiv terapiyadan keçəcək.

Nena Dakonte ərinin üzünə gülümsədi və təkərli çarpayıda dəhlizdə gözdən itənədək əlilə sağollaşdı. Həkim tibb bacısının yazdığı məlumatları nəzərdən keçirdi. Bu zaman Billi Sançes onu səslədi.

– Həkim, o, hamilədir.

– Neçə vaxtdır?

– İki ay olar.

Billi Sançes cavabında nəsə eşitmək istədi. Amma həkim onun sualına o qədər də əhəmiyyət vermədi.

– Yaxşı ki, bunu mənə bildirdiniz, – deyib getdi.

Billi Sançes xəstələrdən tər iyi gələn xoşagəlməz zalda gözləməyə başladı. Ona yalnız Nena Dakontenin getdiyi boş dəhlizə baxmaq qaldı. Sonra xəstələrinə baş çəkməyə gələnlərlə bərabər taxta oturacaqda əyləşdi. Orada nə qədər gözlədiyini bilmədi. Xəstəxanadan çıxmaq istəyəndə hələ də gecə idi, yağış çiskinləyirdi. Bilmirdi nə etsin, dünya sanki başına fırlanırdı.

İllər sonra xəstəxananın arxivindəki məlumatlardan öyrəndim ki, Nena Dakonte yanvarın 7-də, çərşənbə axşamı saat 9:30-da müayinəyə götürülüb. Birinci gecəni Billi Sançes xəstəxananın Təcili tibbi yardım bölməsinin giriş qapısının qarşısında saxladığı maşınında yatdı. Səhər tezdən yaxınlıqda tapdığı kafedə altı qaynadılmış yumurta yedi və üstündən də iki fincan südlü kofe içdi. Madriddən çıxandan yaxşı yeməmişdi. Sonradan Nena Dakonteni görmək üçün təcili tibbi yardım bölməsinə qayıtsa da, ona binanın əsas giriş qapısına getməli olduğunu bildirdilər. Orada oturan qapıçını başa salmaq üçün asturiyalı bir nəfər tapdı. Qapıçı da təsdiqlədi ki, həqiqətən, Nena Dakonte xəstəxanada qeydiyyatdadır, ancaq onu görməyə yalnız çərşənbə axşamları saat doqquzdan dördə qədər icazə verilir. Bu o deməkdir ki, altı gündən sonra. O, ispanca danışan həmən qaradərili keçəl həkimi görmək istədiyini bildirdi. Ancaq belə sadə təsvirlə onu heç kim tanıya bilmədi.

Lakin ona Nena Dakontenin qeydiyyatda olduğunu xəbər verəndən sonra rahatlandı

və maşını saxladığı yerə qayıtdı. Burada yolun hərəkətinə nəzarət edən adam ona maşını bir-iki kvartal irəlidə, dar küçədə, tək nömrəli binaların sırasında saxlamağa göstəriş verdi. Elə bu arada gözü qarşıda yenicə təmirdən çıxmış və girişində "Hotel Nicole" yazısı olan binaya sataşdı. Onun cəmi bir ulduzu vardı. Girişində kiçik zalda bir masa və köhnə fortepiano qoyulmuşdu. Mehmanxananın sahibi fransız idi, fleytaya bənzər səslə yaxşı pul müqabilində müştərilərlə bütün dillərdə danışmağı bacarırdı. Billi Sançes on bir çamadan və doqquz hədiyyə qutusu ilə boş qalmış yeganə nömrədə yerləşdi. Bu otaq binanın doqquzuncu mərtəbəsində üçbucaq formasında bir mansard idi. Ora çatmaq üçün qaynadılmış kələm iyi verən spiral formalı pilləkənlə nəfəsi kəsilə-kəsilə qalxmalı idi. Divarlarda illərin kirli xalçaları asılmışdı, mehmanxananın daxili həyətinə açılan yeganə pəncərəsindən isə otağa yalnız öləzimiş işıq düşürdü. Orada bir taxt, böyük paltar şkafı, sadə bir oturacaq, portativ bide və yuyunmaq üçün su bardağı vardı. Otaq o qədər balaca idi ki, orada qalmaq üçün ancaq çarpayıda uzanmalı idin. Hər şey köhnə-kürüş olsa da, nömrə tərtəmiz idi, hətta yenicə dezinfeksiya olunmuşdu.

Billi Sançesin xəsislik aləminə qərq olmuş bu dünyanın bütün sirlərini açmağa ömrü çatmazdı. Otağına qayıdanda qaranlıq pilləkəndə işığın belə tez söndüyünün səbəbini anlamır və qayıdıb onu yandırmağın yolunu da tapa bilmirdi. Hər mərtəbədə pilləkənin başında tualetin olub-olmadığını öyrənmək üçün günün yarısını itirdi. Qaranlıqda bu tualetlərdən birinə girmək istədi. Qapının cəftəsini içəridən bağlayanda gördü ki, işıq öz-özünə yanır, çıxanda isə sönür. Dəhlizin başında yerləşən hamama gündə iki dəfə girirdi. Və hər dəfə də buna görə ayrıca pul ödəməli olurdu. Administrasiya otağından idarə olunan isti su isə üç dəqiqədən sonra kəsilirdi. Buna baxmayaraq, Billi Sançes dərk etdi ki, yaşadığı ölkədən fərqli olaraq, Fransada bu kimi qaydaların qoyulması belə şaxtalı qışda məntiqə uyğundur. Bundan əlavə, özünü o qədər gözübağlı hiss edirdi ki, Nena Dakontenin yardımından kənarda yaşaması ona təəccüblü gəldi.

Çərşənbə günü səhər tezdən otağına qalxan kimi əynini dəyişmədən özünü üzüqoylu çarpayıya atdı. O yalnız üzbəüz binada hələ də müalicə alan həyat yoldaşını düşünürdü. Axşamdan elə dərin yuxuya getdi ki, oyananda saatın əqrəbləri beşi göstərirdi. Ancaq yağışlı havada pəncərədən baxanda başa düşmədi, bu, axşamın beşi idi, yoxsa səhərin. O heç külək və yağışın döyəclədiyi pəncərənin hansı şəhərə açıldığını belə anlamadı. Çarpayıda oyaq halda Nena Dakonteni düşünürdü. Başa düşdü ki, səhərdir. Tez ayağa qalxıb yumurta yediyi kafeyə üz tutdu. Orada həftənin cümə axşamı olduğunu öyrəndi. Xəstəxananın işıqları yanırdı. Yağış kəsdiyindən əsas girişin qarşısındakı şabalıd ağacına söykənib xəstəxanaya girib-çıxan həkimlərə və ağ xalatlı tibb bacılarına baxırdı. Nena Dakonteni qəbul edən həmin asiyalı həkimi görmək ümidilə qapıdan girənləri bir-bir nəzərdən keçirirdi. Amma axşama qədər gözləsə də, onu görmək mümkün olmadı. Soyuqdan donduğundan artıq gözləyə bilmirdi. Saat yeddidə yenidən südlü kofe içdi, sonra da piştaxtadan qaynadılmış iki yumurta götürdü. İki gündü eyni yerdə eyni yeməyi yeyirdi. Mehmanxanaya qayıdanda yolun kənarında saxladığı maşınını gördü. Ondan başqa hamı öz avtomobilini yolun əks tərəfində saxlamışdı. Yaxınlaşanda gözü qabaq şüşəyə yapışdırılmış cərimə kağızına sataşdı. "Hotel Nicole"nin qapıçısı ona güclə başa sala bildi ki, tək günlər maşını yolun bu qırağında, cüt günlər isə o biri qırağında saxlayırlar. Belə rasionalist tələlər iki il bundan qabaq merin maşınını götürüb, yerində donub qalmış polislərin gözü qarşısında yüksək sürətlə

kinoteatra çırparaq qabağına çıxanları xışmalayan, Aviladan gəlmiş saf təbiətli Sançes üçün çox anlaşılmaz idi. İndi qapıçı cərimə ödəməli olduğunu, amma maşının yerini dəyişməməyi məsləhət görəndə ona daha qəribə gəldi. Çünki əgər bunu eləsə, gecə on ikidən sonra maşını yenidən yolun o biri qırağında saxlamalı olacaq. Həmin günün səhəri ilk dəfə idi ki, Nena Dakonteni düşünmədi. Yataqda ora-bura vurnuxsa da, yuxuya gedə bilmirdi. Karib dənizinin sahilindəki Kartaxena yeməkxanalarındakı mavilər yadına düşdü. Aruba adasıdan gələn gəmilər tez-tez bura baş çəkirdi. Qızardılmış balığın dadını və dəniz kənarındakı tavernada verilən hind qozundan hazırlanmış düyü yeməyini xatırladı. Gözlərinin qarşısında divarları sarmaşıqlarla əhatələnmiş evi canlandı. Orada indi axşam saat yeddi olardı. Terrasda atasının gecə köynəyində oturub qəzet oxuduğunu “gördü”.

Bazar günləri əyninə açıq-saçıq don geyinən, qulağında da qızılgül, orda-burda itib-batan iri döşlü, zəvzək anası yadına düşdü. O vaxt yeddi yaşında ikən axşam vaxtı anasının yataq otağına girəndə orada onu çılpaq vəziyyətdə növbəti məşuqlarının biri ilə yaxalamışdı. Söhbətlərində heç vaxt üstünə gəlmədiyi bu hadisə ana ilə oğul arasında mürəkkəb bir münasibətə gətirib çıxarmışdı. Ancaq o bunu anlamırdı, özünü tənha hiss edən tək uşağın gələcəkdə başına gələcəyi dəhşəti anlamadığı kimi… Parisin dərddaş mehmanxanalarının birində vurnuxaraq anası ilə bağlı başına gələni danışmağa adam tapmadığından, həm də qəribsədiyindən gözləri yaşardı.

Bu yuxusuzluq, əslində, onun xeyrinə oldu. Cümə günü yuxudan çox çətin oyandı və gələcək həyatını müəyyənləşdirmək haqqında düşündü. Qərara gəldi ki, paltarını dəyişmək üçün çamadanların birinin qıfılına zor işlətsin. Çünki bütün açarlar və pulun böyük hissəsi Nena Dakontenin əl çantasında idi. Əgər telefon kitabçası da onda olsaydı, Parisdəki tanışlarından birinə zəng vurardı. Getdiyi kafedə fransızca salam verməyi və südlü kofe ilə vetçinalı sendviç sifariş etməyi öyrənmişdi. Amma yumurtanı başqa formada istəməyi öyrənə bilmədiyinə görə özünə əziyyət vermirdi. Onu, sadəcə, qaynadılımış şəkildə piştaxtadan götürürdü. Kərə yağını isə çörəklə birgə verirdilər. Bir neçə gündən sonra isə kafenin işçiləri onu tanıdıqlarından yeməyi hansı formada istədiyini soruşurdular. Onda Billi Sançes səhər yeməyinə qızardılmış kartofla dana əti və bir şüşə şərab sifariş verdi. Özünü elə rahat hiss etdi ki, daha bir şüşə şərabı yarısına qədər içdi və xəstəxanaya zorla girmək niyyətilə küçəni keçdi. Nena Dakonteni harada tapacağını bilməsə də, asiyalı həkimin üz cizgilərini aydın şəkildə xatırlayırdı və onu tapacağına əmin idi. Bu dəfə xəstəxananın giriş qapısına deyil, daha az nəzarət olunan təcili yardım bölməsinə üz tutdu. Təəssüf ki, Nena Dakontenin onunla sağollaşdığı dəhlizdən o yana gedə bilmədi. İçəri keçəndə ətəyi qana bulaşmış nəzarətçi ondan hara getdiyini soruşsa da, o, əhəmiyyət vermədi. Nəzarətçi fransızca eyni sualı təkrar edərək onu izləməyə başladı və sonda qolundan yapışdı. Billi Sançes özünün “kadeneros” fəndlərindən işlədərək yaxa qurtarmağa çalışdı. O zaman nəzarətçi qəzəblənib fransızca anasının üstündə “bazlıq” edə-edə qolunu arxadan elə burdu ki, ayaqları yerdən üzüldü. Qışqırda-qışqırda qapıya qədər aparıb kartof kisəsi kimi elə küçənin ortasına atdı.

Həmin günün acı təcrübəsinin qurbanı olmuş Billi Sançes bir qədər də ağıllandı. Qərara gəldi ki, səfirin qəbuluna düşsün. Nena Dakonte də, çox güman, belə edərdi. Mehmanxananın qapıçısı ünsiyyətcil görünməsə də, hər kəsə əl tutan bir insan idi. Əcnəbi dillərdə danışmasa da, Billi Sançesin ondan nə istədiyini başa düşdü və telefon

kitabçasında səfirliyin nömrəsini tapıb kənarda bir yerdə qeyd etdi. Billi Sançes telefona cavab verən mehriban qadının səsində həmən And dağlarının ləhcəsini duydu. O, hər iki soyadını səfirliyin işçisinə deməklə onu təccübləndirmək istəsə də, qadının səsinin ahəngi dəyişmədi. Ona izah etdi ki, cənab səfir hazırda yerində deyil, sabaha qədər də olmayacaq. Ancaq hər bir halda görüşü əvvəlcədən danışmaq lazımdır. O yalnız xüsusi hallarda vətəndaşları qəbul edir. Billi Sançes başa düşdü ki, bu yolla Nena Dakontenin yanına düşə bilməyəcək, ona görə də telefondakı qadına təşəkkürünü bildirib dəstəyi asdı. Sonra taksiyə minib birbaşa səfirliyə getdi.

Səfirlik Eliseo 22 ünvanında yerləşirdi. Bu, Parisin ən sakit rayonlarından biri idi. Billi Sançes bircə ona təəccüblənmişdi ki, (illər sonra o özü Kartaxena de İndiasda bu hadisəni mənə danışırdı) Parisə düşdüyü gündən ilk dəfə idi ki, günəş Karib dənizindəki kimi parlaq görünürdü, Eyfel qülləsi isə aydın səmada şəhərin içindən ucalırdı. Səfirlikdə onu qəbul edən şəxs ölümcül xəstəlikdən təzəcə ayılmış adama bənzəyirdi. Bu, özünü matəm günlərində geyilən qalstuklu qara paltarında və boynubükük olmasında deyil, həm də müəmmalı jestləri və səsindəki süstlüyündə göstərirdi. O, Billi Sançesin vəziyyətini anladı, eyni zamanda şirin bir dillə xatırlatdı ki, hər ikisi də vəhşi Latın Amerikasından fərqli olaraq, sərt qaydalarla idarə olunan sivil bir ölkədədirlər. Burada xəstəxanalara girmək üçün rüşvət vermək kifayətdir:

– Yox, mənim əzizim! Çərşənbə axşamına kimi gözləməli olacaqsınız, – dedi. – Gərək təmkinli olasınız. Bir də ki cəmi dörd gün qalıb. Bu müddət ərzində Luvra getməyinizi məsləhət görürəm. Getməyə dəyər, – deyib sözünü bitirdi.

Bayıra çıxanda Billi Sançes Konkordia meydanını gördü, ancaq orada nə edəcəyini bilmədi. Binaların arxasından ucalan Eyfel qülləsinə baxdı. Qüllə ona o qədər yaxın göründü ki, çayın qırağıyla ona doğru piyada getmək istədi. Tez də başa düşdü ki, qüllə göründüyü kimi yaxında deyil. Bir də ki irəlilədikcə qüllə elə bil yerini dəyişirdi. Sena çayının qırağındakı bir skamyada oturub Nena Dakonteni düşündü. Körpülərin altından keçən yedək gəmilərini gördü. Bu gəmilər adi gəmi təəssüratı bağışlamırdı. Onlar əlvan rənglərə boyanmış, pəncərələrinə rəngbərəng gül dibçəkləri düzülmüş, iplərindən də yaş paltarlar asılmış səyyar evlərə bənzəyirdi... Uzun müddət donuq baxışlarla balıqçıya baxdı. O qədər baxdı ki, hətta qarmağın tərpəndiyini belə sezmədi. Gözləməkdən zinhara gəlmişdi. Günəş də artıq üfüqdə görünməz olmuşdu. Taksiyə əyləşib mehmanxanaya qayıtmaqdan başqa çarəsi qalmamışdı. Elə bu zaman anladı ki, getdiyi yerin nə adını, nə də ünvanını bilir. Heç xəstəxananın Parisin hansı tərəfində olduğunu belə bilmir.

Təşviş içində qarşısına çıxan kafeyə girdi. Konyak sifariş verib bayaqdan ona rahatlıq verməyən fikirlərini başında cəmləşdirməyə çalışdı. Düşüncələr içərisində divarlardakı güzgülərdə öz əksini müxtəlif bucaq altında görəndə içində bir tənhalıq hiss etdi, hətta canına qorxu düşdü. Həyatında ilk dəfəydi ki, ölüm barəsində düşündü. Ancaq ikinci qədəhdən sonra özünü yaxşı hiss etməyə başladı, hətta səfirliyə qayıtmaq haqqında fikirləşdi. Səfirliyin yerləşdiyi küçənin adını unutduğu üçün cibindəki kartı nəzərdən keçirəndə gözü kartın arxa tərəfində qeyd olunmuş mehmanxanın ünvanına sataşdı... Başına gələnlər ona elə pis təsir etmişdi ki, həftə boyu otaqdan yalnız yeməkxanaya düşür, bir də maşının küçədəki yerini dəyişirdi. Növbəti üç gün ərzində fasiləsiz olaraq yağış çiskinlədi. Onlar şəhərə gələndə də belə yağış yağırdı. Ömründə əlinə bir kitab almayan Billi Sançes başını qatmaq

üçün özünü çarpayıya atıb oxumaq qərarına gəldi. Ancaq yoldaşının çantasından tapdığı kitablar ispan dilində olmadığından çərşənbə axşamına qədər divar kağızındakı tovuzquşularına baxa-baxa vaxtını ötürdü. Bu günlər Nena Dakonte heç cür fikrindən çıxmırdı. Bazar ertəsi “yoldaşım buranı belə görsəydi, mənə nə deyərdi” fikrini beynindən keçirib otağı bir az səliqəyə saldı. Yır-yığış edərkən qızın xəz dərili paltosunda qurumuş qan ləkəsini gördü. Bütün axşamı əl çantasından tapdığı ətirli sabunla ləkəni o qədər ovxaladı ki, axır, paltonu Madriddə təyyarəyə gətirdikləri kimi tərtəmiz elədi.

Çərşənbə axşamı hava tutqun və şaxtalı idi. Billi Sançes səhər saat altıda yataqdan qalxıb xəstəxanaya yollandı. Burda əllərində gül dəstələri və dolu zənbillərlə qapıda dayanan adamlara qarışıb onlarla birlikdə gözlədi. Qapı açılanda o heç kimdən bir kəlmə belə soruşmadan, qolunun üstündə Nena Dakontenin gödəkcəsi içəri keçənlərə qarışdı. Yoldaşını necə tapacağını təsəvvür etmirdi. Həmin anda asiyalı həkimi görməyə onda inam yarandı. Xəstəxananın daxili həyətində güllərin, uçuşan meşə quşlarının arasıdan keçdi. Hər iki tərəfdə palatalar yerləşirdi, sağda qadınlar, solda isə kişilər yatırdı. O, ziyarətçilərin arxasınca düşüb qadınların palatası olan tərəfə keçdi. Xəstəxana paltarında çarpayıda oturmuş qadınları gözdən keçirdi. İri pəncərədən düşən işıq onların çöhrəsini aydınladırdı. Hətta düşündü ki, bayırdan buralar bədbin görünsə də, içəridə ab-hava daha ürəkaçandı. Dəhlizin axırına qədər gedib əmin olmaqdan ötrü bir daha əks istiqamətdə palatalara göz gəzdirdi. Amma Nena Dakonteni orada tapa bilmədi. Sonra pəncərədən kişilərin palatasına tərəf boylandı. Həkimi orada tapacağına inandı.

Deyəsən, onu gördü, həqiqətən də, bu, həmin həkim idi. Həkim bir neçə tibb bacısı ilə bir xəstəni müayinə edirdi. Billi Sançes palataya daxil olaraq, tibb bacılarının birini kənarlaşdırıb xəstəyə tərəf əyilən həkimin düz qarşısında dayandı. Həkim onu görən kimi tanıdı.

– Bu vaxta qədər siz hardaydınız?

Billi Sançes tutuldu.

– Mehmanxanada, – dedi. – Burada yaxında.

Onda hər şeyi öyrəndi. Nena Dakonte yanvarın 9-da, səhər saat 7:10-da Fransanın ən yaxşı həkimlərinin səylərinə baxmayaraq, qanaxmadan dünyasını dəyişmişdi. Həyatının son saatlarında belə gözəl və sakit görünürdü. O, “Atheneé Meydanı” otelində qalan ərini tapmağı xahiş etmişdi. Eyni zamanda valideynlərinə xəbər göndərmək üçün telefon nömrəsi vermişdi. Bu barədə cümə günü səfirliyə nazirlikdən xəbər verilmiş və qızın valideynləri dərhal Paris istiqamətinə uçan təyyarə ilə yola çıxmışdılar. Səfirlik dəfn mərasimini öz üzərinə götürüb, Billi Sançesi axtarıb tapmaq üçün Fransanın Polis Prefekturasına xəbər vermişdi. Radio və televiziya vasitəsilə cümə günü axşamdan 40 saat ərzində Billi Sançesin axtarıldığı barədə xəbər yayılmışdı. Nena Dakontenin çantasından tapılan yoldaşının şəkli şəhərin hər yerində divarlara vurulmuşdu. Bu xəbərdən sonra şəhərdə "Bentley" markalı üç maşın tapılsa da, başqa şəxslərin idi.

Nena Dakontenin valideynləri özlərini xəstəxanaya şənbə günü günorta çatdırmışdılar. Bütün gecəni xəstəxananın kiçik kilsəsində son saatlara qədər meyitin başı üstə Billi Sançesi gözləsələr də, o gəlib çıxmamışdı. Billi Sançesin valideynləri də bu hadisədən xəbər tutmuşdular, hətta Parisə uçmaq üçün hazır idilər, ancaq məqam yetişəndə teleqramla fikirlərindən daşındıqlarını bildirmişdilər. Dəfn mərasimi bazar günü saat ikidə Nena Dakontenin iztirablarına dözməyən Billi Sançesin qaldığı bu çirkli oteldən iki yüz metr aralıda baş tutmuşdu…

Səfirliyin işçisi Billi Sançesin oranı tərk etməsindən bir saat sonra Xarici İşlər Na-

zirliyindən teleqram aldığını etiraf etdi. Onu tapmaq ümidilə Fobur-Sant Onore küçəsinin bütün barlarını gəzmişdi. Dedi ki, ilk dəfə onu görəndə o qədər də əhəmiyyət verməmişdi. Təsəvvürünə gəlməzdi ki, belə yöndəmsiz geyinən, Paris kimi müasir şəhərin yeniliklərinə təəccüblənən şəxs alicənab bir ailədən çıxmış olsun. Bazar günü axşam o, hirsindən qəhərini boğanda Nena Dakontenin valideynləri axtarışa xitam verib, cəsədi metal tabutun içinə qoyub özlərilə apardılar. Qızı görənlər hələ uzun illər Nena Dakontenin həddindən artıq gözəl olduğunu, hətta onun nə ölü, nə də diri kimi göründüyünü deyirdilər. Beləliklə, Billi Sançes çərşənbə axşamı özünü xəstəxanaya yetirəndə artıq dəfn mərasimi ailə həyatının ilk sevincini yaşayan cütlüyün qaldıqları oteldən bir neçə metr aralıda sona çatmışdı. Bu hadisəni Billi Sançesə danışan xəstəxanadakı həkim sakitləşdirmək məqsədilə ona həb vermək istəsə də, o imtina etdi və sağollaşmadan, təşəkkür də etmədən çıxıb getdi. Bir də ki nəyə təşəkkür etsin? Fikrində ancaq hirsini tökmək üçün qulağının dibini qızışdırmağa adam tapmaq idi. Xəstəxananı tərk edəndə qırmızı qana bulaşmayan ağappaq qarın yağdığına heç fikir vermədi. Göyərçin lələklərinə bənzəyən iri qar dənələrində Parisin bayram ab-havası duyulurdu, axı son on ildə ilk dəfəydi ki, belə gözəl qar yağırdı…

*İspancadan çevirdi:*
**Məmməd MƏMMƏDLİ**



# Dərgidə Sərgi









## Ülya Orucova





















ISNN 0134-522
İNDEKS AZ 1000
2 AZN

ulduz_ayliq_edebiyyat_derqisi